HEYDƏR

# ƏLİYEV

## MÜDRİK FİKİRLƏR

OKTYABR 1998-2003 OKTYABR

İKİNCİ KİTAB

-8228-

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

PREZİDENT KİTABXANASI

BAKI, 2009

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA HAQQINDA

# DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA HAQQINDA

*Bu gün Azərbaycan dövlətinin fəaliyyətinin əsas istiqamətlərindən biri də humanistlikdir.*

*Azərbaycan sülhpərvər ölkədir. Biz dünyada sülh istəyirik, Qafqazda sülh istəyirik, bölgəmizdə sülh istəyirik, ölkəmizdə sülh istəyirik və buna nail olmağa çalışırıq.*

*Biz gələcəyə nikbinliklə baxırıq. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Bizim bu gün gördüyümüz işlər və həyata keçirdiyimiz tədbirlər Azərbaycanın ardıcıl inkişafını təmin edəcəkdir.*

*Bizim ölkəmiz müstəqil ölkədir, müstəqil dövlətdir. Biz artıq hansısa bir ölkənin tərkibində deyilik, ona görə də ölkəmizin həyatının hər bir sahəsi dünya ilə bağlıdır, başqa ölkələrlə bağlıdır və dünya iqtisadiyyatı ilə, dünyada gedən proseslərlə bağlıdır.*

*Azərbaycanın dünya miqyasında hörmətini qaldıran həm onun apardığı məqsədyönlü, ardıcıl xarici siyasətidir, həm də ki, Azərbaycanın daxilində yaranmış ictimai-siyasi sabitlik, əmin-amanlıq, insanların rahatlığıdır. Hesab edirəm, bütün nailiyyətlərdən bizim ən böyük nailiyyətimiz budur, ictimai-siyasi sabitliyin yaranmasıdır. Bunu başqa ölkələrdə də qiymətləndirirlər və buna görə də Azərbaycan öz keçmiş illərindən fərqlənir. Vəzifəmiz bunu qorumaq, saxlamaq və daha da möhkəmləndirməkdən ibarətdir.*

*Biz tarixi işlər görürük, gələcəyi – böyük Azərbaycanın parlaq gələcəyini yaratmağa çalışırıq.*

*Sovet İttifaqı dağılandan sonra Azərbaycan böyük çətinliklərdən keçərək öz müstəqilliyini əldə edibdir. İndi biz bu müstəqilliyi saxlamalıyıq, müstəqil Azərbaycanı yaşatmalıyıq, inkişaf etdirməliyik. Bu böyük tarixi vəzifəni, bu tarixi missiyanı hansısa xırda*





*siyasətçilərin iddialarına, şıltaqlıqlarına, yaxud da ki, ayrı-ayrı hay-küylərinə biz qurban verə bilərikmi? Bu, heç vaxt ola bilməz!*

*Müstəqillik əldə edən hər bir ölkə, milli azadlığını əldə edən xalq öz xoşbəxtliyinə gəlib çatır. Ancaq müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir.*

*Müstəqilliyi əldə etmək, onu yaşatmaq tarixi ictimai-siyasi şəraitdən asılıdır.*

*Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır.*

*Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir. Şübhəsiz ki, dövlət dövlətçiliyi möhkəmləndirir. Amma dövlət cəmiyyətə arxalanır. Cəmiyyət insanlardan ibarətdir. İnsanların isə hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər vətəndaş olsun,*

*milli qürur hissi ilə yaşayan vətəndaş olsun. Onda bu vətəndaş dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaqdır. Bu, bizim milli ideologiyamızın əsas hissəsidir.*

*Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir.*

*Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir.*

*Keçid dövrünün əsas məqsədi Azərbaycanda demokratik dövlət quruculuğunu təmin etməkdən, hüquqi vətəndaş cəmiyyəti yaratmaqdan, iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmaqdan, insan hüquqlarını qorumaq və təmin etməkdən, insanlara bütün azadlıqları, o cümlədən mətbuat, söz, fikir azadlıqlarını verməkdən, siyasi plüralizmi təmin etməkdən ibarətdir.*

*Hamımız çalışmalıyıq ki, hüquq-mühafizə orqanları dövlət orqanları içərisində həqiqətən, ictimaiyyət tərəfindən dövlətin qanunlarını həyata keçirən mənəviyyatca sağlam orqanlar kimi tanınsın.*





*Hər bir insanın cəmiyyətdə özünün daxilində olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq.*

*İnsan çox şeyə qadirdir. İnsan nikbin olmalıdır. İnsan nə qədər çətinliklərlə rastlaşsa da, öz istedadını, öz biliyini, öz bacarığını cəmiyyətə təqdim etməlidir, cəmiyyətə, ölkəsinə həsr etməlidir.*

*Hər bir insanın hüququ qorunmalıdır. Ancaq əgər bu gün Azərbaycanın müasir mənzərəsini biz siyasi nöqteyi-nəzərdən qiymətləndirsək, dünya miqyasında Azərbaycan xalqının hüquqlarının kütləvi sürətdə, vəhşicəsinə pozulması aşkardır, göz qabağındadır. Biz hər yerdə bu məsələni, yəni Azərbaycan xalqının hüquqlarının kütləvi şəkildə, vəhşicəsinə pozulmasını ön plana çatdırmalıyıq və bunu yaymalıyıq, bunu bildirməliyik. Bu, bizim tarixi vəzifəmizdir, hər bir azərbaycanlının tarixi vəzifəsidir.*

*Biz həqiqətən hüquqi dövlət yaradırıq, demokratik dövlət yaradırıq və insan hüquqlarının*

*qorunmasını ümumxalq işi, ümumdövlət işi etməyə çalışırıq.*

*Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycanın dövləti humanist siyasət aparan bir dövlətdir.*

*Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quraraq insan hüquqlarının qorunması bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır, dünya miqyasında, Azərbaycanın ərazisində bu bəyannamədən irəli gələn bütün tədbirləri həyata keçirəcəkdir.*

*Azərbaycan Qafqazda və Qafqaz ətrafında, Mərkəzi Asiyada yerləşən, islam dininə mənsub olan xalqlar içərisində öz mədəniyyətini ümumbəşəri dəyərlərlə, Avropa mənəvi dəyərləri, Avropa mədəniyyəti ilə zənginləşdirmiş ən qabaqcıl ölkədir.*

*Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu üç söz bizim dövlət quruculuğumuzun əsas mənasını, məzmununu, əsas prinsiplərini təşkil edir. Bu sözlərin üçü də – demokratiya da, hüquq da, dünyəvilik də insan haqlarından irəliyə gələn sözlərdir. Beləliklə, biz müstəqil Azərbaycanda öz strateji yolumuzu artıq müəyyən etmişik və bu yolla gedirik.*





*Azərbaycan İslam mədəniyyətinin, İslam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulan bugünkü Azərbaycandır.*

*Müstəqil Azərbaycanın dövləti öz vətəndaşlarının yüksək nailiyyətlərini layiqincə qiymətləndirə bilir. Bu da bizim müstəqilliyimizin, dövlətçiliyimizin gözəl göstəricisidir.*

*Müstəqil Azərbaycanın dövlət mükafatını almaq, şübhəsiz ki, hər bir insanda böyük iftixar hissi doğurur.*

*Mən əminəm ki, biz bu müstəqilliyi qoruyub saxlaya biləcəyik və gələcək nəsillərə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdıracağıq.*

*İndi, müstəqil, azad Azərbaycan haqqında çoxəsrlik arzularımızın gerçəkləşdiyi bir vaxtda biz ümummilli mənafelər naminə, vətənimizin ərazi bütövlüyünün bərpa olunması naminə daha böyük məqsədyönlülüklə fəaliyyət göstərməliyik.*

*Respublikanın hər bir vətəndaşının milli ənənələrini müqəddəs tutaraq hifz edən, öz qədim və zəngin mədəniyyətini qoruyub saxlayan və artıran azad, müstəqil, demokratik, dinamik inkişaf edən Azərbaycan XXI əsrə inamla qədəm qoyur.*

*Azərbaycanın müstəqilliyini qorumaq üçün hər bir vətəndaş əlindən gələni etməlidir.*

*Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq. Elə bir əsas yaratmalıyıq ki, heç bir qüvvə heç bir zaman bundan sonra Azərbaycan torpaqlarının hansısa bir hissəsini ələ keçirə bilməsin.*

*Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Bu, bizim müqəddəs borcumuzdur, - əcdadlarımız qarşısında borcumuz, bugünkü nəsil qarşısında borcumuz, gələcək nəsillər qarşısında borcumuzdur.*

*Azərbaycan XXI əsrə yüksək elm və sənaye potensialına malik demokratik, hüquqi dövlət kimi daxil olacaqdır.*

*Milli Təhlükəsizlik Nazirliyinin qarşısında çox böyük vəzifələr durur. Bu vəzifələr birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini qorumaq, mühafizə etməkdən ibarətdir.*

*Azərbaycanın müstəqil siyasətinə xidmət etmək, dövlət müstəqilliyimizi qorumaq, mühafizə etmək Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifəsidir.*





*Xalqımızın, cəmiyyətimizin məhz birliyi, həmrəyliyi nəticəsində biz Azərbaycanda sülhə və əmin-amanlığa nail olmuşuq.*

*Son illərdə bütün sahələrdə əldə etdiyimiz nailiyyətlər xalqımızın, vətəndaşlarımızın Azərbaycan dövlətinə, iqtidarına göstərdiyi etimadın, dəstəyin nəticəsidir, cəmiyyətimizin əksəriyyətinin həmrəy olmasının, birliyə, mehribanlığa səylər göstərməsinin nəticəsidir.*

*Müstəqil dövlət kimi xalqımızın milli köklərini, tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik.*

*Biz Azərbaycanı tam demokratik dövlət səviyyəsinə qaldıracağıq, buna qadirik və nail olacağıq.*

*Bizim istəyimiz, arzumuz Azərbaycanı demokratik, ədalətli, hüquqi, dünyəvi dövlət etməkdir, ölkəmizdə bazar iqtisadiyyatının inkişafını təmin etməkdir, respublikamızda özəl sektora geniş yol açmaqdır, özəlləşdirmə proqramını axıra çatdırmaqdır.*

*Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən və cəmiyyət üçün, dövlət*

*üçün, hər bir insan üçün çox lazımlı bir sahədir.*

*Mən arzu edərdim ki, səhiyyə bizim üçün əziz, qiymətli bir sahə olduğuna görə səhiyyədə hər şey təmiz olsun, hər şey pak olsun.*

*Hər birimizin qəlbini sonsuz qürur duyğularıyla döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır.*

*Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Azərbaycan torpaqlarının işğalçılardan azad olması bizim ali məqsədimizdir.*

*Azərbaycanın ən böyük nailiyyəti onun dövlət müstəqilliyidir.*

*Biz istəyirik ki, Azərbaycan coğrafi nöqteyi-nəzərdən Avropada olduğu kimi, eyni zamanda iqtisadi, siyasi nöqteyi-nəzərdən də həqiqətən Avropanın bir hissəsi olsun.*

*Hər bir Azərbaycan vətəndaşı bu gün gərək öz dövlətinin inkişaf etməsi, möhkəmlənməsi üçün xidmətini göstərsin.*





*Azərbaycan müstəqil dövlət kimi müstəqilliyinin bütün elementlərini, atributlarını inkişaf, təsbit etdirməli, onu insanların şüuruna yeritməlidir. İnsan öz gəncliyindən vətənini, bayrağını, millətini, himnini sevməlidir. Sevmək üçün də bunu bilməlidir.*

*Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.*

*Biz müstəqil dövlət kimi yaşayır, müstəqil dövlətimizi qurur və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini həyata keçiririk.*

*Ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.*

*Bizim gördüyümüz işlər və gələcəkdə görəcəyimiz işlər həm Azərbaycanın bu günü üçündür, həm də Azərbaycanın gələcəyi üçündür.*

*Biz öz ölkəmizi əbədi müstəqil, azad dövlət etmək istəyirik. Biz buna nail olmuşuq. Ancaq hələ müstəqilliyimizi, iqtisadi, siyasi müstəqil-*

*liyimizi təmin etmək üçün çox işlər görmək lazımdır.*

*Tam əminəm ki, bizim bu gün gördüyümüz işlər Azərbaycanı günü-gündən irəliyə aparacaq, Azərbaycanın bayrağını yüksəldəcək, yüksəldəcək, yüksəldəcək!*

*Xoşbəxtik ki, nəhayət, XX əsrin sonunda Azərbaycan öz milli azadlığını, dövlət müstəqilliyini əldə edib və öz təbii sərvətlərindən nə cür, hansı yolla istifadə olunmasını özü müəyyən edir.*

*Xalqa, vətəndaşlara xidmət etmək, onların sərbəst, azad yaşaması, istədikləri yerə sərbəst gedib-gəlməsi, hərəkət etməsi üçün şərait yaratmaq müstəqil Azərbaycan dövlətinin əsas vəzifələrindən biridir.*

*Biz ölkəmizi açmışıq, qapılarımız açıqdır. Kim xeyirxah niyyətlə gəlib bizimlə əməkdaşlıq etmək istəyirsə, o, həmişə bizdən dəstək alır.*

*Azərbaycanın siyasəti ondan ibarətdir ki, heç bir dövlət başqa bir dövlətin daxili işinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır.*





*Son iki əsrdə Azərbaycanın həyatında yaranmış proseslər Azərbaycanı məhz demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etdirməyin əsasını qoymuşdur. Bu, bizim yolumuzdur. Biz bu yolla gedirik. Dünyəvi dövlət, eyni zamanda vicdan azadlığı; dünyəvi dövlət, eyni zamanda islam dininin bütün mənəvi dəyərlərinin hamısından istifadə etmək – bundan kim necə istəyirsə, o cür istifadə etsin.*

*Azərbaycan xalqı öz milli müstəqilliyini alıb, Azərbaycan dövləti öz milli, mənəvi dəyərlərini qiymətləndirərək, şübhəsiz ki, daha da yüksələcəkdir.*

*Azərbaycan kimi bir dövlətdə hakim, yəni başçı olmaq üçün ağıl, zəka, insani keyfiyyətlər, mərdlik, cəsurluq, böyük təcrübə, dövlətçilik təcrübəsi və bir çox başqa xüsusiyyətlər lazımdır. Ən əsası isə xalqa sədaqət lazımdır.*

*Azərbaycanda demokratiya inkişaf edir, insan haqları qorunur, insan, mətbuat, söz, fikir, vicdan azadlığı – hamısı təmin olunubdur. Azərbaycan öz inkişaf yolunu belə seçib və belə də gedəcəkdir.*

*XXI əsr barış əsri, sülh əsri olmalıdır.*

*Biz şəxsiyyət azadlığını Azərbaycanda demokratik cəmiyyətin başlıca amili elan etmişik.*

*Demokratikləşdirmə və demokratik dövlət quruculuğu, demokratik cəmiyyətin formalaşdırılması hər şeydən öncə şəxsiyyət azadlığını, insan azadlığını, söz azadlığını, mətbuat azadlığını, bir sözlə, bütün insan azadlıqlarını, dini etiqad azadlığını, vicdan azadlığını nəzərdə tutur.*

*Azərbaycan dünyəvi dövlətdir, öz milli ənənələri ilə bərabər, ümumbəşəri dəyərləri də qəbul edir və onlardan istifadə edir.*

*Azərbaycan xoşbəxt bir ölkədir və Allah tərəfindən ona bəxş edilən təbii sərvətlər Azərbaycanın həyatı üçün həmişə böyük əhəmiyyətli olubdur və gələcəkdə də əhəmiyyətli olacaqdır.*

*Bələdiyyə seçkiləri Azərbaycanda gedən demokratikləşmə prosesinin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin böyük bir hissəsi, böyük bir sahəsidir.*

*Dövlət quruculuğu prosesində demokratiya, demokratiyanı inkişaf etdirmək üçün sərbəst, azad seçkilər xüsusi yer tutur.*





*İnsanların demokratik seçkilərin keçirilməsinə alışması və hər bir vətəndaşın seçkilərə həqiqətən maraq göstərməsi, demək, öz dövlətinə, öz dövlət orqanlarına, özünün seçilmiş nümayəndələrinə maraq göstərməsi çox vacib bir haldır.*

*Biz seçkiləri müsbət qiymət almaq üçün keçirmirik. Biz özümüz demokratiyanı, sərbəst seçkiləri Azərbaycanın dövlət quruculuğunun strateji yolu kimi qəbul edərək və nəzərə alaraq bu seçkilərin tam demokratik, sərbəst, azad keçirilməsinə nail olmalıyıq.*

*Azərbaycanda hər bir seçki prosesi insanları, vətəndaşları demokratiya prinsiplərinə daha da yaxınlaşdırmalıdır.*

*Demokratiya prinsipləri insanların daxili mənəviyyatı olmalıdır. Onların üzərində bir vəzifə kimi yox, onlara bir tapşırıq kimi yox, insanların özlərinin daxili mənəviyyatının tərkib hissəsi olmalıdır.*

*Biz ədalətli bir cəmiyyət yaradırıq. İstəyirik ki, hər yerdə ədalət olsun, hər yerdə düzgünlük olsun, hər yerdə təmizlik olsun.*

*Bizim ölkəmizin bu günü də, gələcəyi də müstəqil Azərbaycandır.*

Azərbaycan öz müstəqilliyini tam təmin etmək, saxlamaq və qorumaq üçün mütləq demokratik, hüquqi dövlət olmalıdır, dünyanın demokratik hüquqi cəmiyyətində özünə yer almalıdır. Bu da Azərbaycanın müstəqilliyinin təminatı olmalıdır.

Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik.

Hər bir xalq, millət üçün milli azadlıqdan, müstəqillikdən qiymətli heç bir şey yoxdur.

XX əsri sona vuraraq, 2000-ci ilə gedərək qürur hissi ilə deyə bilərəm ki, həyatımızın nə qədər çətin, faciəli bir dövrünü yaşadıqsa, eyni zamanda ölkəmizin dirçəlişini, inkişafını, daha da gözəl gələcəyini təmin edə bildik.

Milli Məclis deputatlarının hər biri gərək öz seçiciləri ilə daim əlaqədar olsun, onların problemlərini bilsin, əlindən gələni həmin problemlərin həllinə sərf etsin, bu işdən ayrılmasın. Bu, müstəqil Azərbaycanın Milli Məclisi deputatlarının hamısının vəzifəsidir.

Bu gün Kosovodakı beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Azərbaycan əsgər və





zabitlərinin təmsil olunması həm də müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutmasının, getdikcə dünyada baş verən taleyüklü proseslərdə yaxından iştirakının, xalqımızın demokratik ənənələrə, beynəlxalq prinsiplərə sadiqliyinin, bütün dünyada sülhə çalışmasının bariz nümunəsidir.

Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, inkişaf etdirilməsi bizim qarşımızda duran əsas vəzifədir.

Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın milli mənafelərini müdafiə etmək, qoruyub saxlamaq məqsədi daşıyır.

İctimai-siyasi sabitliyin təmin olunması uğurlu xarici siyasət aparmaq üçün əsasdır. Amma eyni zamanda ölkəmizdə vətəndaş sülhünün, vətəndaş birliyinin təmin olunması üçün də çox vacib əsasdır.

Vətəndaş birliyi, vətəndaş həmrəyliyi – bu, bizim üçün çox vacibdir.

Vətəndaş cəmiyyətinin əsas prinsiplərinin bərqərar olduğu bir dövrdə ölkəmizdə yaşayan

*hər bir insana öz dini dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik hüquqi-siyasi şərait yaradılmışdır.*

*Müstəqilliyimizə aparan yollarda bir daha əmin olduq ki, Azərbaycanda bütün konfessiyaların nümayəndələri həm fərəhli, həm də çətin anlarda həmişə bir yerdə olmuşlar.*

*Müstəqil Azərbaycan Respublikasının tam və bərabərhüquqlu vətəndaşları olan xristian icması bu gün də cəmiyyətimizin ayrılmaz hissəsidir və onlar əsl vətəndaşlıq əzmi ilə həyatımızın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.*

*Hər bir insan üçün vətən, torpaq, ölkə, müstəqil dövlət onun mənəviyyatı, həyatı üçün çox yüksək anlayışlardır.*

*Demokratiyanın inkişafı üçün iqtisadiyyat inkişaf etməlidir.*

*Dövlətin vəzifəsi ölkədə qanunun aliliyini təmin etməkdir, insanların hüquq bərabərliyini təmin etməkdir, insanların azadlığını təmin etməkdir. Vətəndaşın da vəzifəsi bütün hərəkətləri, bütün fəaliyyəti, işləri qanun çərçivəsində görməkdir.*





*Azərbaycanda demokratik cəmiyyət eyni zamanda yüksək mənəviyyata, yüksək əxlaqa, yüksək siyasi mənəviyyata, yüksək siyasi əxlaqa layiq, malik olmalıdır.*

*Demokratiyanın son həddi yoxdur.*

*Hər bir ölkənin, hər bir dövlətin ən böyük sərvəti insanlardır.*

*Müstəqillik bizim üçün çox müqəddəs anlayışdır. Biz dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyuruq və qoruyacağıq.*

*Demokratiya yolu doğrudan da dövləti, insanı, cəmiyyəti, onun bütün tələblərini təmin edən bir yoldur.*

*Demokratiya təkamül yolu ilə inkişaf etməlidir.*

*Təkamül yolu, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin nümunəsi, onun cazibədarlığı istər-istəməz bizim kimi ölkələri, yəni yeni müstəqillik əldə etmiş ölkələri demokratiya yolu ilə aparacaqdır.*

*Müstəqillik bizə Allahın bəxş etdiyi bir nemətdir.*

*Demokratiya bizim üçün xaricdən gətirilmə bir dəyər deyildir, bu, Azərbaycan xalqının öz istəyidir, onun özünün müəyyən etdiyi, getmək istədiyi yoldur.*

*Ədalətli və təhlükəsiz dünya qaydası yaratmaq üçün çətin yol keçmək lazım gələcək və biz hamımız bu məqsədə can atmalıyıq.*

*Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır.*

*Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir.*

*Demokratik inkişafın gücü onun rəngarəngliyindədir.*

*Azərbaycan qloballaşmanın müsbət mənada inkişafına öz töhfəsini verir.*

*Xaricdən olan təhlükələr və daxili problemlər, təzyiq göstərilməsi və nüfuz dairələri uğrunda*





*mübarizəyə cəlbetmə hələ bərkiməmiş gənc demokratiyalara öz xalqlarının mənafelərinə və arzularına cavab verən xətlərini sərbəst şəkildə həyata keçirməyə, öz dövlətçiliyini möhkəmləndirməyə və inkişaf etdirməyə, dinc quruculuqla məşğul olmağa imkan vermir. Onlar mövcud olduqları ilk gündən özlərinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda amansız mübarizəyə başlamağa məcbur olmuşlar.*

*Müstəqil Azərbaycan yaşayır, inkişaf edir.*

*Hər bir Azərbaycan vətəndaşı azaddır, sərbəstdir və bizim cəmiyyətimizin bərabər hüquqlu üzvüdür.*

*Demokratik prinsiplərin həyata keçirilməsi Azərbaycanda demokratik dövlət quruluşunun ardıcıl surətdə təmin olunması üçün lazımdır.*

*Bizim məqsədimiz seçkiləri kiməsə demokratik göstərməkdən ibarət deyildir. Bizim məqsədimiz həqiqətən demokratik seçkilər keçirməkdən ibarətdir.*

*Öz təcrübəmə və bir çox ölkələrin təcrübəsinə əsasən deyirəm ki, qazanılmış müstəqilliyin bir çox çətinlikləri, mürəkkəb halları dəf etdiyi,*

*müxtəlif islahatların çətinliklə aparıldığı, xarici xarakterli çox çətinliklərin olduğu ölkələrdə nüfuzlu siyasi xadim gərəkdir. Elə bir adam gərəkdir ki, ona inansınlar, öz talelərini ona etibar edə bilsinlər.*

*Biz öz azadlığımızın və dövlət müstəqilliyimizin ardıcıl şəkildə möhkəmləndirilməsini və inkişaf etdirilməsini, ümumbəşəri demokratik dəyərlərə sadiqliyi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, bazar iqtisadiyyatı yaradılması və dünya iqtisadiyyatına, Qərb strukturlarına inteqrasiya üçün nəzərdə tutulmuz iqtisadi islahatların aparılmasını öz daxili və xarici siyasətimizin əsası sayırıq.*

*Gənc müstəqil dövlət olan Azərbaycan öz xarici siyasətində dünyanın bütün ölkələri ilə, xüsusən qonşularla yaxşı, qarşılıqlı surətdə faydalı münasibətlər qurmağın zəruriliyini əsas tutur.*

*Daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq, iqtisadi islahatlar aparmaqdan və Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir.*

*Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə*





*faydalı əlaqələr qurmaq və bu əlaqələr vasitəsilə həm gənc, müstəqil dövlət kimi inkişaf etmiş dövlətlərin təcrübəsindən istifadə etmək, həm də bu təcrübənin mümkün olan hissələrini Azərbaycanda tətbiq etmək, eyni zamanda Azərbaycanın dünya miqyasında özünə layiq yer tutmasına nail olmaq məqsədi daşıyır.*

*Bizim bütün nailiyyətlərimizin əsası odur ki, müstəqil dövlətimizin o ağır illərini yaşadıq və uğurla yaşadıq. Bütün çətinlikləri aradan qaldırdıq. Xalqımıza rahat yaşamaq imkanları verdik və dövlətə, hökumətə, özəl sektora rahat yaşamaq, iqtisadiyyatı rahat inkişaf etdirmək imkanları yaratdıq. Bizim demokratiyamız budur, bizim bazar iqtisadiyyatımız budur, bizim hüquqi, demokratik, dünyəvi dövlət quruculuğumuz budur.*

*Demokratiya xaos demək deyildir.*

*Azərbaycan demokratiya yolu ilə gedir, gedəcəkdir və biz bunu heç kəsə görə etmirik. Biz bunu Azərbaycan xalqının rifahı naminə, ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanması üçün edirik. Biz bunu Azərbaycanın xoşbəxt gələcəyi üçün edirik. Bu, bizim məqsədimizdir. Bu, bizim tutduğumuz yoldur. Biz bu yolla gedəcəyik.*

*1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunu gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik. Ona görə də əsas prinsiplərdə, əsas məsələlərdə xalqın birliyi, həmrəyliyi əsas şərtdir - başqa məsələlərdə müxtəlif baxışlar ola bilər və mən vətəndaşlarımızı buna dəvət edirəm.*

*Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır.*

*Bizim məqsədimiz Azərbaycanı bir müstəqil dövlət kimi yaşatmaq, inkişaf etdirmək, dünya dövlətləri içərisində güclü, iqtisadi cəhətdən inkişaf etmiş bir dövlətə çevirməkdir. Bizim məqsədimiz Azərbaycanı tam demokratik dövlət etməkdən, demokratiya yolu ilə irəlilətməkdən və ölkəmizdə hər bir vətəndaşın hüquqlarını qorumaqdan, azadlığını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz Azərbaycanı bazar iqtisadiyyatı yolu ilə aparmaqdan, ölkəmizdə iqtisadi islahatlar həyata keçirməkdən ibarətdir. Bizim məqsədimiz dünya birliyində Azərbaycanın özünəməxsus yer tutmasını təmin etməkdən, ölkəmizin*





*iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx birləşdirməkdən, inteqrasiya etməkdən və bunların nəticəsində Azərbaycanı xoşbəxt, inkişaf etmiş bir dövlətə, ölkəyə çevirməkdən ibarətdir.*

*Yeni şəraitdə biz həm qlobal, həm də regional miqyasda sülhün, inamın, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə real addımlar atmalıyıq.*

*Azərbaycanda geriyə yol yoxdur. Yəni keçmiş quruluşa yol yoxdur, sosializmin, yaxud kommunizmin bərpasına yol yoxdur, totalitarizmə yol yoxdur - bunların heç birisinə yol yoxdur. Biz irəliyə gedirik, demokratiya, plüralizm, mətbuat azadlığı yolu ilə gedirik və bu yolla da gedəcəyik.*

*Bu gün Azərbaycana güclü dövlətçilik lazımdır. Əgər Azərbaycanda güclü dövlətçilik olmasa, ölkəmizin həm içindən, həm də kənarından Azərbaycanı dağıdacaqlar.*

*Əgər dövlət hakimiyyəti güclüdürsə və xalqın dəstəyinə malikdirsə, o, hər bir şeyin qarşısını ala bilər.*

*Xalqın ruh yüksəkliyi, iqtidarı dəstəkləməsi bu günün reallığıdır.*

*Biz çalışmalıyıq ki, iqtidarın tərkibindəki hər bir insan demokratiya, dövlətçilik prinsiplərinə sadiq olsun, təmiz, saf və dəyərli vətəndaş olsun.*

*Azərbaycan vətəndaşlarının hamısının firavan həyat səviyyəsinə gəlib çatacağı gün də çox uzaqda deyildir.*

*Biz müstəqil Azərbaycanda demokratiya yolu ilə gedirik və bu, bizim daimi, əbədi yolumuzdur.*

*Seçkidə iştirak etmək təbiidir ki, hər bir vətəndaşın borcudur. Çünki bu, o deməkdir ki, vətəndaş təkcə özü haqqında yox, dövləti haqqında düşünür, milləti haqqında düşünür, demokratiya haqqında düşünür.*

*Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını,*





*elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır.*

*Azərbaycanın sülhsevər xarici siyasəti ilk növbədə onun dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir.*

*Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir.*

*Demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər.*

*Demokratiyanın hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir.*

*Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu, bizim strateji kursumuzun mahiyyətini təşkil edir və biz heç vaxt bu yoldan dönməyəcəyik.*

*Müstəqillik illərində biz əslində milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağalardan xilas edirik.*

*Müstəqilliyi qorumaq üçün, müxtəlif xarici təzyiqlərdən, təxribatlardan xilas olmaq üçün gərək Azərbaycanda yaratdığımız ictimai-siyasi sabitliyi qoruyaq, möhkəmləndirək.*

*İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.*

*Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi qələbəsidir.*

*Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan verir.*





*Bu gün biz azad, demokratik bir cəmiyyətdə yaşayırıq, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq.*

*Demokratiya elə bir hadisədir ki, insanların təfəkküründə dəyişikliklər baş verməlidir.*

*Demokratiyanın əvvəli var, axırı yoxdur.*

*Demokratiya daim inkişafda, daim hərəkətdə olan bir prosesdir.*

*Təcavüzkar millətçilik ideologiyasının, milli təkəbbür hissinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının hökm sürdüyü cəmiyyətdə demokratiya inkişaf edə bilməz.*

*İqtisadi əsas olmasa, demokratiyanı yaratmaq mümkün deyildir.*

*Biz hər bir ölkənin təhlükəsizliyinə, suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qorxu törədən təhlükələrin bütün növləri ilə mübarizə mövqeyində möhkəm dayanmışıq.*

*Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinliklə və böyük*

inamla baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir.

Azərbaycanda demokratiya ardıcıl surətdə, get-gedə inkişaf edir. Azərbaycanda insanlara bütün azadlıqlar verilibdir.

Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi.

Müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi, yaşaması, Azərbaycanın inkişaf etməsi ölkəmizdə vətəndaş birliyinin, həmrəyliyinin əsasında olmalıdır.

Azərbaycan hakimiyyəti bundan sonra da qarşıya çıxan hər bir çətinliyin öhdəsindən gəlməyə qadirdir və biz Azərbaycanı demokratiya yolu ilə, ardıcıl surətdə irəliyə aparacağıq, ölkəmizin müstəqilliyini göz bəbəyimiz kimi qoruyacağıq, Azərbaycanın müstəqilliyini daimi edəcəyik, əbədi edəcəyik. İftixar hissi ilə deyə bilərik ki, ötən dövrdə çox iş görmüşük, ən əsası da ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyini qorumuşuq, saxlamışıq və Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və onun böyük gələcəyi artıq xülya deyildir, bizim gözlərimizin qarşısında görünən perspektivlərdir.





XXI əsr insanların daha da sülh, əmin-amanlıq şəraitində yaşaması əsri olmalıdır. XXI əsrdə insanlar bir-biri ilə daha da səmimi əlaqələr qurmalıdırlar. XXI əsrdə insanlar heç bir millətə, heç bir başqa dinə mənsub olan ölkələrə ayrı-seçkilik qoymamalıdırlar. Çünki bu, sivilizasiyanın tələbidir. Bunu təmin etmək üçün də hər bir ölkə, hər bir təşkilat, hər bir vətəndaş öz xidmətini göstərməlidir.

Azərbaycanın dövlət quruculuğunda siyasəti ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət qurmaqdır.

Bizim müstəqilliyimiz gənc olduğu kimi, qurduğumuz, yaratdığımız dövlət də və dövlətin bütün sahələri də gəncdir.

Azərbaycan demokratiya, azadlıq yolu ilə, azad iqtisadiyyat yolu ilə gedir. Biz bundan sonra da ardıcıl olaraq bu yolla gedəcəyik və bu yolu müstəqil Azərbaycanın möhkəmlənməsi, inkişaf etməsi üçün yeganə yol hesab edirik.

Mən tam əminəm ki, Azərbaycan xalqı bu böyük yol ilə – müstəqillik yolu ilə, demokratiya yolu ilə, insan azadlıqları yolu ilə, bazar iqtisadiyyatı yolu ilə sürətlə irəliləyəcəkdir. Bütün bunlar üçün sülh lazımdır. Sülh, əmin-amanlıq üçün ölkədə sülh lazımdır, bölgədə sülh lazımdır, cahanda sülh lazımdır.

*Gələcəkdə ölkəmizi daha varlı, daha yaxşı, daha gözəl etmək, Azərbaycanın bütün vətəndaşları üçün daha yaxşı həyat şəraiti yaratmaq imkanımız var. Hər halda, belə perspektiv realdır və bu, təkcə təxəyyül deyil, həm də əlimizdə olan bütün hesablamalara əsaslanan proqnozdur.*

*Biz dünyəvi dövlətçilik yolu ilə gedirik və gedəcəyik. Biz bundan geriyə dönə bilmərik.*

*Ölkəmiz öz coğrafi-strateji vəziyyətinə, müstəqil siyasət apardığına görə, böyük təbii sərvətləri olduğuna görə müxtəlif yerlərdən Azərbaycana qarşı müxtəlif təxribat əməliyyatları daim olacaqdır. Onun üçün də Azərbaycanda ictimai-siyasi sabitlik, sağlam mühit, xalqın birliyi bütün bu çətinliklərin qarşısını almaq üçün əsas şərtdir.*

*Biz istəyirik ki, Azərbaycanın gələcəyi daha da parlaq olsun.*

*Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqillyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir.*

*Azərbaycanın müstəqilliyinin əbədi edilməsi hamının vəzifəsidir.*





*Mən əminəm ki, biz Azərbaycanın müstəqilliyini qoruyacağıq, saxlayacağıq və gələcək nəsillərə müstəqil, yüksək iqtisadiyyata və potensiala malik olan bir dövlət bəxş edəcəyik.*

*Azərbaycanın müstəqil dövlət olaraq dövlət rəmzləri var. Himni dünyanın hər yerində səslənir, milli gerbi Azərbaycanın dövlətçiliyini hər yerdə nümayiş etdirir, dövlət bayrağı Azərbaycanın üzərində uğurla dalğalanır və daim dalğalanacaqdır.*

*Demokratiyanın verdiyi bütün imkanlar Azərbaycanın hər bir vətəndaşı üçün təmin olunubdur. Söz azadlığı, vicdan azadlığı, fikir azadlığı, fikir müxtəlifliyi – bunların hamısı Azərbaycanın bugünkü gerçəkliyidir.*

*İnsan cürbəcür şəraitlərdə yaşaya bilər. Amma insan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. İndi buna nail olmuşuq. Ötən on ildə bu müstəqilliyimizi möhkəmləndirmişik, inkişaf etdirmişik, dönməz etmişik və gələcək nəsillərə bu müstəqilliyi töhfə edirik və inanıram ki, xalqımız bu müstəqilliyi heç vaxt bir daha əlindən verməyəcəkdir.*

*Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət yarada bildiksə, bu dövlətin bütün təsisatlarını yarada bildiksə, demək, Azərbaycanın gələcəyi üçün çox əsaslı, çox möhkəm bir təməl qoymuşuq. Ancaq hələ xalqımız qarşısında borcumuz da var. Borcumuz odur ki, Azərbaycan müstəqil bir dövlət kimi daha da inkişaf etsin, daha da qüdrətlənsin, Azərbaycanın müstəqilliyi hər bir vətəndaş üçün xoşbəxtlik gətirsin, səadət gətirsin.*

*İndi dünyada müstəqil Azərbaycan dövləti var. Onun milli dövlət bayrağı var, milli himni var, milli gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir.*

*Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadi, intellektual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin çox xoşbəxt və firavan olmasını təmin edəcəkdir.*





*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.*

*Azərbaycanda ictimai-siyasi sabitlik, insanların rahat yaşaması, insanların əmin-amanlığı daimi olacaqdır.*

*Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz!*

*Azərbaycanda demokratik dəyişikliklərin həyata keçirilməsi, bütün sahələrdə islahatların həyata keçirilməsi XXI əsrdə Azərbaycan Respublikasının inkişafının böyük mərhələsini təmin edəcəkdir.*

*Mən çox məmnunam ki, ölkəmizdə həyat öz axarında gedir, sabitlik, əmin-amanlıq, rahatlıq hökm sürür.*

*Artıq dövlətimizin, hökumətimizn, bütün hakimiyyət orqanlarının, icra orqanlarının*

*fəaliyyəti elə qurulmuşdur ki, biz işləri yüksək səviyyədə aparmağa qadirik.*

*Hər bir ölkənin dövlət sərhədi onun dövlət müstəqilliyinin əsas amilidir.*

*Biz müstəqilliyimizin verdiyi imkanlardan istifadə etməklə ölkəmizin daim tərəqqisinə nail olmaq, vətəndaşlarımız üçün firavan həyat qurmaq istəyirik.*

*Biz tarixi seçimimizi etmişik, yəni öz ənənələrimizdən qopmadan, milli simamızı itirmədən Qərb dünyasına, onun humanist və çağdaş dəyərlərinə üz tutmuşuq.*

*Ölkəmiz dünya miqyasında, beynəlxalq aləmdə özünə layiq yerini tutur. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir.*

*Azərbaycanda dövlət müstəqilliyi artıq dönməz olubdur. Azərbaycanda daxili ictimai-siyasi sabitlik dönməz olubdur. Azərbaycanda demokratiya dönməz olubdur. Azərbaycanda bazar iqtisadiyyatı dönməz olubdur.*

*Demokratiyanı, onun bütün prinsiplərini, bütün demokratik dəyərləri, insanların azad-*





*lığını, sərbəstliyini, söz azadlığını, mətbuat azadlığını tamamilə adamların beyninə yeritmək üçün və hər bir insanın şüurunda həkk etmək üçün ardıcıl iş aparılmalıdır, ağıllı iş aparılmalıdır və buna zaman lazımdır.*

*Biz hüquqi dövlət yaratmışıq. Bu o deməkdir ki, dövlətimiz hüquq əsasında idarə olunur. Biz demokratik dövlət yaratmışıq. Bu o deməkdir ki, Azərbaycanın hər yerində demokratik prinsiplər bərqərar olubdur.*

*Azərbaycan dünyəvi dövlətdir. Demək, tarixi, milli dəyərləri ilə bərabər, mənəvi dəyərləri ilə bərabər Azərbaycan ümumbəşəri dəyərlərdən də bəhrələnir və onlarla zənginləşərək ölkəmizi dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsinə qaldırmaq yolu ilə gedir.*

*Biz bütün Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmişik. Bu, bizim ən böyük nailiyyətlərimizdən biridir. Biz nəinki sabitliyi təmin etmişik, onu daim qoruyuruq, saxlayırıq və əmin ola bilərsiniz ki, Azərbaycan xalqı öz müstəqil dövlətində həmişə ictimai-siyasi sabitlik şəraitində, rahat yaşayacaq və inkişaf edəcəkdir.*

*İnsanın daxili dünyası, onun dünyagörüşü, onun təhsili, elmi, mədəniyyəti, onun varlığını*

*və daxili aləmini müəyyən edən bir çox amillər, o cümlədən onun hüquqları cəmiyyət tərəfindən daim qorunmalıdır.*

*Bazar iqtisadiyyatının özü demokratiyanın bir hissəsidir.*

*İndi biz azad Azərbaycanda yaşayırıq, bizim dövlətimiz var. Bunlardan üstün heç bir şey ola bilməz! Biz bunlara görə indi mövcud olan, bundan sonra da ola biləcək çətinliklərə, çatışmazlıqlara dözməliyik. Hamımız dözməliyik. Bir şeyi sülh yolu ilə həll etmək olarsa, bu yolla həll etmək lazımdır.*

*Biz Avropanın bir hissəsiyik.*

*İndi biz müstəqil Azərbaycanda Qərb ölkələri ilə, Avropa ölkələri ilə inteqrasiya haqqında danışırıq. İnteqrasiya deyəndə, daha çox iqtisadi məsələləri nəzərdə tuturlar. Amma bu, belə deyildir. İnteqrasiya bütün sahəni əhatə edir. O, cümlədən mədəniyyət, incəsənət, musiqi sahəsini əhatə edir.*

*Təcavüzkarların və separatçıların hərəkətləri ilə barışmaq meylinin müşahidə edilməsi,*





*bəzən isə münaqişə zonasındakı vəziyyəti möhkəmlətmək və qanuniləşdirmək cəhdlərinə açıq-aşkar göz yumulması, bəzi vasitəçilərin «baş vermiş fakt» əsasında «asan» nizamasalmaya çalışması, etnik təmizləmələri və işğalı tanımağa cəhd göstərilməsi yalnız gərginliyin artmasına gətirib çıxarır və münaqişələrin həqiqətən ədalətli həlli perspektivini uzaqlaşdırır.*

*Bizim yolumuz demokratiya yoludur, siyasi plüralizm yoludur, insan haqlarına hörmət yoludur, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yoludur. Qurduğumuz, yaratdığımız hüquqi, demokratik, dünyəvi dövləti ancaq bu yolla inkişaf etdirmək olar.*

*Azərbaycan dünyəvi dövlətdir və bu da bizim strateji yolumuzdur. Biz bundan nə o tərəfə, nə də bu tərəfə dönə bilmərik. Dönə bilmərik ona görə yox ki, dönmək istəmirik. Çünki biz özümüz üçün bu yolu uyğun hesab edirik və bu yol ilə də gedirik.*

*Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq normalarının əsas prinsipidir.*

*Hər bir ədalətli dövlət, yəni öz hüquqlarını qiymətləndirən dövlət gərək başqa dövlətlərin də hüquqlarını qiymətləndirsin.*

*İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.*

*Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.*

*İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər*





*görəcəklər. İnanıram ik, mənim axıra çatdıra biimədiyim taleyüklü məsələləri, planları, işləri köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

*Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# ORDU
# QURUCULUĞU HAQQINDA

# ORDU QURUCULUĞU HAQQINDA

*İndi hər bir Azərbaycan vətəndaşı fəxr edə bilər, biz də fəxr edirik ki, Azərbaycanın artıq mütəşəkkil, güclü ordusu vardır. Azərbaycanın peşəkar və qabiliyyətli döyüş gücünə malik olan zabitlər korpusu vardır. Azərbaycan ordusunda vətənə, millətə, dövlətə sədaqətlə xidmət edən əsgərlərimiz vardır.*

*Biz gələcəyə baxmalıyıq. Həm bu günümüz, həm də gələcəyimiz üçün Azərbaycanda güclü, yüksək səviyyəli zabitlər yaratmalıyıq. Azərbaycanda zabitlər korpusu gərək böyüsün və inkişaf etsin. Azərbaycanın dövlət müstəqilliyi daim qorunmalıdır. Bunun üçün bizim yüksək səviyyəli peşəkar ordumuz və yüksək səviyyəli zabitlərimiz olmalıdır.*

*Son illər Azərbaycan ordusunun inkişafı, bugünkü vəziyyəti bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdəndir.*

*Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanın qüdrətli ordusu vardır. Azərbaycan torpaqlarını həmişə müdafiə etməyə, lazım olarsa, torpaqlarımızı müharibə yolu ilə azad etməyə qadir olan ordumuz vardır.*

*Azərbaycan gəncləri orduda xidmət etməyi öz şərəfli borcları hesab etməlidirlər.*

*Hər bir azərbaycanlı gənc orduda xidmət etməklə özünü yüksəldir, həqiqi vətəndaş edir, ölkəsində özünü hüquqlu bir insan edir.*

*Azərbaycanın milli ordusu bu gün Azərbaycanı hər bir hadisədən qorumağa qadirdir, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin keşiyində durubdur.*

*Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli ordumuzun yaradılması olmuşdur.*

*Bizim hazırda güclü, müasir silahlar və texnika ilə təmin edilmiş ordumuz, yüksək hazırlıqlı komandir və şəxsi heyətimiz vardır.*





*İndi milli ordumuz vətən, xalq qarşısındakı şərəfli missiyasını gözəl dərk edir, özünün fiziki, hərbi və mənəvi hazırlığını daim artırır, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir.*

*Silahlı qüvvələrimizin hər bir əməkdaşı gözəl bilir ki, güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün əsas amildir, sülhün və əmin-amanlığın təminatçısıdır.*

*Hər bir Azərbaycan vətəndaşı vətən, müstəqil Azərbaycan qarşısında öz müqəddəs borcunu dərk edərək, əsgəri xidmətini şərəflə yerinə yetirməli, ordu quruculuğuna hərtərəfli yardım göstərməlidir.*

*Müstəqil Azərbaycanın bu gün güclü ordusu, Silahlı Qüvvələri – Azərbaycan dövlətini, dövlətçiliyini, müstəqilliyini, Azərbaycan xalqının təhlükəsizliyini, ölkəmizin torpaqlarını qorumağa, müdafiə etməyə qadir olan Silahlı Qüvvələri vardır.*

*Azərbaycanda müstəqil dövlətimizə layiq olan və bu gün Azərbaycanı müdafiə etməyə qadir olan ordu yarada bilmişik. Bu, bizim böyük nailiyyətimizdir.*

*Arzu edirəm ki, hər bir Azərbaycan əsgəri, birincisi, vətənpərvərlik ruhu ilə yaşasın. İkincisi, əsgərlik dövründə hərbi peşəni tam mənimsəsin. Üçüncüsü, ordu nizam-intizamına həmişə sadiq olsun. Dördüncüsü, ordunun nüfuzunu, ölkəni, xalqı müdafiə etmək kimi şərəfli peşəni sevsin. Əsgərlik vaxtı qurtarandan sonra da, harada işləyib-işləməməsindən asılı olmayaraq, istənilən vaxt yenə də ordu sıralarında durmağa hazır olsun.*

*Mən arzu edirəm ki, hər bir Azərbaycan vətəndaşı ordusunu sevsin və orduya yardım etsin.*

*Mən arzu edirəm ki, hər bir Azərbaycan gənci Azərbaycan ordusunda xidmət etməyi özünün müqəddəs vəzifəsi kimi qəbul etsin. Orduda xidmət etməyən gənc cəmiyyətdə böyük hörmət qazana bilməz. Cəmiyyətdə, gələcək həyatda hörmət qazanmaq istəyən gənc gərək mütləq, mütləq əsgərlik borcunu yerinə yetirsin. Əsgərlik borcunu yerinə yetirmək hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsidir.*

*Hər bir müstəqil dövlətin öz dövlətçiliyini, torpaqlarını, ərazisini, xalqını qorumaq üçün güclü, qüdrətli ordusu olmalıdır.*

*Biz bu gün də, gələcəkdə də Azərbaycanda ordumuz üçün zabit, komandir kadrları yaran-*





*ması işini əsas vəzifə hesab edirik, bu işlə ciddi məşğul oluruq və bundan sonra da məşğul olacağıq.*

*Biz Azərbaycanın milli zabit kadrlarının hazırlanmasına bundan sonra da daha ciddi diqqət yetirməliyik.*

*Xalqımızın və ordumuzun birliyi, orduya ümumxalq məhəbbəti onun gücünün sarsılmaz mənbəyidir.*

*Bu gün müstəqil Azərbaycanın dövlət mənafelərini, ölkəmizin dövlətçiliyini, torpaqlarını qorumağa və işğal olunmuş ərazilərimizi azad etməyə qadir ordumuz vardır.*

*Azərbaycanın dövlət müstəqilliyi vətəndaşlarımızın dövlətçiliyə, millətimizə, xalqımıza, Azərbaycanın Konstitusiyasına sədaqətindən ibarətdir. Bu, hər bir Azərbaycan vətəndaşının borcudur. Bu, hərbi qulluqçunun, əsgərin, zabitin, Silahlı Qüvvələrdə xidmət edən hər bir azərbaycanlının da müqəddəs borcudur.*

*Biz güclü dövlət olmalıyıq və güclü dövlət olmaq üçün bizim güclü ordumuz, Silahlı Qüvvələrimiz olmalıdır. Bu gün bu var və mən bundan çox məmnunam.*

*Bizim Silahlı Qüvvələrimiz, bizim ordumuz sülhsevər siyasətimizlə yanaşı, hər dəqiqə, hər an Azərbaycan torpaqlarını qorumağa, işğal olunmuş torpaqlarımızın azad edilməsinə hazır olmalıdır.*

*İndi Azərbaycan Ordusu mütəşəkkil, güclü bir qüvvədir.*

*Gərək bizim hərbi hissələr və bu hissələrdə olan zabit, komanda heyəti o qədər yüksək səviyyəli olsun ki, bir il altı ay müddətində orduya səfərbər edilən hər bir azərbaycanlı gənci hərbi peşəyə alışdıra bilsin, onu öyrədə bilsin, gənclər hərbi peşəni sevsinlər və ordudan tərxis olunanda bir il altı aylıq xidmətini daim, həmişə böyük məhəbbət hissi ilə xatırlasınlar. Gələcəkdə harada yaşayacaqsa, harada xidmət edəcəksə, lazım olduqda yenə də səfərbər olub orduya gələrək sadəcə, adi insan kimi yox, hərbi hazırlıqlı şəxs kimi Azərbaycanın torpaqlarını müdafiə etsin, respublikamızın dövlət müstəqilliyini təmin etsin.*

*Hər bir zabit əsgərə xidmət göstərməlidir. Əsgərə xidmət müdafiə nazirindən başlamış gizirə, çavuşa qədər hər birimizin borcudur.*





*Zabit nə qədər ağıllı, komandir nə qədər bilikli olsa da, əgər tabeliyində olan hərbi hissədəki əsgərlər onu sevmirlərsə, ona hörmət etmirlərsə, zabitdən, komandirdən lazımi hərbi bilik ala bilmirlərsə, beləliklə, hərbi peşəni mənimsəyə bilmirlərsə, onda o zabit, komandir hərbi hissəsinə uğurlu rəhbərlik edə bilməz.*

*Orduda gərək hər kəs Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandana tam sədaqətli olsun. Burada ikili mövqe tutmaq olmaz. Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.*

*Gərək orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim orduda Azərbaycanın dövlətçiliyinə, dövlətinə, Azərbaycanın Ali Baş Komandanına daim sədaqət olsun.*

*Ordumuz istənilən vaxtda Azərbaycan torpaqlarını azad etməyə qadirdir.*

*Bizim yaratdığımız Silahlı Qüvvələr keçmişdə hazırladığımız kadrlar əsasında yaranmışdır. Amma indi isə bizim Silahlı Qüvvələrə, ordumuza müstəqil dövlətin yaratdığı ali hərbi məktəblərdə təhsil almış, müasir tələblərə*

*uyğun olan səviyyəyə çatmış zabit heyəti ilbəil daxil olacaqdır. Bu, gələcəkdə Azərbaycanda ordu quruculuğu sahəsində dövlətin strategiyasını həyata keçirmək üçün ən əsas şərtlərdən biridir.*

*Azərbaycanın dövlətinə, müstəqilliyinə sədaqətli olmayan adam, xalqa xidmət etməyi özünə şərəf kimi qəbul etməyən adam Silahlı Qüvvələrdə xidmət edə bilməz.*

*Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir.*

*Azərbaycan müstəqil dövlət olaraq sərhədlərin qorunmasını xüsusi vəzifə hesab edir və Azərbaycanın Sərhəd Qoşunlarının gələcək inkişafı bizim üçün çox vacibdir.*

*Sərhəd Qoşunlarında gərək hər bir əsgər, hər bir zabit, hər bir komandir müstəqil dövlətinə, doğma vətəninə, millətinə, Azərbaycan dövlətçiliyinə sadiq olsun.*

*Bizim güclü ordumuz var. İndi yaxşı təşəkkül tapmış Sərhəd Qoşunlarımız var. Artıq lazımi səviyyəyə çatmış hüquq-mühafizə orqanlarımız var, milli təhlükəsizlik orqanımız var.*





*Azərbaycan əsgəri, Azərbaycan zabiti, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir kəs millətinə, Vətəninə, torpağına, dövlətinə, xalqına daim sədaqət hissi ilə yaşamalıdır, işləməlidir.*

*Hərbçi olmaq bir fərqlilik və eyni zamanda da məsuliyyət deməkdir.*

*Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

*Azərbaycan əsgərinin birinci vəzifəsi xalqına, torpağına, millətinə sədaqətlə xidmət etməkdir.*

*Azərbaycan əsgəri gərək hər şeydə türk əsgərinə bənzəməyə çalışsın.*

*Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərdən əlavə, ən yüksək keyfiyyəti Vətənə, millətinə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur.*

*Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun. Azərbaycan*

*xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın.*

*Sərhəd Qoşunlarının şəxsi heyəti Azərbaycan dövlətçiliyinə, xalqımıza daim sədaqətlə xidmət etməlidir.*

*Gərək bizim məktəblərimizdə, o cümlədən hərbi məktəblərimizdə müəllim-zabit heyəti müasir tələblərə uyğun səviyyədə olsunlar. Onların özləri vətənpərvər olsunlar, Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə sədaqətli olsunlar. Bu, əsas şərtdir. Bütün qalan işlər bu şərtin üstündə qurulubdur. Çünki müəllim-zabit gənclərə təhsil verərkən gərək özü onlara nümunə göstərsin ki, o, Azərbaycanın Milli Ordusunun layiqli zabitidir. Dərs vermək hüququna da layiqdir. Həm də gərək onun yüksək hərbi biliyi olsun ki, yaxşı təhsil verə bilsin.*

*Bizim ordumuz nə qədər güclü olsa, apardığımız danışıqlarda bir o qədər də uğurlar əldə edə bilərik.*

*Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycanın Silahlı Qüvvələridir.*





*Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır.*

*Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır.*

*Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur.*

*Müstəqil Azərbaycan dövlətinin müdafiə qüdrətini təmin edən, onun əsas sütunlarından biri olan orduya böhtan atmaq cinayətdir.*

*Bizim övladlarımız orduda xidməti şərəfli vəzifə kimi yerinə yetirməlidirlər. Ancaq bu vəzifəni yerinə yetirmək üçün biz hamımız birlikdə onlara müasir ordu səviyyəsində şərait yaratmalıyıq.*

*XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələri məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisidir.*

*Azərbaycan Ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşların diqqəti və qayğısı ilə əhatə olunmalıdır.*

*Biz türk ordusu ilə fəxr edirik. Azərbaycanda türk ordusuna böyük sevgi, məhəbbət həmişə yaşayır.*

*Azərbaycan Ordusunda hər bir zabit, hər bir komandir, hər bir yüksək vəzifəli şəxs bilməlidir ki, o, sədaqətlə xidmət etməlidir.*

*Azərbaycanın nizami ordusu var, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Silahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbçilər, peşəkar zabitlər tərəfindən idarə olunur.*

*Bizim Silahlı Qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır.*





*Mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas yaradır.*

*Azərbaycanın Silahlı Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdırlar.*

*Silahlı Qüvvələrlə əlaqədar olan işlər hər şeydən vacib, hər şeydən əhəmiyyətlidir.*

*Bizim ordumuz güclüdür. Ordumuzun gücü günü-gündən artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir.*

*Azərbaycanın Silahlı Qüvvələrində müstəqil Azərbaycan dövlətinə, öz xalqına sədaqətlə xidmət özünü hərbi xidmətə həsr etmiş hər bir insan, hər bir əsgər üçün ən vacib xüsusiyyətdir.*

*Azərbaycan ordusunun zabit korpusu, komandan heyəti onun əsasını təşkil edir. Özlərinin hərbi biliyini daim artırmaq, hərbi peşə*

*hazırlığının səviyyəsini yüksəltmək bizim komandan heyətinin qarşısında duran əsas vəzifədir.*

*Əgər zabit heyəti, ordunun daimi kadrları yüksək keyfiyyətə malik olsalar, fiziki, mənəvi cəhətdən güclü, möhkəm olsalar, yüksək biliyə, yüksək döyüş hazırlığına malik olsalar, biz ordumuzu daha da gücləndirə, müasir tələblərə daha da uyğunlaşdıra bilərik. Bu, bizim vəzifəmizdir, biz bunu etməliyik.*

*Müasir dünyadakı vəziyyət və Azərbaycanın indiki şəraiti bizdən ordunu daim gücləndirməyi tələb edir.*

*Bizim çox dəyərli zabit kadrlarımız var.*

*Möhkəm, daimi sülh üçün müstəqil dövlətin güclü ordusu olmalıdır.*

*Ordumuz Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi üçün daim hazır olmalıdır.*

*Orduda gərək dəmir nizam-intizam olsun. Nizam-intizam hər yerdə lazımdır, amma ordu üçün bu, əsas şərtdir.*

*Nizam-intizam hərbi xidmətin əsasıdır.*





*Güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır.*

*Biz ordumuzu gücləndirərək, döyüş qabiliyyətini yüksəldərək, müasir silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR HAQQINDA

# ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR HAQQINDA

*Yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza hansısa bölgələrdə yeni evlər tikmək və onları orada daimi yaşatmaq fikrində deyilik. Onlar da gərək bu fikirdə olmasınlar, biz də bu fikirdə deyilik. Bizim fikrimiz və qəti məqsədimiz ondan ibarətdir ki, işğal edilmiş torpaqlar azad olunmalıdır və hər kəs öz torpağına qayıtmalıdır.*

*Azərbaycan xalqının hüquqlarının pozulması, tapdalanması bizim xalqımızı incidən və narahat edən haldır. Bu, eyni zamanda dünya birliyini, Birləşmiş Millətlər Təşkilatını da narahat etməlidir. Bu, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin bir qisminin işğal olunması, bu*

*müharibədə insanların həlak olması, bütün hüquqlarının pozulması və bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan zorla çıxarılması ilə əlaqədar bütün hüquqlarının pozulmasıdır. Təəssüflər olsun ki, dünyanın insan hüquqları ilə məşğul olan bir çox beynəlxalq mərkəzləri bu sahəyə diqqət yetirmirlər, bəziləri hətta bu sahəni insan hüquqlarının pozulması kimi qiymətləndirə bilmirlər. Bu, bizi çox narahat edir.*

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan — İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun, müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Mən güman etmirəm ki, o torpaqlardan İslam əbədi olaraq silinibdir, - mən belə hesab etmirəm. İslam harada olubsa, ora bir də gələcəkdir. Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri – müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar. Ona görə o yerləri İslamın xəritəsindən heç vaxt silmək olmaz.*





*Xocalı yarası qəlbimizdə daim yaşayacaqdır.*

*Hər dəfə xocalılarla görüşərkən mən qürur hissi keçirirəm. Bu qədər faciəli günlər keçirmiş, o dəhşətli, müdhiş gecəni yaşamış, ən əziz adamlarını gözlərinin qabağında itirmiş insanlar məğrurdurlar, mərddirlər. Hər biri vətən qayğısı, vətən, torpaq eşqi ilə yaşayır. Bu, xalqımızın nə qədər yüksək mənəviyyata malik olduğunu göstərir.*

*İnanıram ki, ölkəmizdə sülhün və əmin-amanlığın tam bərqərar olacağı, işğal edilmiş torpaqlarımızın azad ediləcəyi, qaçqın və köçkün düşmüş soydaşlarımızın öz ev-eşiklərinə qayıdacaqları gün uzaqda deyildir.*

*Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir, dinc yaşamaq istəyirlər.*

*Xüsusi qəddarlığı ilə seçilən təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi.*

*Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimizin vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu*

*Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməkdir.*

*Hər hansı hərbi əməliyyatların, hətta məhdud əməliyyatların, - mən hələ hansısa böyük müharibəni demirəm, - yenidən başlanması heç kimə fayda gətirməyəcəkdir.*

*Biz müharibə istəmirik. Hərçənd olduqca çox zərər çəkmişik, hərçənd intiqam almağa mənəvi haqqımız var, lakin bizə belə böyük ziyan vurulduğuna görə yox, işğal olunmuş ərazilərin azad edilməsi üçün.*

*Mən həmişə demişəm və bu gün də deyirəm, məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq və bundan sonra da çalışacağıq.*

*Münaqişə ləğv olunsa, təbiidir ki, beynəlxalq ictimaiyyət bunu yüksək qiymətləndirəcəkdir. Bunun təşkilatçılarını, təbiidir ki, daha da yüksək qiymətləndirəcəkdir. Amma mən xalqımın, ölkəmin, millətimin zərərinə olaraq heç bir şöhrət qazanmaq istəmirəm.*

*Biz ölkəmizə qarşı hər hansı ədalətsizliyə yol verməyəcəyik. Lazımdır ki, ATƏT də, onun*





*Minsk Qrupu da bunu yaxşı bilsin. Nəinki bilsin, öz prinsiplərinin həyata keçirilməsi üçün ciddi səylər qoysun.*

*Biz bir neçə dəfə demişik ki, insan hüquqları haqqında bütün konvensiyalara qoşuluruq. Amma bizim işğal olunmuş torpaqlardan zorla çıxarılmış, ağır vəziyyətdə yaşayan insanların da hüquqları pozulur.*

*Mən ərazilərimizin azad edilməsinə nail olmaq istəyirəm, Azərbaycanın ərazi bütövlüyünün qan tökülmədən bərpa edilməsinə nail olmaq istəyirəm.*

*Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və Ermənistan-Azərbaycan münaqişəsi. Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunması əsasında, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər.*

*Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir.*

*Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını*

*törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi.*

*Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.*

*Azərbaycanın daxili və xarici siyasətinin əsas məqsədi ölkəmizin müstəqilliyini möhkəmləndirmək, dünya miqyasında müstəqil dövlət kimi Azərbaycanın mövqelərini möhkəmləndirmək və bu vasitə ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoymaq, işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə-obasına qaytarmaqdır.*





*Bizim hamımızın bir böyük dərdi var - Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə, obasına qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və bölgədə sülh yaratmaq.*

*Biz heç vaxt yol verməyəcəyik ki, Azərbaycan torpaqları işğal altında qalsın. Biz buna heç vaxt yol verməyəcəyik! Nəyin bahasına olursa-olsun, Azərbaycanın işğal altındakı torpaqları azad ediləcəkdir!*

*Azərbaycan beynəlxalq terrorizmə və ekstremizmə qarşı barışmaz mübarizə apararaq, əsas səylərini öz ərazilərini Ermənistanın işğalından azad etməyə və orada qanun-qaydanı və nəzarəti bərpa etməyə yönəldir.*

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Avroatlantika Tərəfdaşlığının bütün dövlətlərinin mənafelərinə uyğundur.*

*Hər cür regional təşəbbüslər və təkliflər ilk növbədə müharibələrin nəticələrinin aradan qaldırılmasına və dövlətlər arasında beynəlxalq miqyasda tanınmış sərhədlərin bərpa olunmasına yönəldilməlidir.*

*Əgər dünya ədalətlidirsə, kimin işğalçı, kimin isə onun qurbanı, kimin təcavüzkar, kimin isə onun qurbanı olduğunu müəyyən etməlidir. Bu, müəyyən edilməsə, ədalət olmayacaqdır.*

*Əgər bizim torpaqlarımız işğal olunmasaydı, bir milyondan artıq vətəndaşımız öz yerindən-yurdundan çıxarılıb çadırlarda, işsiz vəziyyətdə olmasaydı, müstəqil dövlətimizin qarşısında olan digər problemləri daha da asanlıqla, uğurla həll edə bilərdik.*



# KONSTİTUSİYA VƏ QANUNÇULUQ HAQQINDA

# KONSTİTUSİYA VƏ QANUNÇULUQ HAQQINDA

*Xalqımızın keçdiyi tarixi yolun, müstəqillik uğrunda apardığı ardıcıl mübarizənin məntiqi yekunu və parlaq təntənəsinin əksi olan Konstitusiyamız xalqın iradəsini ifadə edərək dövlətimizin fəaliyyətinin əsas istiqamətlərini, demokratik dövlət quruculuğu prosesinin başlıca prinsiplərini, vətəndaşların əsas hüquq və vəzifələrini müəyyən etmişdir.*

*Azərbaycan demokratik proseslərin getdikcə dərinləşdiyi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişaf etdiyi bir mərhələdə Konstitusiyanın əsas müddəalarının həyata keçirilməsi, respublika həyatının bütün sahələrinin yeniləşməsində onun açdığı geniş imkanlardan hərtərəfli istifadə olunması hər bir vətəndaşdan*

*böyük səy və məsuliyyət tələb edir. Qarşımızda duran ən mühüm vəzifə Konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir.*

*İddialar, ultimatumlar, kiminsə özünə xüsusi hüquq istəməsi heç bir cəmiyətdə ola bilməz. Bizim cəmiyyətdə qəti ola bilməz.*

*Bizim milli ideologiyamızın bir şaxəsi, bir qolu da ümumbəşəri dəyərlərdir. Ümumbəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən artıq çox on illərdir, əsrlərdir ki, qavranıbdır, qəbul olunubdur. Ümumbəşəri dəyərlər birinci növbədə bizim yaratdığımız Konstitusiyada əsas məqsəddir. Biz dünyəvi dövlət qururuq. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax, bu bir cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz əksini tapıbdır. Eyni zamanda ümumbəşəri dəyərlərlə bərabər Azərbaycanın milli-mənəvi dəyərlərinin vəhdəti öz əksini tapıbdır.*

*Bizim gördüyümüz işlərdən ən əhəmiyyətlisi bundan ibarətdir ki, Azərbaycanda ölüm hökmü ləğv olunubdur. Bu, tarixi bir hadisədir. Bizim ictimaiyyət, xalqımız bunu olduğu kimi qiymətləndirməlidir.*





*Hər bir insan cəmiyyətdə həm öz hüquqlarını təmin etməlidir, həm də cəmiyyətdə insan hüquqlarının qorunmasına səylər göstərməlidir.*

*Biz keçmişdə, yəni sovet hakimiyyəti dövründə qanunlar əsasında yaşamadığımıza görə insanlarda hələ qanunu bilmək, qanunu öyrənmək, qanuna riayət etmək vərdişi yaranmayıbdır. Bu vərdiş də bir günə, iki günə yarana bilməz. Demək, biz çalışmalıyıq ki, bu proses inkişaf etsin. Bu prosesi özbaşına da buraxmaq olmaz. Biz bu prosesə təsir göstərməliyik. Biz bu prosesi istiqamətləndirməliyik. Bunun üçün də hüquq təhsili təkcə məktəblərdə, yaxud universitetlərdə olmamalıdır, cəmiyyətin bütün sahələrində olmalıdır.*

*Azərbaycan müstəqil dövlət kimi ümumdünya insan hüquqları bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır. Biz həyatımızın bütün sahələrində və xüsusən dövlət quruculuğu prosesində Konstitusiyada həkk olunmuş insan hüquqlarına aid bütün maddələrin həyata keçirilməsini təmin edəcəyik.*

*İnsan hüququ hər bir insanın hüququdur, eyni zamanda hər bir xalqın hüququdur.*

*1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Konstitusiyası cəmiyyətimizin ideya-siyasi və dünyagörüşü əsasını yaratmışdır. Konstitusiya respublikada həyata keçirilən bütün təşəbbüslərə sosial və siyasi istiqamət vermişdir.*

*İnsan gərək sərbəst olsun, insan gərək öz fikri ilə azad olsun. Biz bu azadlıqların, sərbəstliklərin hamısını Konstitusiyada elan etmişik.*

*Heç kəs hansısa keçmiş xidmətindən sui-istifadə etməməlidir.*

*XX yüzilliyin sonlarında yaranmış reallıqlar şəraitində biz yeni müstəqil dövlətlərdə demokratiyanın və qanunun aliliyinin bərqərar edilməsinə və inkişafına, insan hüquqlarının, sosial ədalətin təmin edilməsinə, bazar iqtisadiyatının inkişafına və XXI əsrin yeni Avropası ilə bu dövlətlərin ahəngdar inteqrasiyasına hər cür kömək göstərməliyik.*

*Dövlətçilik prinsipi, qanunun aliliyi bizim hamımız üçün hər şeydən üstün olmalıdır.*

*Zorla, güclə əldə olunan hər bir nailiyyət nəticəsizdir.*





*Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək, bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir.*

*Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünün dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır.*

*Qanun hamı üçün qanundur. Həm adi vətəndaş üçün, həm hakimiyyət məmuru üçün, həm dövlət məmuru üçün, həm əlil üçün, həm də şəhid ailəsi üçün.*

*Azərbaycanın gələcəyə yolu dünyəvi həyat tərzindən keçir. Əlbəttə, milli dəyərlərə, o cümlədən dini dəyərlərə hörmət edilməlidir, amma bununla belə, dünyəvi həyat tərzi olmalıdır. Biz Konstitusiyamızı əsas tutaraq insanlarımıza vicdan azadlığı hüququ verərək, eyni zamanda göz qoymalıyıq ki, bu hüquq nə fanatizmə, nə təməlçiliyə, nə ekstremizmə, nə də terrorizmə çevrilsin.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# İQTİSADİYYAT HAQQINDA

## İQTİSADİYYAT HAQQINDA

*Azərbaycan xalqı həqiqətən mülkiyyətçiliyin yaranmasına, sahibkarlığın yaranmasına və sərbəst iqtisadiyyatın yaranmasına meyllidir və ona görə də bizim qəbul etdiyimiz qanunlar, həyata keçirdiyimiz tədbirlər xalq tərəfindən, vətəndaşlar tərəfindən bəyənilir və onları müvəffəqiyyətlə həyata keçirirlər.*

*Biz Azərbaycanda sahibkarlığın inkişaf etməsi uğrunda çalışırıq, sahibkarlar təbəqəsi yaratmaq istəyirik, insanlara mülkiyyətçilik keyfiyyətləri aşılamaq istəyirik və insanların hər birinin öz işi ilə sərbəst, özü istədiyi kimi məşğul olmasına şərait yaratmaq istəyirik, beləliklə də sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının inkişaf etməsini istəyirik.*

*Bazar iqtisadiyyatı yolu ilə gedən ölkə üçün birinci növbəli məsələ vergilərin yığılmasıdır.*

*Vergi işi ilə bizim iqtisadiyyatımızın və bütün iqtisadi-maliyyə sistemimizin ən əsas bir sahəsi kimi ciddi məşğul olmaq lazımdır.*

*İstehsalla məşğul olan müəssisələrin sahiblərinə yardım etmək, onların problemlərini həll etmək bizim vəzifəmizdir. Onları ayağa qaldırmaq lazımdır. Onları ayağa qaldırandan sonra özləri istehsalı aparacaqlar. Onlara kömək etmək lazımdır.*

*Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün, iqtisadi islahatların həyata keçirilməsi ilə yanaşı, xarici investisiyanın Azərbaycana gəlməsi, xarici investorlara Azərbaycanda əlverişli şərait yaradılması və Azərbaycanda özəl sektorun inkişafı üçün imkan, əlverişli şərait yaradılması bizim hamımızın qarşısında duran əsas vəzifədir və bu vəzifəni həyata keçirmək lazımdır.*

*XX əsrin sonunda və XXI əsrin əvvəlində Xəzər dənizinin mineral ehtiyatlarında böyük bir inqilab baş verir. Biz də bu inqilabın iştirakçılarıyıq. Hesab edirəm ki, bu inqilab da bütün xalqlar, o cümlədən Azərbaycan xalqı üçün çox böyük bəhrə verəcəkdir.*





*Əgər biz bazar iqtisadiyyatı yolu ilə gediriksə və bu sahədə artıq bir çox nailiyyətlər əldə etmişiksə, demək, biz bazar iqtisadiyyatının ən əsas sahəsi olan vergi orqanlarının işinə gərək çox diqqət yetirək.*

*Bizim ardıcıl, məqsədyönlü, düşünülmüş iqtisadi siyasətimiz və xüsusən iqtisadi islahatları ardıcıl sürətdə həyata keçirməyimiz Azərbaycanın sosial-iqtisadi inkişafını təmin edəcəkdir.*

*Biz Xəzər dənizinin enerji ehtiyatlarını ilk dəfə dünyaya təqdim etmək təşəbbüsü göstərmişik. Bu, Azərbaycan dövlətinin dünya birliyi qarşısında xüsusi xidmətidir.*

*Azərbaycanın dünya birliyi qarşısında xidmətlərindən biri də odur ki, Azərbaycan qədim Böyük İpək Yolunun bərpasında təşəbbüskar olubdur.*

*1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin, təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.*

*Azərbaycanda XX əsrin əvvəlində neft sənayesinin sürətlə inkişaf etməsi bütün sahələrdə olduğu kimi, musiqi mədəniyyəti sahəsində də böyük irəliləyişə səbəb olmuşdur. Əslində ilk nəzərdən bir-biri ilə heç bir əlaqəsi olmayan «neft» və «musiqi» məfhumlarının belə qarşılıqlı təsiri ölkəmizin iqtisadi, elmi və mədəni inkişafında böyük rol oynamışdır.*

*Azərbaycan neft akademiyasına çevrilmişdir.*

*Xəzər dənizində neft və qaz yataqlarının olması, onların kəşfi və indi dünyaya təqdim edilməsi Azərbaycan xalqının, alimlərinin, neftçilərinin böyük xidmətidir.*

*Azərbaycan indi, XX əsrin sonunda, XXI əsrə gedərək Xəzər dənizinin bütün enerji sərvətlərindən, ehtiyatlarından təkcə Azərbaycan üçün yox, bütün dünya üçün, o cümlədən bütün Xəzəryanı dövlətlər üçün istifadə edilməsinin əsasını qoyubdur. Biz bu gün bununla fəxr edirik.*

*Məhz böyük dövlətlərin, böyük ölkələrin, onların neft şirkətlərinin müstəqil Azərbaycan dövlətinə göstərdiyi etimadın nəticəsində «Əsrin müqaviləsi» imzalanmışdır. Ondan sonra isə tərəfdaşlarımızla, Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlərlə və*





*başqa xarici şirkətlərlə bizim gördüyümüz işlər dünyaya bir daha sübut etdi ki, birincisi, Xəzər dənizi, onun Azərbaycan sektoru zəngin neft və qaz yataqlarına malikdir, ikincisi, Azərbaycan dövləti ilə uzunmüddəti, etibarlı iş görmək olar.*

*Azərbaycanın bugünkü sabit, sərbəst yaşaması şəraitində dünya neft şirkətləri, böyük ölkələr, dövlətlər Azərbaycana etimad, etibar göstərib bizimlə əməkdaşlıq ediblər.*

*Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər – təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır.*

*Azərbaycan dövlətinin neft strategiyası artıq öz müsbət nəticələrini verib, dünyada tanınıb və XXI əsrdə Azərbaycanın müstəqil, azad inkişaf etməsinin əsasını təşkil edən amillərdən biridir.*

*Biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan neftçiləri, alimləri Rusiyada «İkinci Bakı», «Üçüncü Bakı», «Dördüncü Bakı» kimi neft*

*mədənlərinin və yataqlarının açılmasında iştirak ediblər və onların çoxu o vaxtdan indiyə qədər o diyarlarda – Sibirdə, Tümendə yaşayır və bu gün də neft hasilatı ilə məşğuldurlar.*

*Azərbaycan Xəzər dənizində neft yataqlarının aşkar olunmasında, bu yataqların sənaye üsulu ilə istismar edilməsində dünyada birinci yerdə olmuşdur.*

*Azərbaycan yalnız dövlət müstəqilliyini əldə etdikdən sonra öz aqibətinin, öz sərvətlərinin sahibi olmuş və ölkəmizin ən zəngin sərvəti olan qaz və neft ehtiyatlarından müstəqil, sərbəst istifadə etmək imkanı əldə etmişdir.*

*Biz sübut etdik ki, Azərbaycan etibarlı tərəfdaşdır. Biz sübut etdik ki, Azərbaycana xarici sərmayənin gəlməsi və istifadə olunması üçün burada bütün imkanlar yaradılıbdır. Biz sübut etdik ki, Azərbaycana gələn hər bir iş adamı, şirkət, vətəndaş burada azad, sərbəst, rahat işləyə və yaşaya bilər.*

*Azərbaycanın milli mənafelərinə cavab verən yeni-yeni müqavilələrin imzalanması və onların həyata keçirilməsi üçün bundan sonra daha da böyük imkanlar, daha da yaxşı şərait yaranacaqdır. Biz böyük işin başlanğıcındayıq. Bu gün gördüyümüz bütün işlər, «Əsrin müqaviləsi» ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.*





*Azərbaycan neftçiləri Sovetlər İttifaqının başqa regionlarında, əsasən Rusiyada yeni-yeni yataqların kəşfində çox böyük rol oynamışlar. «İkinci Bakı», «Üçüncü Bakı», «Dördüncü Bakı» və nəhayət, Tümen, Sibir - bizə məlum olduğu kimi, indi Rusiyanın özünə neft və qaz əsasən oradan gəlir. Bu yataqların kəşfində, işlənilməsində Azərbaycan neftçiləri, alimləri geoloqları böyük rol oynamışlar.*

*Azərbaycanın neft sənayesi çox əsaslı, fundamental, elmi bünövrəyə malikdir.*

*Azərbaycanın ən böyük sərvəti Xəzərdən külli miqdarda çıxarılmış neft və qaz deyil, məhz neftçıxarmanın müxtəlif sahələri üzrə toplanmış zəngin təcrübə, təşəkkül tapmış böyük alim və mütəxəssis ordusu, insan potensialı olmuşdur.*

*Neft Daşları XX əsrdən XXI əsrə atılmış bir körpüdür.*

*Biz yeni əsrə müstəqil Azərbaycanın yeni neft starategiyası ilə qədəm qoyuruq. Həmin strategiyanın maddi və elmi təməli isə məhz Neft Daşları ilə qoyulmuşdur. O illərdə qazanılmış nailiyyətlər bu gün müstəqil Azərbaycanda uğurla yerinə yetirilən «Əsrin müqaviləsi»ndə öz parlaq ifadəsini tapmışdır.*

*Azərbaycanın zəngin təbii sərvətləri və geostrateji vəziyyəti xalqımızın milli sərvətidir.*

*Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat Azərbaycan iqtisadiyyatının bu günü və gələcəyini təşkil edir.*

*Azərbaycanın böyük iqtisadi gələcəyi artıq göz qabağındadır.*

*Ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətindən biridir.*

*Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir.*

*Azərbaycan Sovetlər İttifaqının tərkibində olan zaman ölkəmizdə böyük elektrik enerjisi*





*potensialının yaranması bizim tarixi nailiyyətimizdir və bu günümüzün, sabahımızın, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün əsas şərtlərdən biridir.*

*Azərbaycan Xəzər dənizində iri bir liman olaraq Şərqdən Qərbə doğru gedən İpək Yolu proqramının həyata keçirilməsi üçün qapıdır.*

*Dövlətimizin qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, vətəndaşlarımızın rifah halını yaxşılaşdırmaqdan ibarətdir.*

*Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin olması üçün əsas şərt onun iqtisadiyyatıdır.*

*Azərbaycanın məhz neft strategiyası ölkəmizi dünyada daha da cazibədar edibdir.*

*Xəzər dənizinin zəngin ehtiyatları - neft və qaz yataqları hələ uzun müddət – on illər, yüz illər dünya iqtisadiyyatını cəlb edəcək və Xəzər dünyanın neft və qaz hasil edən ən böyük regionlarından birinə çevirilcəkdir. Biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan bütün bu prosesin təşəbbüskarıdır.*

*Daxili ictimai-siyasi sabitlik olmayan yerdə demokratiya ola bilməz. Daxili ictimai-siyasi*

*sabitlik olmayan yerdə islahatlar keçirmək olmaz. Sabitlik olmayan yerdə iqtisadiyyat inkişaf edə bilməz.*

*Azərbaycan öz nefti, neftçiləri, yüksək səviyyəli mütəxəssisləri ilə dünyada böyük şöhrət qazanıbdır.*

*Rusiyada, ondan sonra isə Sovetlər İttifaqında, demək olar ki, bütün dünyada neftin çıxarılması və hasil edilmiş neftin emalı təcrübəsi Azərbaycandan başlanmışdır.*

*Azərbaycan üçün Xəzər dənizinin neft yataqlarının işlənilməsi böyük əhəmiyyət kəsb edir.*

*Bu gün inamla söyləmək olar ki, regionda enerji ehtiyatlarının işlənilməsi prosesi dönməz xarakter almışdır. Eyni zamanda Azərbaycanın enerji sektorunun timsalında kapitalın və istehsalın beynəlmiləlləşməsi prosesi baş verir. Enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəql edilməsi üzrə geniş miqyaslı layihələrdə bir çox ölkələrin tanınmış şirkətlərinin iştirakı deyilənlərə əyani sübutdur.*

*Əsrlər boyu iqtisadiyyatın, mədəniyyətin, elmin, sivilizasiyaların qarşılıqlı zənginləşməsinə kömək etmiş Böyük İpək Yolu bu gün də onun üzərinə qoyulan ümidləri doğruldacaqdır.*





*Xəzər dənizində indi bizim apardığımız işlər təkcə ondan ibarət deyil ki, biz oradan çoxlu neft, qaz götürəcəyik. Bu ondan ibarətdir ki, biz Xəzər dənizini dünyaya açdıq. Bizim yaratdığımız bu nümunə Xəzər dənizinin sərvətlərindən Xəzəryanı dövlətlər tərəfindən ədalətli istifadə olunması üçün böyük imkanlar açır.*

*İpək Yolunun istifadə olunması, Xəzəryanı ölkələrin dünyanın başqa şirkətləri ilə birlikdə Xəzərin ehtiyatlarını istifadə etməsi Avropa ilə Asiya arasında həm iqtisadi, həm elmi, həm də mədəni əlaqələrin inkişaf etməsi üçün yeni bir mərhələ açıbdır. Biz Azərbaycan olaraq qürur hissi keçiririk ki, bu işin yaranmasında təşəbbüslər göstərmişik, cəsarətli hərəkətlər etmişik və başqa dövlətlərin də bu yolla getməsi üçün nümunə göstərmişik və bundan sonra da göstərəcəyik.*

*Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq və Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir.*

*Bəşəriyyətin həyatında misilsiz rol oynayan neft Odlar Yurdu Azərbaycanın hələ qədim*

*dövrlərdən ən mühüm sərvətlərindən biri olmuşdur.*

*XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində məhz neft durur.*

*Dünyada neft istehsalı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycan neftindən götürmüşdür.*

*Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu.*

*Neft özü-özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir.*

*Neft sahəsində əldə edilən uğurlar ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialı ilə bağlıdır.*





*Bakı nefti sayəsində Rusiya neft hasilatına görə dünyada birinci yerə çıxdı.*

*Bu gün kimya məhsulundan, kimya materialından olmayan bir şeyi təsəvvür etmək mümkün deyildir. Məişətdə də kimya, sənayedə də kimya, kənd təsərrüfatında da kimya, hər yerdə, hər yerdə kimya. Yəni kimya sənayesinin yaranması və belə sürətlə inkişaf etməsi XX əsrdə dünyanın əldə etdiyi ən böyük nailiyyətlərdən biridir.*

*Özəl sektorda istehsal nə qədər artarsa, birincisi, Azərbaycanın iqtisadi potensialı o qədər yüksələcək, inkişaf edəcəkdir. İkincisi, Azərbaycanın gəlirləri artacaq, bu istehsaldan dövlətə gələn gəlirlər çoxalacaqdır. Bu gəlirlər də insanların rifah halının yaxşılaşdırılmasına, maaşların yüksəldilməsinə sərf olunacaqdır.*

*İstehsal müəssisəsinin yaranması ilə yeni iş yerlərinin açılması indi Azərbaycanda ən vacib, ən əsas vəzifələrdən biridir.*

*Bütün yeraltı sərvətlərdən, təbii sərvətlərdən bəşəriyyət üçün, insan həyatı üçün bu gün də, gələcəkdə də neft və qaz kimi dəyərli və çox lazımlı ikinci bir sərvət yoxdur.*

*Bizim apardığımız iqtisadi siyasət nəticəsində Azərbaycanda təkcə neft və qaz sektoruna*

*yox, iqtisadiyyatın bir çox başqa sektorlarına böyük miqyasda xarici investisiyanın gəlməsi təmin olunur. Bunlar çox əlamətdar hadisələrdir.*

*Özəlləşdirmənin əsas məqsədi istehsalı artırmaq, iqtisadiyyatı inkişaf etdirməkdir. Əgər bu məqsədə nail ola bilmiriksə, demək, bu özəlləşdirmənin heç bir əhəmiyyəti olmayacaq, olan şeylər də dağılacaqdır.*

*Biz bir tərəfdən daxili istehsal yaradırıq, o biri tərəfdən də Azərbaycanın bu məhsullara olan tələbatını ödəyirik və yeni iş yerləri açırıq.*

*Əsas məsələlərdən biri daxili istehsalı inkişaf etdirmək, Azərbaycan Respublikasının vətəndaşlarını daxili istehsalda əldə olunan məhsul vasitəsilə təmin etmək və idxalı azaltmaqdır.*

*Biz daxili istehsalı qorumalıyıq.*

*Gərək biz bazara daim nəzarət edək. İdxal-ixrac prosesinə daim nəzarət edək. Biz liberal iqtisadiyyat yaratmışıq. Liberal ticarət yaratmışıq. Ancaq gərək biz bunlara daim nəzarət edək ki, dəyişikliklər zamanı biz də öz dəyişikliklərimizi aparaq və ölkəmiz bütün bu proseslərdən mənfəət götürsün, Azərbaycanda isə özəl sektor inkişaf etsin.*





*Özəl sektora kömək etmək lazımdır. Özəl sektorun işinə qanunsuz müdaxilə etmək lazım deyil. Vergilər Nazirliyi yeganə nazirlikdir ki, özəl sektorla əlaqə qurub vergisini alır. Amma onun da borcu ondan ibarətdir ki, vergidən yayınanları, aldadanları, fırıldaqçıları meydana çıxarsın.*

*Biz Azərbaycana gələn bütün investorlara, iş adamlarına şərait yaradırıq və bundan sonra bunu daha da yaxşı edəcəyik. Biz istəyirik ki, bizim yerli, milli, müasir tələblərə cavab verən mütəxəssislərimiz, biznesmenlərimiz, sahibkarlarımız olsun. Onlar vəsait əldə etsinlər, sonra xarici şirkətlərlə bərabər başqa yerə investisiya qoya bilsinlər.*

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndə burada yaranmış böyük kimya kompleksinin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu biz hamımız dərk etdik. Əgər bu kompleks yaranmasaydı, bu gün müstəqil Azərbaycan bu sərvətlərə malik olmayacaqdı.*

*Xəzərin enerji ehtiyatlarının istifadə olunmasının ikinci mərhələsinin də təşəbbüskarı Azərbaycandır. Bunu biz Azərbaycanın yeni neft strategiyası, neft doktrinası adlandırmışıq.*

*Bizim iqtisadiyyatımızın, iqtisadi siyasətimizin əsas istiqaməti, ana xətti bütün bu islahatların sosial yönümlüyüdür.*

*Əgər 1993-cü ildə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına başlamasaydıq və ona nail ola bilməsəydik, təbiidir ki, indi Azərbaycanda çalışan neft şirkətləri buraya gəlməzdilər. Bizim yeni neft strategiyamız da ancaq fərziyyə kimi, yaxud nəzəriyyə kimi qala bilərdi. Ona görə də bizim gördüyümüz bu işlər Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdi. Bizə inandılar. Bizə etibar etdilər. Azərbaycana axın başlandı.*

*Neftin və qazın Avropa istiqamətində ixrac olunması - təkcə iqtisadi, kommersiya məsələsi deyildir. Bu, siyasi məsələdir. Bu, bizim Qərb ilə, inkişaf etmiş ölkələrlə inteqrasiyamızın əsasıdır. Bu, eyni zamanda bizim bölgəmizdə təhlükəsizliyin təmin olunmasının əsasıdır. Deməli, bu eyni zamanda böyük bir siyasi məsələdir.*

*Yeni neft strategiyası əsasında bizim gördüyümüz bütün bu işlər gələcəyə yönəlibdir.*

*Biz indi həm bugünkü nəsillər üçün iqtisadi imkanlar yaradırıq, həm də gələcək nəsillərimizin xoşbəxt, firavan yaşaması üçün əsas yaradırıq və onlara böyük irs qoyub gedəcəyik.*

*Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu, müstəqilliyimizin təminatıdır. Ona görə də hər bir vicdanlı Azərbaycan vətəndaşı hansı şəraitdə yaşamasından asılı olmayaraq, bilməlidir ki, o xoşbəxt adamdır. Çünki o, artıq azaddır, öz ölkəsinin sahibidir, heç bir başqa ölkənin müstəmləkəsi, yaxud da ki, bir hissəsi olmayan müstəqil dövlətdə yaşayır. Bu, tarixi nailiyyətdir. Biz bunu qiymətləndirməliyik. Hər bir vətəndaş bunu qiymətləndirərək, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.*

*Qaçaqmalçılığın genişlənməsi Azərbaycanın xarici ticarət dövriyyəsinə çox böyük zərər verir və bizim iqtisadiyyatımıza zərər verir.*

*Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq.*

*İndi sahibkarlığı yenidən bərpa etmək, insanları buna alışdırmaq, onlarda sahibkarlıq keyfiyyəti yaratmaq, insanlarda sahibkarlıq xüsusiyyətləri tərbiyə etmək, yüksək səviyyəli sahibkarlar hazırlamaq, milli sahibkarlar yaratmaq – bunlar vaxt tələb edir. Bunlar eyni zamanda dövlətin qayğısını tələb edir.*

*Biznes indi iqtisadiyyatın aparıcı qüvvəsidir.*

*İqtisadiyyatı irəliyə aparmaq üçün, dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır.*

*Bazar həmişə hər bir yerin müəyyən qədər aynasıdır.*

*Vaxtilə təsəvvür etmək mümkün olmazdı ki, Xəzər dənizindən Qara dənizə gələcəyik və oradan da Aralıq dənizinə qədər gedəcəyik. İki min kilometr uzunluğunda böyük bir neft kəməri çəkilir. Bu, həqiqətən əfsanədir.*

*Dövlətimizin iqtisadi siyasəti bazar iqtisadiyyatıdır. Bunu bilmək lazımdır. Biz bazar iqtisadiyyatından geri dönməyəcəyik.*

*Bizim iqtisadiyyatımızın aparıcı qüvvəsi özəl sektordur, sahibkarlardır.*

*Biz Azərbaycanda neft strategiyasını hazırlayıb həyata keçirməyə başlayarkən qarşımıza əsas bir böyük məqsəd və vəzifə qoymuşuq: Azərbaycanın zəngin təbii sərvətləri olan neft*





*və qaz yataqlarının xarici şirkətlərlə, onların investisiyalarının cəlb olunması vasitəsilə müştərək işlənilməsini təşkil etmək, bunun nəticəsində zəngin yataqlarımızda neft və qaz hasilatını təmin etmək və təbiidir ki, bunların hamısını Azərbaycanın milli mənafelərinin təmin olunmasına yönəltmək. Yəni bütün bu strategiya yalnız və yalnız Azərbaycanın milli mənafeləri üçün həm işlənib hazırlanıb, həm də həyata keçirilir.*

*Bizim yaratdığımız Neft Fondu hesab edirəm ki, çox etibarlıdır və bu etibarlılığı daim təmin etməliyik.*

*Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri bizim ən böyük nailiyyətlərimizdən biridir.*

*Neft strategiyası Azərbaycanın təbii sərvətlərinin - neft və qaz yataqlarının xalqımızın bu günü və gələcəyi naminə səmərəli istifadə olunması üçün dünyanın böyük, təcrübəli neft şirkətləri ilə birlikdə işlənilməsidir.*

*İqtisadi islahatlar bütün sahələrdə həyata keçirilməlidir.*

*Azərbaycanın kəndində özəl sektor inkişaf edir.*

*Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətlərindən biridir.*

*Biz bütün imkanları veririk ki, sahibkar – istehsalçı yaransın, onlar kiçik, orta, böyük müəssisələr yaratsınlar. Cəmiyyətə, insanlara lazım olan malları istehsal etsin, bununla da iqtisadiyyatın bir hissəsini inkişaf etdirsinlər.*

*Neftdən gələcəkdə alacağımız gəliri Azərbaycanda böyük bir infrastrukturun, başqa sahələrin inkişaf etdirilməsinə yönəltməliyik.*

*Bir var, bizim elektrik enerjisi istehsal etmək imkanlarımız, bir də var ki, bu elektrik enerjisini istehlakçılara çatdırmaq və itkilərə yol verməmək.*

*Xalqımızın, dövlətimizin böyük iqtisadi potensialı var. Böyük intellektual potensialı var.*

*Üç dənizin əfsanəsi həqiqətən böyük bir əfsanədir. Biz bu əfsanənin yaradılmasının iştirakçılarıyıq və bu əfsanəni reallığa çevirmişik. Artıq bu, əfsanə deyil, reallıqdır. Reallıq odur ki, Xəzər dənizindən neft və qaz hasil olur.*





*Reallıq odur ki, Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri işləyir. Reallıq odur ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası başlayıbdır. Reallıq odur ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası başlayıbdır. Bunlar gerçəklikdir. Bunlar reallıqdır.*

*Biz 1993-cü ildən başlayaraq, ardıcıl şəkildə Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarını Qərb bazarlarına çıxarmaq siyasəti yürüdürük. Regionun təkcə iqtisadi deyil, siyasi, humanitar və demokratik inkişafına da öz təsirini göstərən bu siyasət artıq real nəticələr verməkdədir.*

*Biz Azərbaycanda özəl sektorun inkişaf etməsi üçün lazım olan bütün şəraiti yaratmışıq.*

*Bazar iqtisadiyyatının aparıcı qüvvəsi iş adamlarıdır, özəl şirkətlərdir, xarici sərmayəçilərdir.*

*Bazar iqtisadiyyatının əsasında şəxsi mülkiyyət, özəl mülkiyyət və sahibkarlıq durur.*

*İndi Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaranıbdır. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir.*

*İş adamları ilə, biznes adamları ilə münasibətlərimiz yalnız və yalnız demokratiya prinsipi əsasında qurulur və qurula bilər.*

*Azərbaycanda iqtisadiyyatın və sosial sahənin inkişafı biznesin inkişafından asılıdır, özəl sektorun inkişafından asılıdır.*

*Biz öz inkişaf yolumuzun bir hissəsini xarici investisiyanın Azərbaycana cəlb olunmasında görürük.*

*Biz istehsal sahələri yaratmalıyıq. Özümüz də buna çalışırıq və çalışmalıyıq. Xarici investorlar da özlərini məhz istehsal sahəsində daha çox göstərməlidirlər.*

*Kommersiya, ticarət, alış-veriş sahələri çox mühüm sahələrdir. Bunları da irəliyə aparmalıyıq.*

*Gərək xarici investorlar Azərbaycanda istehsal sahələri yaratsınlar. Bizdə olan işsizlərə iş vermək lazımdır. Onlara iş verəndə, istehsal yarananda iş adamları qoyduqları sərmayələrdən bəhrə götürəcək, bizim adamlar da işlə təmin olunacaqlar.*

*Hansısa bir yerdə böyük neft ehtiyatının, qaz ehtiyatının olması təbiidir ki, o yerin zənginliyidir. Amma onun istifadə edilməsi və dünya bazarına çıxarılması imkanları olmasa, onun üstündə oturacaqsan, elə ac qalacaqsan.*





*Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri təkcə iqtisadi xarakter daşımır. O, eyni zamanda Qafqazda, xüsusən Cənubi Qafqazda, Türkiyədə təhlükəsizliyi və sabitliyi təmin etmək üçün əsas vasitələrdən biridir.*

*Azərbaycanın yeni neft strategiyası, onun qarşıya qoyduğu məsələlər, Azərbaycanın iqtisadiyyatı və bunun gələcəyi, demokratik, hüquqi, dünyəvi dövlət kimi ilbəil inkişaf etməsi, bazar iqtisadiyyatı ilə irəliləməsi - bunlar hamısı bizim əsas prinsiplərimizdir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DİL HAQQINDA

DİL HAQQINDA

*Gərək hər bir vətəndaş öz vətəninə görə, öz millətinə görə, öz xalqına görə, öz ana dilinə görə milli qürur hissi keçirsin, azərbaycanlı olması ilə fəxr etsin. Bəzən keçmişdə olduğu kimi, gedib deməsin ki, «mən rus dilli azərbaycanlıyam», yaxud da «tamam azərbaycanlı deyiləm, filanam». Belələri bizim sıramızdan çıxmalıdır.*

*Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək, onlardan istifadə edirsə, o, öz doğma Azərbaycan dilinə diqqətini və hörmətini azaltmamalıdır. Əksinə, öz doğma dilini daha da mükəmməl bilməli və ona daim hörmət etməlidir.*

*Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir, bizim adət-ənənələrimizdir, bizim mənəvi-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli-mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və bu milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır.*

*«Ana dili» deyəndə, şübhəsiz ki, hər bir uşaq doğulandan sonra ailəsində atasından, anasından öz dilini öyrənir. Bir var ki, sadəcə, öz dilini ailədə bilmək, bir də var ki, Azərbaycan dilini yüksək səviyyədə bilmək.*

*Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək səviyyədə olan bir dildir.*

*Müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər*





*şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.*

*Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir.*

*Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.*

*Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.*

*Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.*

*Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir.*

*İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur.*

*Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir.*

*İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır.*

*Milyonlarla azərbaycanlının hazırda mədəni inkişaf vasitəsi olan bu dil tarixən nəinki Qafqazda yayılmışdır, hətta müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif dilli xalqların da istifadə elədikləri ümumi bir dil olmuşdur.*





*Qədim və zəngin tarixə malik türk dil ailəsinin Oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır.*

*Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türk əsilli boyların və soyların dili təşkil etmişdir.*

*Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə bilavasitə bağlıdır.*

*İndi biz Azərbaycan dilini, bizim ana dilimizi, millətimizin dilini hakim dil etmişik və bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili, dövlət dili – Azərbaycan dili vardır.*

*Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur.*

*1978-ci ildə bizim Konstitusiyamızda Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi həkk olundu. Ancaq demək olmaz ki, Konstitusiyada qəbul etdirəndən sonra biz həqiqətən bunu dövlət dili kimi işlədə bildik. Çünkü o vaxtlar bu, sadəcə, o dövlətin sisteminə görə mümkün deyildi. Amma eyni zamanda biz insanlarda milli şüur, milli əhval-ruhiyyə, öz dilimizə doğma münasibət, sevgi hissiyyatları yaratdıq.*

*İnsan gərək heç vaxt öz milli kökünü, torpağını, vətənini, öz dilini unutmasın.*

*Bizim çox gözəl, zəngin dilimiz var. Azərbaycan dili şeriyyət dilidir. İkinci belə dil tapa bilməzsən. Ona görə bu dili yaxşı bilmək lazımdır. Nəinki dilimizi bilmək, ondan istifadə etmək lazımdır.*

*Mədəniyyət və dil qədər insanın millətini ucaldan şey yoxdur. İki şey insanın milliliyini, millətini ucaldır. Onun biri dilidir, ikincisi mədəniyyətidir.*

*Bizim Azərbaycan dili şeir dilidir.*

*Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin,*





*ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# TƏHSİL VƏ ELM HAQQINDA

# TƏHSİL VƏ ELM HAQQINDA

*Mən Azərbaycanda daha bir universitet, beynəlxalq universitet yarada bildim. Adətən, ən böyük ali məktəb hər il 700-800, bəziləri 400-500 adam qəbul edir. Əgər o vaxtlar Azərbaycanda mövcud olan 17 ali məktəbdən əlavə, biz Sovetlər İttifaqının müxtəlif ali məktəblərinə hər il 800-900 adam göndərirdiksə, deməli, biz daha bir universitetə, lakin istər ixtisaslar üzrə çox profilli, istərsə də, əlbəttə, səviyyəcə yüksək olan əlavə bir universitetə malik idik. Bütün bunlar nəticə etibarı ilə Azərbaycan üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına xidmət edirdi.*

*XX əsrdə sözün geniş mənasında ölkəmizdə Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara,*

*gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bu, ən böyük nailiyyətlərimizdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyəli məktəbimiz olmasaydı, əgər bütün gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim, professor kadrları hazırlanmasaydı, əgər elmimiz inkişaf etməsəydi, biz indi nə bu iqtisadi potensiala, nə elmi potensiala, nə sosial potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də bunları unutmaq olmaz və onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır.*

*Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolla gedirik.*

*Təhsil çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara yer ola bilməz.*

*Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır.*





*İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.*

*Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə, ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.*

*Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bu da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır.*

*Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir.*

*Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir.*

*Biz Azərbaycan məktəbi ilə, təhsili ilə, müəllimləri ilə həmişə fəxr etmişik.*

*Dünyəvi təhsil keçən əsrin ikinci yarısında müsəlman Şərqi ölkələri arasında ilk dəfə məhz Azərbaycanda reallaşmağa başlamışdır.*

*Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafına da olduqca güclü təsir göstərmişdir. O, yarandığı ilk dövrdən Azərbaycanda Elmi-Tədqiqat Mərkəzinə çevrilmişdir.*

*Qazax Müəllimlər Seminariyasının xalqımızın mədəni həyatında oynadığı böyük rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranıb inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir.*





*Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olması məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur.*

*Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur.*

*Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır.*

*XX əsri sona vuraraq, öz dövlət müstəqilliyimizi, milli azadlığımızı əldə edəndən sonra sərbəst yaşayaraq fəxr edə bilərik ki, bizim millətimiz, xalqımız biliklidir, təhsillidir və bu barədə dünyanın hər bir ölkəsi ilə rəqabət aparmağa, yarışa girməyə hazırdır.*

*Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini əldə edən zaman ölkəmizdə bütün uşaqların oxuması, təhsil alması üçün məktəblər, çox sayda universitetlər, ən önəmlisi odur ki, böyük, yüksək səviyyəli müəllim, professor, ali məktəb müəllimləri ordumuz var idi. Bunlar xalqımızın nailiyyətləridir.*

*Mən inanıram ki, biz indi müstəqil dövlət kimi heç kəsdən asılı olmayaraq, özümüz öz həyatımızın sahibi olaraq bundan sonra məktəblərimizi daha da inkişaf etdirəcəyik.*

*Məktəbimiz həm dəqiq elmlərin mənimsənilməsində daha da inkişaf etməlidir, eyni zamanda ictimai elmlər - Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili - bunların hamısı təhsilin çox vacib sahələridir.*

*Məktəb illəri hər bir insanın gələcək həyatında ən məsuliyyətli, ən əhəmiyyətli, ən dəyərli illərdir. Ona görə də bizim övladlarımıza, balalarımıza, bu gün məktəbə qədəm qoyan uşaqlara, məktəblərdə oxuyan bütün gənclərə, imtahan verib ali məktəblərə daxil olan tələbələrə tövsiyə edirəm ki, bu illərdən, günlərdən səmərəli istifadə edin, onları itirməyin. Dünən nə isə itirdiniz, bu gün onun yerini doldura bilməyəcəksiniz.*

*Respublikamızda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Azərbaycan Dövlət Neft Akademiyasının ölkə qarşısında böyük xidmətələri vardır.*

*Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var.*





*Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.*

*Hər bir insan üçün həyat anadan doğulduğu gündən başlayırsa, insanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır.*

*Valideynlər gərək məktəblə həmişə sıx əlaqə saxlasınlar. Gəlsinlər, uşağın dediyi ilə yox, müəllimlə haradasa görüşməklə yox, məktəbdə uşağının necə oxumasını, məktəbdə olan şəraiti görsünlər. Beləliklə, onlar öz uşaqlarının yaxşı oxuması üçün yaxşı fəaliyyət göstərə bilərlər, eyni zamanda məktəblə əlaqə insanı daha da cavan saxlayır.*

*Müstəqil Azərbaycanda hər bir insan sərbəst, azad yaşayaraq, öz övladını, öz uşağını təhsilləndirə bilər, tərbiyələndirə bilər və bununla da bizim xalqımızın bilik və mədəni səviyyəsi arta bilər.*

*Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Əgər özəl univer-*

*sitetlər, özəl məktəblər yaradan şəxslər başqa məqsəd daşıyırlarsa, yəni onlar bundan özləri üçün mənfəət götürmək məsələsinə üstünlük verirlərsə, bəzən də və çox hallarda təhsilin keyfiyyəti bizim dövlət universitetlərindən, dövlət məktəblərindən aşağıdırsa, bu, həm xalqa, həm uşaqlara, həm də millətimizə xəyanətdir. Buna qətiyyən yol vermək olmaz!*

*Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır.*

*Fəxr edirəm ki, bizim milli ali təhsilimiz var. İndi bizim yetişən gənc milli kadrlarımız var. Azərbaycan elminə böyük töhfələr vermiş və xidmətlər göstərmiş qocaman professorlarımız var, alimlərimiz var. Mən bununla fəxr edirəm. Bu, böyük nemətdir.*

*Məni narahat edən ümumi təhsil, yəni bizim gənclərin ilkin təhsili, orta məktəblərdəki vəziyyət, orta məktəbin verdiyi təhsil və bu məktəbləri qurtaran uşaqların bilik səviyyəsidir. Məni narahat edən budur. Bu, ümumiyyətlə, bizim xalqın bilik səviyyəsini göstərir. Çünki çox yüksək nəticələr əldə edən ayrı-ayrı insanlar, yaxud da ki, tələbələr, elmi*





*işlə məşğul olanlar hələ xalqın, millətin ümumi bilik səviyyəsini göstərə bilməz. Onun göstəricisi ola bilməz. Bu göstərici orta məktəblərdədir.*

*Azərbaycanın bu günü və gələcəyi üçün çalışmaq, əziyyət çəkmək və birinci növbədə təhsil almaq lazımdır.*

*Müəllimlik şərəfli bir sənətdir. Azərbaycan müəllimləri bü yüksək adı ləyaqətlə daşıyırlar.*

*Biz hamımız Azərbaycan məktəbinə, Azərbaycan müəllimlərinə, Azərbaycanın təhsil işçilərinə borcluyuq.*

*Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir.*

*Birləşmiş Millətlər Təşkilatının "Təhsil əsri" elan etdiyi XXI əsrin inkişaf strategiyasının tələbləri Azərbaycan təhsilinin qarşısında da mühüm vəzifələr qoyur.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA

# MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA

*«Koroğlu» operası əzəmətli bir əsərdir və bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir.*

*Şair olmaq üçün şübhəsiz ki, fitri istedad lazımdır. Ancaq eyni zamanda şair olmaq üçün vətənə, xalqa, torpağa bağlılıq lazımdır, sevgi-məhəbbət lazımdır və şair olmaq üçün sevgi lazımdır. Həm insanı sevmək lazımdır, həm xalqını sevmək lazımdır, millətini sevmək lazımdır, həm atanı, ananı, babanı, nənəni sevmək lazımdır, həm də ki, gözəl bir qadını da sevmək lazımdır. Şairlərin çoxunu şair edən elə bu sevgi-məhəbbət olubdur.*

*Hər bir şair Azərbaycan üçün dəyərli bir şəxsiyyətdir. Azərbaycan xalqı bütün tarix*

*boyu şairlərlə zəngin olubdur. Bizim xalqımız başqa xalqlardan elə bununla çox fərqlənir.*

*Bizim dahi şairlərimiz, söz ustalarımız həmişə xalqımıza mənəvi qida veriblər, xalqımızı ruhlandırıblar, xalqımızı həvəsləndiriblər, xalqımızı döyüşə həvəsləndiriblər, xalqımızı zəhmətə həvəsləndiriblər, xalqımızı vətəni sevməyə həvəsləndiriblər, şair sözü çox təsirli olur. Şeirlə deyilən sözün təsiri bütün başqa sözlərin hamısından təsirli olur. Ona görə də şair Azərbaycanda həmişə sevilib, şair həmişə hörmətli olubdur. Bu gün də sevilir, bu gün də hörmətlidir.*

*«Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir.*

*«Kitabi-Dədə Qorqud» dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir.*

*«Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır.*





*«Kitabi-Dədə Qorqud» dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir.*

*Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir.*

*İslam memarlıq məktəbinin bəşəriyyətə bəxş etdiyi misilsiz sənət inciləri dinimizin humanist fəlsəfi dəyərlərinin parlaq ifadəsi, müsəlmanların daim qurub-yaratmaq eşqinin əyani maddi təcəssümüdür.*

*Avropa və Asiyanın qovşağında yerləşən ölkəmizdə dünya və İslam memarlığının ən yaxşı ənənələri ilə milli xüsusiyyətlərin sintezini özündə əks etdirən güclü memarlıq məktəbi təşəkkül tapmışdır.*

*Teatrı heç nə əvəz edə bilməz. Heç nə. Ona görə ki, teatrda insan canlı adamlarla - bu və ya digər vəziyyəti səhnədə canlandıran aktyorlarla bilavasitə ünsiyyətdə olur. Bunu kinematoqraf haqqında da demək olar. İncəsənətin yeni nə kimi növləri meydana gəlsə*

*də, kinematoqraf öz əhəmiyyətini itirməyəcəkdir. Odur ki, bədii kino, bədii əsərlər televiziya ilə, digər üsullarla yaradılan, qalan bütün lentlərdən, şübhəsiz, qat-qat yüksəkdir. Sənədli kino xüsusi əhəmiyyətə malikdir.*

*Bədii, peşəkarlıq səviyyəsi layiqincə olduqda, sənədli kino xüsusi dəyər kəsb edir. Ona görə də indi, məsələn, XX yüzillik ərzində bizdə neft sənayesinin necə inkişaf etdiyini göstərəndə, əsrin əvvəllərinə aid hər hansı sənədli kadrları göstərəndə, bunlar hətta bir an, hətta bir saniyə, bir dəqiqə çəksə də, bir görün, necə təəssürat bağışlayır!*

*Azərbaycanda cəmiyyət, xalq kinonu sevir və kinoya marağı itirməyiblər.*

*Azərbaycanda incəsənətə, mədəniyyətə, kinoya, teatra, musiqiyə maraq getdikcə artır, ölkəmizin mədəniyyət xadimləri həm cəmiyyətin, həm də dövlətin qayğı və diqqəti ilə əhatə olunmuşdur.*

*Azərbaycanın azərbaycançılığını, Azərbaycan dilini bu gün də sübut edən ən dəyərli əsər «Kitabi-Dədə Qorqud»dur. Biz «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyini qeyd edirik. Azərbaycan alimləri, ədəbiyyatşünasları, yazıçıları son on illərdə Azərbaycan*





*tarixinin bu hissəsini, məhz azərbaycançılığı, Azərbaycan dilini, yəni bizim milli kökümüzü, dilimizin milli kökünü hamıya nümayiş etdirmək, sübut etmək üçün gözəl əsərlər yaradıblar.*

*Mədəniyyəti ikişaf etdirmək milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir.*

*«Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir.*

*Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud» 1300 ildir ki, yaşayır.*

*«Kitabi-Dədə Qorqud» bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, bizim xalqlarımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına, öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir.*

*«Kitabi-Dədə Qorqud» bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, «Kitabi-Dədə*

*Qorqud» kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi ulu əcdadımız vardır.*

*«Kitabi-Dədə Qorqud»un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır. Dövlət müstəqilliyi yolu ilə gedən, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir.*

*«Kitabi-Dədə Qorqud» özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir.*

*«Kitabi-Dədə Qorqud» yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. «Kitabi-Dədə Qorqud» vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir.*

*«Kitabi-Dədə Qorqud» hamımızındır, bütün türkdilli dövlətlərin, türkdilli millətlərin milli və əvəzedilməz bir sərvətidir.*

*Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, mədəniyyət abidəsi, elm abidəsi,*





*fəlsəfə abidəsi olan «Kitabi-Dədə-Qorqud»un 1300 illik yubileyini qeyd edə bilmək, deyə bilərəm ki, Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər bizim qeyd etdiyimiz bayramların, yubileylərin hamısından üstündür.*

*«Kitabi-Dədə Qorqud» bizim hamımızda böyük iftixar hissi yaradır.*

*Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi böyük abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq.*

*Fəxr edirik ki, biz «Kitabi-Dədə Qorqud»un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik.*

*Fəxr edirik ki, bizim dünyəvi teatrın 130 illik tarixi vardır. Fəxr edirik və bu, bölgədəki bütün xalqlardan bizi fərqləndirir. O mənada ki, bizdə demokratik, dünyəvi ideyalar bu günün, dünənin hadisəsi deyil.*

*Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.*

*«Kitabi-Dədə Qorqud» qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox,*

*bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən-kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir.*

*Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm faktorlardan biridir.*

*Miniatür sənəti çox orijinal sənətdir.*

*Mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin. Ona görə də biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimizə baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata – bütün bu sahələrə xüsusi diqqət göstəririk.*

*Dünyanın ən qədim şeirlərinin yarandığı bir məkan varsa, o da Azərbaycandır.*

*Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür.*

*Azərbaycan çoxkonfessiyalı bir ölkədir. Bu baxımdan o, dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir.*





*Azərbaycanın bu günü və gələcəyi üçün ən böyük nailiyyətlərdən biridir ki, biz «Dədə Qorqud»u repressiyadan xilas etdik, xalqımıza qaytardıq.*

*Azərbaycan metro stansiyalarının hər biri memarlıq abidəsidir.*

*Metropoliten eyni zamanda, həqiqətən, mədəniyyət, memarlıq abidəsidir.*

*Azərbaycan xalqının hərb salnaməsi böyük qəhrəmanlıq səhifələri ilə zəngindir. Ulu əcdadlarımızın formalaşdırdığı qəhrəmanlıq ideologiyası öz əksini «Kitabi-Dədə Qorqud» kimi qədim eposlarda tapmışdır.*

*Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır.*

*Bizim xalqımızda incəsənət, musiqi, mədəniyyət baxımından kütləvi istedad var. Yəni bu, ayrı-ayrı adamların istedadı deyil, ümumiyyətlə, bizim xalqımızın çox yüksək istedada malik olmasıdır.*

*İnsan mədəniyyət, incəsənət sahəsində nə qədər istedadlı olsa, bütün başqa sahələrdə yaşadığı, işlədiyi, çalışdığı sahələrdə bir o qədər müvəffəq ola bilər.*

*Gözəl, zəngin mədəniyyətimiz var. Bizim müxtəlif janrlarda çox zəngin teatr tariximiz var. Azərbaycan xalqının 130 illik tarixi olan dünyəvi teatrı var.*

*İlahi, biz nə xoşbəxtik. Ancaq bizim bu xoşbəxtliyimizi, bizim xalqın bu gözəl mədəniyyətini belə yüksəklərə qaldıran Azərbaycanın dəyərli insanları olubdur.*

*Opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir, həm xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir.*

*Fidan, Xuraman teatra gələndə, gərək teatrın qapıçısından ta direktoruna qədər bunlara baş əyib qarşılasınlar. Çünki bunlar adi adam deyillər. Bunları adi adam kimi qəbul etmək olmaz. Mən bu sözləri göydən götürmürəm.*





*Biz bunu filmlərdə görmüşük. Yüksək mədəniyyətli Avropa ölkələrində bu qədər yüksək ada malik olan sənətkarları hamı doğrudan da böyük hörmətlə qarşılayır. Bu, bizdə də olmalıdır. Biz bu mədəniyyəti yaratmalıyıq.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN HAQQINDA

# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN HAQQINDA

*İdman, bədən tərbiyəsi hər bir insan üçün zəruri olan bir fəaliyyətdir. İdman cəmiyyətdə sağlamlığı təmin edən və cəmiyyətin inkişaf etməsi üçün çox vacib olan bir amildir. Ona görə də idmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə görəcəyimiz işlər bizim dövlət, hökumət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir.*

*İdman hər bir sivilizasiyalı ölkədə vətəndaşların həyat tərzinin mühüm bir hissəsi hesab olunur. Əhalinin fiziki sağlamlığının qorunub saxlanmasında və möhkəmləndirilməsində, xüsusilə yeni nəslin daha sağlam və güclü olmasında bədən tərbiyəsi və idmanın müstəsna rolu vardır.*

*Müstəqil dövlət olaraq Azərbaycan dünya birliyində – siyasi mənada da, iqtisadi mənada da, ictimai mənada da, o cümlədən idmanda da öz layiqli yerini tutmuşdur.*

*İdman, bədən tərbiyəsi millətin, xalqın fiziki sağlamlığıdır.*

*Biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk.*

*Ən qədim zamanlardan idman bəşəriyyətin sevdiyi və çox hörmət etdiyi bir sahədir. İdman, bədən tərbiyəsi çox böyük məna daşıyır. Təsadüfi deyildir ki, hələ çox qədim zamanlarda idman icad olunub, ona qayğı göstərilibdir. Bütün bunların nəticəsində dünyada birinci Olimpiya oyunları mövcud olubdur. Ona görə də idman, bədən tərbiyəsi Azərbaycan gənclərinin hamısı üçün lazımdır. Bu, bizim millətimizin fiziki sağlamlığı, müstəqil Azərbaycanın gələcəyi üçün lazımdır.*

*Mən bu gün böyük qürur hissi ilə deyirəm ki, biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk.*

*Bu gün idman sahəsində bizim əldə etdiyimiz nailiyyət Azərbaycanın dövlət müstəqilliyi ilə*





*birbaşa bağlıdır. Əgər Azərbaycan dövlət müstəqilliyini əldə edə bilməsəydi, əgər respublikamız azad olmasaydı, ölkəmiz milli azadlığa çıxmasaydı, bu nailiyyətlər əldə edilə bilməzdi.*

*İnsana sağlam həyat tərzi, mübarizlik, vətənpərvərlik ruhu aşılamaq, onun intellektual və fiziki imkanlarını üzə çıxarıb inkişaf etdirmək baxımından idmanın və bədən tərbiyəsinin rolu danılmazdır.*

*Azərbaycan dövləti, hökumət ölkəmizdə idmanın, bədən tərbiyəsinin kütləviliyinin təmin olunmasını və birinci növbədə. Azərbaycanda gənclərin, təkcə gənclərin yox, yuxarı yaşlı insanların da həm bədən tərbiyəsi ilə, həm də idmanla məşğul olmasını əsas məsələlərdən biri hesab edir.*

*İnsanlar, xalq, millət fiziki cəhətdən nə qədər sağlam olsa, bizim ölkəmiz bir o qədər sağlam olacaq, inkişaf edəcək və gələcəyə böyük-böyük uğurlarla gedəcəkdir.*

*Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir.*

*İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetişməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik.*

*Mən inanıram ki, Azərbaycan Milli Olimpiya Komitəsi indiyə qədər əldə etdiyi nailiyyətlərdən ruhlanaraq, bundan sonra da daha fədakarcasına çalışacaqdır. Azərbaycanda idmanın, bədən tərbiyəsinin geniş yayılması, inkişaf etməsi üçün yeni addımlar atacaqdır. Azərbaycanın İdman, Gənclər və Turizm Nazirliyi ilə birlikdə yeni tədbirlər həyata keçirəcəkdir və bizim gənclərimiz ilbəil daha da sağlam, fiziki cəhətdən daha da möhkəm, daha da cəsarətli, daha da ağıllı olacaqlar.*

*Biz idmanın, bədən tərbiyəsinin kütləviliyini təmin etməliyik. Bu, bizim hamımızın vəzifəsidir. Bu, bütün hakimiyyət orqanlarının vəzifəsidir. Amma təkcə onların da yox, cəmiyyətin vəzifəsidir. Vətənini sevən hər bir vətəndaşın vəzifəsidir.*





*İdman birinci növbədə gənc nəslin fiziki və zehni cəhətdən sağlam böyüməsində, tərbiyə olunmasında, inkişaf etməsində xüsusi yer tutur, xüsusi rol oynayır. İdman millətimizin səhhətində, sağlamlığında xüsusi yer tutur.*

*İdman mədəniyyətdir. İdman hər bir xalqın mədəniyyətinin hansı səviyyədə olduğunu göstərir. Bizim idmanımızın səviyyəsi qalxdıqca, onunla bərabər Azərbaycan xalqının, Azərbaycanın mədəniyyəti də yüksəlir.*

*İdman belə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur.*

*İnsanın mədəniyyəti eyni zamanda onun fiziki sağlamlığı ilə əlaqədardır.*

*İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaqdır. İnanıram ki, yaşından asılı olmayaraq, hər bir vətəndaş idmanla, bədən tərbiyəsi ilə məşğul olacaqdır. İnanıram ki, Azərbaycan gəncliyi*

*fiziki, zehni cəhətdən daha da yüksək olacaqdır.*

*İdman da gənclərə incəsənət, mədəniyyət qədər, mahnı kimi, musiqi, rəqs kimi, bəlkə onlardan da artıq lazımdır. Gənclər idmansız biz istəyən səviyyədə böyüyüb ərsəyə gələ bilməzlər. İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq.*

*İdman, bədən tərbiyəsi eyni zamanda mədəniyyətdir.*





# MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

# MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

*Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük.*

*Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.*

*Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli əxlaqi mentalitetimizdir. Bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir.*

*Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir, xalqımızın milli-mənəvi dəyərləri onun milli sərvətidir. Biz bunları qiymətləndirməliyik.*

*Bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin də öz övladlarına olan qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik.*





*Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz - hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur.*

*Biz müstəqillik əldə edəndən sonra İslam dinimizi özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu.*

*Qurani-Şərifdə böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır və onları yaymaq, inkişaf etdirmək lazımdır.*

*Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik.*

*Öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq.*

*Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir.*

*Azərbaycanda əlillər dövlətin, cəmiyyətin daim qayğısı ilə əhatə olunublar.*

*İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, islami dəyərlər gətiribdir. Bu dəyərlər - müqəddəs kitabımız Qurani-Kərimdən gələn islami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edibdir.*

*İslamın dini-mənəvi dəyərləri Qafqaz xalqlarının qədimdən yaranmış və inkişaf etmiş mənəvi dəyərləri ilə birlikdə xalqların yüksək milli-mənəvi dəyərlərini təşkil ediblər.*

*Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.*

*Başqa dinlərdə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda, Qafqazda da öz əksini tapıbdır.*





*İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar.*

*Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk.*

*Biz Azərbaycanın milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlərlə zənginləşdirən və onların vəhdətindən doğan elm, ədəbiyat, incəsənət əsərlərini, onları yaradanları həmişə yüksək qiymətləndirmişik.*

*Bizim müqəddəs kitabımız Qurani-Şərif heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Kimsə bu fundamentalizm, eksremizm meyllərini İslam dinindən istifadə edərək yaradır və inkişaf etdirirsə, hesab edirəm ki, onlar İslamın əsas prinsiplərindən müəyyən qədər uzaqlaşırlar. Biz İslam mədəniyyətini, İslam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdən olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dillə desək,*

*günahdır. Biz istəmirik ki, kimsə günaha batsın.*

*Biz hər bir insan üçün yaxşı bir iş görə biliriksə, bu, bizə sevinc gətirir.*

*Hər bir insan üçün vətənə, torpağa sədaqət ən ülvi xüsusiyyətdir.*

*Həcc ziyarətinin özü insan üçün böyük nemətdir.*

*Həcc ziyarətini edən hər bir şəxs nainki özü mənəviyyatca zənginləşir, o, aldığı mənəvi zənginlikdən bəhrələnərək öz ətrafına, ailəsinə, öz dostlarına da təsir edir, kömək edir, onları daha da düz yola, Allah yoluna dəvət edir.*

*Novruz təbiətin oyanması, ürəklərdə saf niyyətlərin, xoş arzuların yaşadığı bir gündür.*

*Qurban bayramı dostluq bayramı, məhəbbət, birlik, mehribanlıq bayramıdır.*

*Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.*





*İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yenidən xəsarət gətirsinlər.*

*Bulaq, su həmişə insanlara xoşbəxtlik, sağlamlıq, səadət gətiribdir. Su verən, bulaq yaradan, çay açan hər bir insan həmişə xalqın, millətin, insanların məhəbbətini qazanır.*

*Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir.*

*İslam dininin mənəvi dəyərləri ən yüksək qiymətə malikdir.*

*Ölkəmiz keçmişdəki kimi, xüsusən də bu gün bəşəri dəyərləri xüsusilə bərqərar edərək, onları öz milli ənənələri ilə, milli mənəvi dəyərləri ilə birləşdirir.*

*Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin*

*etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var.*

*Vicdan azadlığı toxunulmazdır.*

*Tolerantlıq geniş anlayışdır. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir.*

*Bizim Azərbaycanda kişi sözü çox tutumlu sözdür... Sözün əsl mənasında «kişi» o deməkdir ki, bu adam sözü bütöv adamdır, sözünün sahibidir, kişilərə xas hər cür ləyaqətə, keyfiyyətlərə malikdir, sözü ilə əməli birdir.*

*On dörd əsrə yaxındır ki, ilahi hikmətlər xəzinəsi Qurani-Kərimin insanlara nazil edildiyi Ramazan ayında bu əvəzsiz nemətə görə minnətdarlıq İslam aləminin ayrılmaz hissəsi olan Azərbaycanda da oruc tutmaq, namaz qılmaq, dualar etməklə bildirilir.*

*Tikmək, yaratmaq, qurmaq, abadlaşdırmaq həmişə cəmiyyətdə, xalqda böyük minnətdarlıq hissi doğurmuşdur.*

*Həyatın mənası - mənəviyyatdır.*

*Yaşayış nə qədər çətin olsa da, gərək insan mənəviyyatı yüksək olsun. Mənəviyyatın yüksəkliyi də insanın millət kimi mənliyindədir, məziyyətindədir, vətənpərvərliyindədir. Ona görə də gərək insan öz tarixini, millətinin kökünü, öz millətinin keçmişdə yaratdığı abidələri bilsin. Ona görə bilsin ki, öz milləti, xalqı ilə daim fəxr etsin, vətənpərvər olsun, xalqına, millətinə, torpağına, dövlətinə sədaqətli olsun.*





*Novruz bayramı bütün bayramlardan ona görə seçilir ki, bu, təbiətdən, elmi əsaslardan meydana gəlmiş bayramdır.*

*Mənəviyyat insana xas olan xüsusiyyətlərin hamısından yüksəkdir. Nə qədər böyük alim olursansa-ol, nə qədər böyük mütəxəssis olursansa-ol, nə qədər böyük dövlət xadimi olursansa-ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur.*

*Mənəviyyatsızlıq cəmiyyətə zərbələr vurur, insanları pozur. Amma mənəviyyat insanları yüksəldir. Mənəviyyatlı çalışır ki, mənəviyyatsızlıq olmasın. Ancaq bu, çətindir, ağırdır. Eyni zamanda hər bir şəxs düşünməli, dərk etməlidir ki, onun üçün bu dünya daimi deyil.*

*İnsan üçün dünyada mənəvi haqqı daimi saxlamaq böyük bir şeydir. Əgər sənin mənəvi haqqın varsa, sən başqasına deyə bilərsən ki,*

*yolundan çıxmısan. Əgər sənin mənəvi haqqın varsa, sən tabeliyində olan adama desən ki, düz yola get, əyrilik, rüşvətxorluq etmə, dövlətin malını dağıtma, əxlaqsızlıq etmə. Bunun üçün mənəvi haqqın olmalıdır.*

*Din bir tərəfdən də mənəviyyatdır.*

*Bizim gələcəyimiz milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlərlə, Avropa dəyərləri ilə sintezi vasitəsilə inkişaf edə bilər.*

*Novruz bütün bayramlardan ona görə seçilir ki, o, xalqın içindən gələn bayramdır. Hər bir insanın qəlbindən gələn, hər bir azərbaycanlının qəlbini sevindirən bayramdır.*

*Biz nə qədər çox yaşayırıqsa, Novruz bayramının Azərbaycan xalqı üçün, hər bir azərbaycanlı üçün nə qədər gərəkli və nə qədər sevimli olduğunu bir o qədər də hiss edirik.*

*Din həmişə müsbət rol oynamalıdır, xüsusən də insanın mənəvi inkişafında, insanların mənəvi tərbiyəsində və onların yüksək mənəviyyat, yüksək əxlaq prinsipləri əsasında sıx birləşməsində.*

*Hər bir vicdanlı Azərbaycan vətəndaşının, azərbaycanlının borcu, vəzifəsi ondan ibarətdir ki, bizim gələcək nəslimiz daha da bilikli*





*olsun, daha da sağlam olsun, dünya təcrübəsini daha da mənimsəmiş olsun.*

*Bir kimsəsiz uşağı, yaxud atılmış uşağı götürmək, bağrına basmaq, saxlamaq, böyütmək həddən ziyadə qiymətli bir işdir.*

*Bizim məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.*

*Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus, qeyrət həmişə ən yüksək keyfiyyət hesab olunubdur.*

*Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik.*

*Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.*

*Azərbaycan milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mlintalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir. Bu sözləri deyərək mən bir*

*daha Azərbaycan xalqına, Azərbaycanın vətəndaşlarına müraciət edirəm ki, hər bir insan vətəndaşlıq borcunu ən yüksək borc hesab etsin.*

*Millətə, dövlətə, dövlətçiliyə sədaqət çox geniş məfhumdur. Bəziləri bunun əksini ancaq dövlətə, sadəcə, birbaşa xəyanət kimi anlayırlar. Təbiidir ki, xəyanət ən təhlükəlidir. Ancaq eyni zamanda vətəninə, millətinə sədaqət hər bir şəxsin yüksək mənəviyyata malik olmasındadır.*

*İnsan həyatda gərək elə yaşasın ki, o, həmişə öz mənəviyyatı ilə fəxr etsin. Hər bir şeyi itirmək olar. Amma uşaq da, böyük də, hər bir insan gərək mənəviyyatını, iradəsini itirməsin, bütün çətinliklərin qarşısını alsın, onların qarşısında əyilməsin, sınmasın. Öz iradəsi ilə yaşasın, böyüsün, cəmiyyətə fayda versin.*

*Həyatın mənası təkcə insanın bu həyatda yaşaması deyildir. Həyatın mənası ondan ibarətdir ki, dünyaya gələn, böyüyən, ərsəyə çatan hər bir uşaq, həyat fəaliyyətinə başlayan insan cəmiyyətə, millətə, ölkəsinə, vətəninə layiqli xidmət etsin, fayda versin.*

*Həyat mübarizədir, həyat inkişafdır. Bu gün dünənkindən daha da irəliyə getməlisən. İrəliyə getmək üçün hansısa addım atmalısan.*





*İrəliyə getmək üçün hansısa maneəni aradan qaldırmalısan, hansısa nöqsanla mübarizə aparmalısan.*

*Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir.*

*Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyətilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramıdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır.*

*Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir.*

*Zəngin müsəlman sivilizasiyasının nailiyyətləri bir sıra hallarda Azərbaycan alimlərinin, fikir adamlarının səyi nəticəsində Qərbin və bütün insanlığın mənəvi sərvətinə çevrilmişdir.*

*İnsanı hörmətə qaldıran onun zəhmətkeşliyidir, mənəvi təmizliyidir, millətə, dövlətə, xalqa sədaqətidir, onun xeyirxahlığıdır. Amma bunlarla bərabər, mütləq onun təvazökarlığıdır. Gərək heç vaxt təvazökarlığı unutmayasan.*

*Ancaq bir məsələdə səhv ola bilməz. Dövlətə sədaqət andına xəyanət etmək olmaz. Vətənə sədaqət andına xəyanət etmək olmaz. Xalqa sədaqət andına xəyanət etmək olmaz.*

*Yenilik ancaq köhnə ilə mübarizədə inkişaf edə bilər.*

*İnsanlara təşəbbüs göstərmək, iş görmək, iş yerləri yaratmaq üçün imkan vermək, kömək etmək lazımdır.*

*Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik.*

*Avropa ilə Asiyanın qovuşağında, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, İslam, xristian və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və gördüyünüz kimi, indi də yaşamaqdadır.*





*Gərək insan azad olsun. Hər insanın daxili azadlığı böyük bir şeydir.*

*Biz öz milli köklərimizi, dini mənsubiyyətimizi qorumuşuq, qoruyacağıq. Mənəvi ənənələrimizi, adətimizi qoruyub inkişaf etdirəcəyik. Ancaq bununla bərabər, biz ümumbəşəri dəyərlərdən də bəhrələnirik. Hesab edirik ki, bizim milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlər ilə birgə inkişaf etməsi, onların sintezi xalqımızın gələcəyi üçün, inkişafı üçün daha da əhəmiyyətli olacaqdır.*

*Hər kəs hansı dinə mənsubdursa, həmin dinə ibadət edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur.*

*Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# AZƏRBAYCAN XALQI HAQQINDA

*Azərbaycan xalqı tarixən digər dinlərə həmişə dözümlü olmuş və onlara hörmətlə yanaşmışdır. Bu, Azərbaycan xalqının milli xüsusiyyətidir.*

*Azərbaycan xalqının ən gözəl xüsusiyyəti onun yüksək mənəviyyata malik olmasıdır.*

*Azərbaycanda milli həmrəylik, milli birlik hissləri yüksəlibdir. Azərbaycanda ictimai-siyasi sabitlik artıq dönməz olubdur və bunların da nəticəsində cəmiyyətimiz uğurla inkişaf edir, dövlətimiz öz fəaliyyətini göstərir və beləliklə də xalqımız rahat yaşayır.*

*Bizim xalqımızın birliyi yaranıbdır və indi heç kəs bu birliyi sındıra bilməz, heç kəs onu poza bilməz. Bizim hamımızın borcumuz, vəzifəmiz bu birliyi, həmrəyliyi daha da yüksəklərə qaldırmaq və ölkəmizi daha da yüksəltməkdir.*

*Azərbaycan xalqı son dərəcə təvazökarlığı ilə fərqlənən bir xalqdır. Biz heç vaxt öyünən deyilik və əsrlərdən bəri belə olmuşdur. Biz öz məziyyətlərimizi göstərə bilmirik, bəzən də hətta onları gizlədirik.* ***Bu,*** *xalqımıza xas xüsusiyyətdir.*

*Millilik, azərbaycançılıq, milli şüur Azərbaycanda həmişə yüksək olmuşdur.*

*Azərbaycanın hər guşəsi, torpağı hər bir azərbaycanlı üçün əzizdir.*

*Azərbaycanın dahi insanları çoxdur.*

*Azərbaycanının zənginliyi bir də ondan ibarətdir ki, ölkəmiz elə insanlar yetiribdir ki, bu insanlar kütləni, xalqı oyada bilib, qaldıra bilib, onlarda milli ruhu inkişaf etdirə bilib, milli ruhu canlandıra bilib və millətimiz millət olub, millətimiz inkişaf edibdir.*

*Azərbaycan xalqı öz müstəqilliyi ilə fəxr edir.*

*Azərbaycan bütün müsəlman Şərqində nümunədir, burada Azərbaycana bərabər elə bir*





*ölkə yoxdur ki, dünyəvi həyat tərzi belə erkən meydana gəlməyə başlasın və tez bir zamanda bütün xalq üçün, bütün cəmiyyət üçün həyat normasına çevrilmiş olsun.*

*Mənim xalqım – Azərbaycan xalqı indi azaddır. İndi müstəqil Azərbaycan var, heç kəsdən asılı olmayan, müstəqil yaşayan dövlət vardır. İndi biz xalqımızın tarixi ənənələrini, tarixi köklərini heç kəsdən qorxmayaraq, heç kəsdən çəkinməyərək qaldırırıq, göstəririk və xalqımızın böyük sərvəti kimi dünyaya nümayiş etdiririk.*

*Xalqımız bu müstəqillik yolunda daha da böyük nailiyyətlər əldə edəcəkdir. Çünki azad xalq həmişə öz imkanlarının hamısından səmərəli istifadə edə bilir.*

*Azərbaycan xalqı dünya xalqları arasında daim öz dəst-xətti ilə seçilmiş, azadlıq, sülh, xoşməramlı əməkdaşlıq üçün çalışmış və hər bir dövlətin təhlükəsizliyinin təmin olunmasını həmişə arzu etmişdir.*

*Azərbaycan xalqına xas olan insanpərvərlik və tolerantlıq kimi yüksək və mənəvi keyfiyyətlər tarixən Azərbaycanda milli, irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində humanizmə zidd halların baş verməsini istisna etmişdir.*

*İndi Azərbaycanı dünyanın hər yerində tanıyırlar. İndi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti, mənim millətim, ölkəm vardır.*

*Azərbaycan xalqının çox gözəl gələcəyi vardır. Biz keçid dövrünü uğurla keçirik, keçəcəyik və Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, mədəniyyəti inkişaf etmiş, xalqın rifah halı yüksəklərə qalxmış bir ölkə olacaqdır. Buna əmin ola bilərsiniz.*

*Bizim millətimiz məğrur, cəsur, qəhrəman millətdir. Bizim millətimiz eyni zamanda çox dərdə dözümlü millətdir. Bunların hamısı ilə birlikdə, bizim millətimiz öz iradəsinə inanan və öz məqsədlərinə nail olmağa inanan millətdir.*

*Azərbaycan milləti aciz millət deyildir. Azərbaycan gənci erməni gəncindən aciz, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha cəsarətlidirlər, daha qüdrətli, güclü və rəşadətlidirlər. Ancaq bu insanı, gənci müharibə etməyə öyrətmək lazımdır.*

*Allah hər bir millətə bir şey bəxş edir. Allah Azərbaycana çox gözəl təbiət bəxş edibdir, zəngin təbii sərvətlər bəxş edibdir və XXI*



*əsrdə Xəzər dənizi, Xəzər hövzəsi dünyanın ən böyük neft regionlarından biri olacaqdır. Bunun da təşəbbüskarı Azərbaycandır.*

*İndi biz fəxr edə bilərik ki, Azərbaycan xalqı müsəlman Şərqində, İslam dini mövcud olan bir ölkədə hələ 125 il bundan öncə demokratik qəzet yaratmağa qadir olubdur.*

*Azərbaycan xalqının mədəniyyəti, musiqisi, ədəbiyyatı dünya sivilizasiyası, mədəniyyəti xəzinəsinə çox qiymətli incilər kimi daxil olubdur.*

*Türk insanı nə qədər dözümlüdür, mətindir, hər cür fəlakətin içindən qəhrəmanlıqla çıxan bir insandır, xalqdır.*

*XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır.*

*Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi.*

*Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində*

*gəzdirdiyi arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə edilməsini sərbəst surətdə müəyyən edir.*

*Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir.*

*Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır. Bizim xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!*

*Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqım bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır.*

*Azərbaycan xalqının mənliyi - milli mənlik, milli qürur hər şeydən üstündür.*





*Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq, Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış, Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır.*

*Azərbaycan xalqı təkcə indi yox, hələ o vaxtlarda da ümumbəşəri dəyərlərlə, Avropa dəyərləri ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin inteqrasiyasına çalışmışdır.*

*Xalqsız heç bir şey etməməliyik.*

*Azərbaycan xalqı bütün bəşəriyyət qarşısında, dünya qarşısında sübut etdi ki, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, müstəqil yaşaya bilər, öz taleyinin sahibidir.*

*Hər bir Azərbaycan vətəndaşı fəxr etməlidir ki, onun müstəqil dövləti var, onun dövləti dünyada tanınıb və öz layiqli yerini tutur, onun dövləti Azərbaycan xalqını, ölkəmizin bütün vətəndaşlarını gələcəyə uğurla aparır.*

*Nəsillərin bir-biri ilə bağlılığı xalq üçün, millət üçün çox əhəmiyyətlidir.*

*Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir.*

*Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır, hər şeydən yüksəkdir. Bu, həm xalq üçün, millət üçün, hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçündür.*

*Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır.*

*Bizim ölkəmizin, xalqımızın bütün sahələrdə gərək yüksək ixtisasa malik olan, dünyada gedən elmi-texniki proseslə nəinki ayaqlaşan və bəlkə də müəyyən istiqamətlərdə onu qabaqlayan, buna qabil ola bilən kadr potensialı olmalıdır.*

*Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır.*

*Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var.*

*Əmin ola bilərsiniz ki, xalqımızın gələcək səadəti üçün, daim müstəqilliyi üçün, daim azadlığı üçün öz üzərimizə düşən vəzifəni*



*bundan sonra da məsuliyyətlə, şərəflə yerinə yetirəcəyik.*

*Tam ümidvaram ki, xalqımızın aldığı yaralar və həmin o Vətən yolunda yaralanmış insanların yarası bağlanacaqdır, xalqımız bu bəlalardan da qurtaracaqdır.*

*Bizim xalqımızda azadlıq, müstəqillik əhval-ruhiyyəsi həmişə yaşamışdır.*

*Azərbaycan xalqı vahid xalqdır. Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, azərbaycançı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı həmişə özünü azərbaycanlı hesab ediblər. Onlar həqiqətən, azərbaycanlıdırlar və hamımızın birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qorumaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir.*

*Azərbaycan xalqı böyük istedadlara malik olan bir xalqdır. Bu istedadlar da Azərbaycan xalqının kökündən, soyundan gəlir, onun genetik xüsusiyyətləri ilə bağlıdır.*

*Azərbaycanda xalqımızın, vətəndaşların rahat yaşaması üçün, sərbəst yaşaması üçün bütün imkanlar yaranıbdır.*

*Müasir dünyada müharibə təbliğatı, insana nifrət ideologiyası, başqa dövlətlərə qarşı ərazi iddiaları bizim üçün yolverilməzdir. Bütöv xalqlara nifrət hissi azərbaycanlılara yaddır.*

*Azərbaycan xalqı özünəməxsus və nadir bir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivilizasiyalarının sintezi dayanır.*

*Azərbaycan xalqı dünya xalqları içərisində öz yüksək mədəniyyəti ilə, elmi, zəkası ilə seçilən bir xalqdır. Bizim - bugünkü nəsillərin, gələcək nəsillərin vəzifəsi bunu dünyaya göstərmək və sonrakı nəsillərə çatdırmaqdan ibarətdir.*

*Bizim sərvətlərimiz xalqa məxsusdur, xalqındır.*

*Bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını – həm fiziki, həm də mənəvi, əqli sağlamlığını təmin etməkdir.*

*Hər bir cəmiyyətdə insan istəyir ki, onun rifah halı günü-gündən yaxşı olsun. Hər bir insan üçün, hər bir xalq üçün bundan da qiymətli,*





*üstün bir şey var. O da azad olmaq, sərbəst olmaq, müstəqil olmaqdır.*

*Azərbaycan millətinin adını hər kəs öz işi ilə, cəmiyyətdəki mövqeyi ilə yüksəldir.*

*Bizi əvəz edən nəsillərimiz var.*

*Biz – xalqımız, millətimiz Avropa dəyərlərini qəbul edib bu istiqamətdə inkişaf etmək istəyirik. Avropa dəyərləri çox böyük sahəni əhatə edir. Bunun ən böyük hissəsi insanların yaşayışıdır, ev şəraitidir və yaşadığı yerlərə göstərilən münasibətdir.*

*Dünyada Azərbaycan xalqı var, qədim tarixə malik olan, özü də çox zəngin tarixə malik olan Azərbaycan xalqı var. Dünyada müstəqil Azərbaycan dövləti var. Bizim xalqımızın, dövlətimizin hər şeyi var. Ölkəmizin gözəl təbiəti, təbii sərvətləri var.*

*Biz istəyirik ki, xalqımızı Avropa dəyərlərinə daha da yaxınlaşdıraq.*

*Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünə məxsus töhfələr sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# VƏTƏNPƏRVƏRLİK
# VƏ ŞƏHİDLİK HAQQINDA

# VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK HAQQINDA

*Vətən yolunda şəhid olanların qəhrəmanlıq nümunələri heç vaxt unudulmayacaqdır. Onlar bizim qəlbimizdə əbədi yaşayacaqlar.*

*Biz şəhid olanların xatirəsini ehtiramla yad edərək, onlar üçün müqəddəs olan ideallar naminə Azərbaycanda sülhə, bütün Qafqazda sülhə, bütün Azərbaycan xalqı üçün layiqli firavan həyata nail olmalıyıq.*

*Biz fəxr edirik ki, Azərbaycan xalqının milli mənliyini qorumaq üçün öz canından keçməyə hazır olan övladları vardır.*

*Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqların müdafiəsi yolunda şəhid*

*olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır.*

*Vətən yolunda, torpaq uğrunda şəhid olanların ailələri fəxr edə bilərlər ki, onlar müstəqil Azərbaycan üçün belə gözəl, qəhrəman övladlar yetişdiriblər.*

*Şəhid ailələrinə daim diqqət hər bir vətəndaşın borcudur, dövlətin borcudur, hökumətin borcudur, mənim borcumdur, sizin borcunuzdur.*

*Mən vətənin müdafiəsi uğrunda döyüşlərdə şikəst, əlil olmuş insanlarla dəfələrlə görüşərkən o qənaətə gəlmişəm ki, bu insanlar nəinki qəhrəmandırlar, nəinki Azərbaycan qarşısında böyük xidmətlər ediblər, o cümlədən də bununla bərabər, onlar bu günkü cəmiyyətimizin çox dəyərli üzvləridirlər və Azərbaycanın bu günkü həyatında, cəmiyyətində böyük rol oynayırlar.*

*Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir və vətən yolunda canlarını qurban vermiş şəhidlərin də ruhu şad olacaqdır.*





*Nəsə qurub-yaradan adam gərək düşünsün ki, o, mövcud olandan daha yaxşısını yaradır. Əgər onu yarada bilirsə, mövcud səviyyədən imtina edib onu yaratsın. Amma yarada bilmirsə, qoy mövcud olandan əl çəkməsin, hələlik onunla yaşasın.*

*Türk həmişə öz vətənini sevir, öz torpağını sevir, öz bayrağını sevir və vətən yolunda, torpaq yolunda həmişə şəhid olmağa hazır olubdur.*

*Bizim şəhidlərimizin xatirəsinə ən böyük abidə Azərbaycanın istiqlaliyyətidir, müstəqil Azərbaycandır, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövlətidir.*

*Mən şəhidlərin ruhu qarşısında, xatirəsi qarşısında and içirəm ki, bizim müstəqilliyimiz yaşayacaq, inkişaf edəcək və əbədi olacaqdır.*

*Vətəndaş birliyi, vətəndaş həmrəyliyi - bu, bizim üçün çox vacibdir.*

*Hər bir insan üçün vətən, torpaq, ölkə, müstəqil dövlət onun mənəviyyatı, həyatı üçün çox yüksək anlayışlardır.*

*Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutubdur. Bu, hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir.*

*Bizim qayğılarımızın içində bir qayğı hamını narahat edir. Bu, torpaqlarımızın müdafiəsində verdiyimiz şəhidlərdir. O şəhidlərin xatirəsi heç vaxt Azərbaycanın tarixindən silinməyəcəkdir. Onların xatirəsi Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaqdır.*

*Şəhidlər öz canlarını torpaq, vətən yolunda, müstəqil Azərbaycan yolunda qurban ediblər. Onların ailələri xüsusi qayğıya layiqdirlər. Onlara xüsusi qayğı göstərilməlidir və biz bunu edirik.*

*Hər bir gənc vətənpərvər olmalıdır. İndi, Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Ancaq vətənpərvərlik gərək insanın qəlbində olsun.*

*Azərbaycan vətənpərvərliyi, müstəqil Azərbaycana sədaqət – bunlar hər bir gəncin ümdə vəzifəsidir.*

*Vətən yolunda, torpaq yolunda, xalq yolunda şəhid olmaq bir tərəfdən ailə üçün, o insan üçün vaxtsız bir itkidirsə, ikinci tərəfdən bu, insanlığın və insan mənəviyyatının ən yüksək zirvəsinə çatmaq deməkdir.*





*Şəhid olan insan öz vətənpərvərliyi ilə, öz arzusu ilə, öz yüksək mənəviyyatı ilə torpaqlarımızı, vətənimizi qorumaq üçün döyüşlərə giribdir, şəhid olubdur. Yəni bu, onun özünün mənəvi istəyidir, özünün vətənpərvərlik hissiyyatlarıdır. Amma eyni zamanda biz bunu yüksək qiymətləndiririk. Baxmayaraq ki, döyüşlərə gedərkən o bilirdi ki, şəhid də ola bilər, əlil də ola bilər, xəsarət də ala bilər, onun ailəsi başsız da qala bilər. Ancaq Vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmək – bunlar hamısı onun daxili mənəviyyatının bəhrəsidir. Biz bunları qiymətləndirməliyik.*

*Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir. Biz bunu yüksək qiymətləndirərək, şəhid olan insanın xatirəsini qəlbimizdə daim yaşatmalıyıq və eyni zamanda onun ailəsinə yardımımızı göstərməliyik.*

*Biz şəhidliyi, döyüşlərdə qəhrəmanlıq göstərmiş insanların şücaətini yüksək qiymətləndirərək, özümüzü onların qarşısında borclu hiss edirik və bu borcumuzu da yerinə yetirməliyik.*

*Vətəni qorumaq, milləti qorumaq hər bir vətəndaşın şərəfli borcudur. Əgər vətəndaş bu şərəfli borcu yerinə yetirirsə, demək, o, ən*

*yüksək qiymətə layiq olan vətəndaşdır. Ancaq bu borcu yerinə yetirərək, yaxud da yarımçıq yerinə yetirərək, sonra müxtəlif yollarla bundan sui-istifadə etmək təbiidir ki, gördüyü işi və Vətən qarşısında olan xidməti ləkələyir. Ona görə də mən arzu edirəm ki, bizim həm şəhid ailələri, həm müharibədə xəsarət almış, əlil olmuş insanlar bilsinlər ki, dövlətin, hökumətin qayğısı daim artacaqdır. Bu qayğının artması bizim imkanlarımızın artması ilə bağlıdır.*

*Bizim hər birimizin borcu şəhid ailələrinə, müharibə əlillərinə maksimum diqqət və qayğı göstərməkdir. Onların da borcu bunu qiymətləndirməkdən ibarət olmalıdır.*

*Şəhidsiz Vətən yoxdur, şəhidsiz millət yoxdur, şəhidsiz xalq yoxdur.*

*Şəhidlərin xatirəsi bizim üçün həmişə əzizdir. Eyni zamanda onların şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə olmalıdır.*

*Hər yerdə, hər rayonda, hər şəhərdə, hər bir qəsəbədə birinci məsələ hər bir vətəndaşımızın vətənpərvərlik hissləri ilə yaşamasıdır. Hər bir vətəndaşımız gərək böyük qürur hissi keçirsin*





*ki, Azərbaycan artıq müstəqil dövlətdir, Azərbaycan xalqı azaddır. Azərbaycan xalqı öz dövlətində, öz torpağının sahibi olaraq yaşayır və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir.*

*Vətən yolunda şəhid olan hər bir insan qəlbimizdə, xalqımızın qəlbində yaşayır və yaşamalıdır.*

# MİLLİ MÜNASİBƏTLƏR HAQQINDA

# MİLLİ MÜNASİBƏTLƏR HAQQINDA

*Azərbaycan hələ qədimdən bununla məşhurdur ki, müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar bu torpaqda özlərinə ikinci vətən tapmışlar.*

*Müxtəlif etnoslara mənsub vətəndaşların konkret sosial və mənəvi problemlərinin cəmiyyətdə necə həll edilməli olması barədə suala cavabların axtarışları tariximizin indiki mərhələsində kütləvi şüur üçün xüsusi əhəmiyyət kəsb edir.*

*Milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları Azərbaycanın tam hüquqlu vətəndaşlarıdır.*

*Azərbaycandakı rusdilli əhalinin milli mənafeyi sarıdan Rusiyada kiminsə narahat olması üçün bu gün də heç bir ehtiyac yoxdur, gələcəkdə də olmayacaqdır. Bu mənafe bizim öz mənafeyimizdir və heç vaxt yol verməyik ki, digər millətdən, digər dini etiqaddan olan adamlar - İslam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı sıxışdırmaya məruz qalsınlar.*

*Azərbaycanın hər bir vətəndaşına öz imkanlarını daha dolğun həyata keçirmək üçün getdikcə daha böyük şərait yaradılacaqdır.*

*Azərbaycanda müstəqil Yeparxiya - Xəzəryanı ölkələri, o cümlədən Dağıstanı və Çeçenistanı əhatə edən Yeparxiyanın yaradılması həm də bunun göstəricisidir ki, Azərbaycanın suverenliyi bütün istiqamətlərdə, o cümlədən rus Pravoslav kilsəsi tərəfindən tanınır və təsdiq edilir.*

*Gürcü və Azərbaycan xalqlarının çoxəsirlik dostluğu bizim əvəzsiz sərvətimizdir.*

*Azərbaycanda yəhudilərə daim xüsusi münasibət göstərmişik və bu gün də göstəririk.*

*Biz hər bir xalqın seçdiyi yola hörmətlə yanaşırıq.*





*Yəhudilər Azərbaycanda əsrlər boyu sərbəst yaşamış, öz həyatlarını qurmuş, Azərbaycanın həyatının bütün sahələrində fəaliyyət göstərmiş və Azərbaycanın inkişafında fəal iştirak etmişlər. Bu gün də müstəqil dövlətimizdə yəhudilər Azərbaycanın bərabər hüquqlu vətəndaşları kimi yaşayırlar.*

*Gürcülərlə azərbaycanlılar arasında heç zaman heç bir münaqişə, mübahisə, inciklik olmayıbdır. Bu, heyrətamiz haldır.*

*Gürcü və Azərbaycan xalqları əbədi olaraq qardaşdır və biz bu qardaşlıq münasibətlərini gələcək nəsillərə ötürəcəyik.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# TERRORİZM SEPARATÇILIQ, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ HAQQINDA

# TERRORÇULUQ, SEPARATÇILIQ, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ HAQQINDA

*Azərbaycanda ictimai-siyasi mühiti, dövlət orqanlarında olan mühiti, hakimiyyət orqanlarında olan mühiti, hüquq-mühafizə orqanlarında olan mühiti sağlamlaşdırmaq üçün və bizim ideallarımızın səviyyəsinə qaldırmaq üçün bütün mənfi hallarla, vəzifəli şəxslərin vəzifədən sui-istifadə etməsi halları ilə, rüşvətxorluqla, korrupsiyanın bütün növləri ilə ciddi mübarizə aparılmalıdır.*

*Bu gün bizim qarşımızda duran vəzifələrdən biri ölkəmizdə korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək və korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına nail olmaqdan ibarətdir.*

*Biz həmişə separatizmin əleyhinə olmuşuq və əleyhinəyik.*

*Bizim mənsub olduğumuz müsəlman dini terrorizmi heç vaxt təbliğ etməyibdir.*

*Təhlükəsizliyin təmin edilməsi üçün də, beynəlxalq terrorizmlə daha uğurlu mübarizə üçün də, narkotiklərlə, onların nəqli ilə mübarizə üçün də, bir çox digər işlər və iqtisadi əməkdaşlıq üçün də Qafqazda ən başlıca, ümdə məsələ Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması və sülhün bərqərar olunması məsələsidir.*

*Terrorizmlə, ekstremizmlə, dini fanatizmlə, davakar separatizmlə mübarizə hazırda bizim hamımız üçün xüsusi əhəmiyyət kəsb edir.*

*Son vaxtlar bütün dünya üçün, o cümlədən bizim üçün çox aktual problem beynəlxalq terrorizmdir. Beynəlxalq terrorizmlə mübarizə indi artıq qlobal şəkil alıbdır.*

*Biz Azərbaycanda dini ekstremizmlə, fanatizmlə ciddi mübarizə aparmalıyıq.*

*Terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə*





*dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir.*

*Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər.*

*Son illər dünyada terrorçuluğun geniş miqyas almasını indiyə qədər bütün ölkələrdə dərk etmirdilər. Bəziləri hesab edirdilər ki, terrorçuluq onlardan uzaq bir ölkədədir. Onların ölkəsində əmin-amanlıqdır. Deməli, bu o qədər də təhlükəli deyildir.*

*Son illərdə genişlənmiş beynəlxalq terrorizm dünya miqyasında müəyyən qədər lokal xarakter daşıyırdı. Ya bir ölkəni əhatə edirdi, ya bir bölgəni əhatə edirdi. Amma bu terror (ABŞ-da 2001-ci ilin 11 sentyabr hadisələri nəzərdə tutulur — Red.) bütün dünyanı lərzəyə gətirdi. Bu, həm sülhə, həm mədəniyyətə, həm insaniyyətə, həm demokratiyaya – bütün bu anlayışların hamısına qarşı edilən terrordur.*

*Terrorçunun nə milliyyəti var, nə də dini var.*

*Terrorçuluğa qarşı mübarizə, terrorun qarşısının alınması və terrorçuların yaxalanıb cəzalandırılması bizim hamımızın birgə borcudur.*

*Terrorizmin meydana gəlməsinin səbəbi təcavüzkar separatizmdir. Təcavüzkar separatizm demək olar ki, terrorizmin anasıdır.*

*Uzun illər terrorizmdən zərərlər çəkmiş, zərbələr almış Azərbaycan xalqı həmişə terrorizmin əleyhinə olubdur və bu gün də, harada olursa-olsun, dünyada bütün terrorizmin kökünün kəsilməsinin tərəfdarıdır və Amerika Birləşmiş Ştatlarının bu istiqamətdə apardığı bütün tədbirləri dəstəkləyir.*

*Biz terrorizmə, beynəlxalq terrorizmə «YOX!» deyirik və həmişə bu istiqamətdə mübarizədə olduğumuzu bildiririk.*

*Bizim hamımız üçün eyni dərəcədə vacib və eyni dərəcədə təhlükəli olan bir problem var – bu, beynəlxalq terrorizm poblemidir.*

*Separatizm terrorizm forması alır və həm də belə bir təhlükə törədir ki, separatçıların ələ keçirdikləri ərazilər, ümumiyyətlə, nəzarətsiz ərazilərə çevirilir.*





*Beynəlxalq terrorizmlə mübarizə apararkən terrorizmin mənşəyini, müxtəlif formalarını və növlərini nəzərə almaq lazımdır. Hərbi münaqişələrin aradan qaldırılması beynəlxalq terrorizmin meydana gəlməsinin mümkünlüyünü məhdudlaşdırmaq üçün çox ciddi və mühüm tədbirdir.*

*Bu gün terrorizm müxtəlif dini pərdələr arxasında gizlənərək, diqqəti öz pozucu və dağıdıcı məqsədlərindən daha mahir bir şəkildə yayındırmağa cəhd göstərir. Bu pərdə, bu libas, bu xarici görkəm bizi çaşdırmamalıdır. Bütün bu libaslar altında terrorizmin əsl vəhşi sifəti görünür.*

*Terrorizmə «yox» deyən bəşəriyyət bütün səylərini səfərbər edərək onun mənəvi, iqtisadi, siyasi köklərini məhv etməyə can atmalıdır.*

*Terrorizm bəşəriyyətə qarşı yönəldilmiş qəddar əməllərin və niyyətlərin gerçəkləşməsinə xidmət etdiyi üçün onunla aparılan mübarizə də ardıcıl, mütəşəkkil və amansız olmalıdır.*

*Əgər terrorizm insan həyatını təhlükəyə məruz edirsə, deməli, bizim sivilizasiya təhlükə altındadır.*

*Məhz bütün insanların gələcəyi naminə, bəşər sivilizasiyasının gələcəyi naminə biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil taparaq ekstremizmə, terrorizmə, təcavüzkar separatçılığa dəstək verən qara, şər, pozucu qüvvələrin niyyətlərini puça çıxara bilərik.*

*Terrorizm və onunla bağlı beynəlxalq cinayətkarlıq ocaqları münaqişə zonalarında və qanuni hakimiyyətlər tərəfindən nəzarət olunmayan ərazilərdə formalaşır. Bu ərazilər isə təcavüzkar millətçilik və zorakı separatizm siyasətindən doğan müharibələr nəticəsində meydana çıxır.*

*İndiki dünyada beynəlxalq terrorizmlə, bütün təxribatçı qüvvələrlə mübarizə ön plandadır və bu mübarizədə ən ön sırada sərhəd qoşunları durur.*





# QADIN VƏ AİLƏ HAQQINDA

QADIN VƏ AİLƏ HAQQINDA

*Çoxəsrlik tariximizdə demək olar ki, qadın heç vaxt XX əsrdəki qədər yüksəlməmiş, heç vaxt bu zirvələrə çatmamışdır.*

*Azərbaycan qadını azadlıq əldə edəndən sonra sürətlə özü də inkişaf etmiş və cəmiyyətin də inkişaf etməsinin səbəbkarı, böyük iştirakçısı olmuşdur.*

*Qadın Azərbaycanda cəmiyyətin ən şöhrətli, ən hörmətli üzvüdür.*

*Qadınsız həyat yoxdur.*

*Azərbaycan qadını öz ağlı, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq*

*keyfiyyəti ilə bizim xalqımızı, millətimizi daim ucaldıbdır.*

*İnsan mədəniyyətinin ən mühüm cəhətlərindən biri cəmiyyətdə qadına hörmət etmək və hörmət etməyi, diqqət göstərməyi bacarmaqdır.*

*Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır.*

*Mənəviyyatımızın təməl kitabı olan «Kitabi-Dədə Qorqud»un qadın surətləri bu gün də öz məziyyətləri ilə bəşəri ideallarin təntənəsinə xidmət edir.*

*Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material vermişdir.*

*Dahi Nizami öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdar, əfsanəvi Fitnə və yeddi gözəl obrazlarını yaratmışdır.*

*Görkəmli Memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə Xatun türbəsi əzəmətli*





*memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür.*

*1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar yaratdı.*

*Sovet hakimiyyəti illərində də Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdir. Qadın emansipasiyası, qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və şair peşələrinə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi həmin dövrün başlıca nailiyyətləridir.*

*1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Nəriman Nərimanovun məruzə ilə çıxış etdiyi bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil edirdi.*

*1923-cü ildə «Şərq qadını» jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu.*

*Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keç-*

*mişlər. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir.*

*Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Azərbaycan qadınları respublikada baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış etmişlər.*

*Ana o deyil ki, uşağı dünyaya gətiribdir. Ana odur ki, uşağa tərbiyə verib, böyüdüb, uşağa təhsil verib, uşağa vətəndaşlıq vəsiqəsi veribdir.*

*Biz fəxr edirik ki, bu gün ölkəmizin qarşısında duran problemlərin həllində yaxından iştirak edən Azərbaycan qadını artıq demokratik cəmiyyətin bərabərhüquqlu, fəal üzvü kimi çıxış edir.*

*Qadınsız həyat mümkün deyildir.*

*Azərbaycan qadınları həmişə mənim dayağım olublar.*

*Hər bir kəsin yeganə arzusu ailə qurmaq və ailə sahibi olmaq, uşaq dünyaya gətirmək, uşaq atası, uşaq anası olmaqdır. Bundan böyük xoşbəxtlik yoxdur.*





# UŞAQ VƏ GƏNCLƏR HAQQINDA

# UŞAQ VƏ GƏNCLƏR HAQQINDA

*Bizim müstəqil Azərbaycanın gələcəyi və Yeni Azərbaycan Partiyasının gələcəyi gənclərə məxsusdur, gənclərin əlində olmalıdır.*

*Uşaqlar hər bir insanın sevincidir. Uşaqlar həmişə insanları sevindirib, qəmdən, kədərdən, faciədən xilas etməyə yardım edirlər. Hər bir insan öz həyatının mənasını və gələcəyini uşaqlarda görür. Uşaqlar hər bir ailəyə xoşbəxtlik bəxş edir. Uşaqlar cəmiyyətin gülüdür, çiçəyidir. Uşaqlar hamımızın həm bu günüdür, həm də gələcəyidir.*

*Böyük problemlər içərisində yaşayan cəmiyyət, yaşlı insanlar öz çətinliklərinin öhdəsindən gəlmək üçün uşaqlardan ilham alırlar,*

*uşaqları görüb təsəlli alırlar ki, uşaqlar var, gələcək var. Azərbaycanın gələcəyi də parlaqdır.*

*Əziz uşaqlar, biz sizə gələcəkdə daha da rahat həyat qurmaq istəyirik. Biz istəyirik ki, bizim gördüyümüz çətinlikləri, bizim gördüyümüz faciələri, bizim gördüyümüz qanları, dəhşətləri siz, əziz balalar, görməyəsiniz. Biz bunun üçün çalışırıq. Əmin ola bilərsiniz ki, bu yolda biz sona qədər öz imkanlarımızdan istifadə edəcəyik. İnanıram ki, biz buna nail olacağıq. Sizin isə borcunuz ondan ibarətdir ki, yaxşı oxuyasınız, yaxşı təhsil alasınız, həyatda gələcəkdə özünüzə yer tapmaq üçün hazırlaşasınız, öz istedadlarınızdan səmərəli istifadə edə biləsiniz və Azərbaycanın gələcəyinin qurucuları olasınız. Mən inanıram ki, indiki gənclər, indiki uşaqlar bizim nəsillərdən də qabiliyyətlidir, istedadlıdır. Mən inanıram ki, Azərbaycanın bugünkü gəncləri, bugünkü uşaqları Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcəklər. Biz bunun təməlini qoyuruq, əsasını qoyuruq. Siz isə gələcəkdə bunları qurub yaratmalısınız, inkişaf etdirməlisiniz. Sizin daim nümayiş etdirdiyiniz istedadlar, sizin biliyə, təhsilə marağınız, həyatımızın bu çətin dövründə məktəblərimizdə təhsilin günü-gündən yaxşılaşması, məktəblərdə gənc istedadların müxtəlif dərnəklərə cəlb edilməsi və belə gözəl nümunələr hazırlanması onu göstərir ki, həqiqətən bizim uşaqlar, bizim gənclər xoşbəxt gələcəyə malikdirlər.*





*Mən həqiqətən həyatda babayam. Azərbaycanın bütün uşaqlarını, bütün gənclərini həqiqətən ata, baba məhəbbəti ilə sevirəm.*

*Uşaq hər bir insanı yaşamağa, yaratmağa həvəsləndirir. Hər bir valideyn həyatda yaşayaraq, işləyərək, çalışaraq ilk növbədə qəlbində öz uşaqlarını, öz övladlarını düşünür, onları nəzərə alır və təsadüfi deyil ki, valideynlərin çoxu həmişə belə bir söz işlədirlər ki, mən uşaqlarım üçün yaşayıram. «Uşaqlar üçün yaşamaq» sözü hər bir valideynin öz uşaqlarına aiddirsə, eyni zamanda hər bir uşağa aiddir.*

*İnsan cəmiyyəti daim inkişafdadır. Bu inkişafı təmin edən yeni-yeni nəsillərdir.*

*XXI əsr gənclərin əsridir. XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür. Əziz gənclər, siz Azərbaycanın XXI əsrinin qurucularısınız. Bu yolda sizə uğurlar olsun, eşq olsun!*

*Azərbaycan gəncliyinin həyatını, təhsilini, məşğulluğunu və fəaliyyətini təmin etmək üçün biz bütün imkanları səfərbərliyə almalıyıq, əlimizdən gələni etməliyik.*

*İndi artıq tam qətiyyətlə demək olar ki, Azərbaycan gəncləri təşkilatlanıb, birləşib, cəmiyyətdə öz yerini tutub və müstəqil Azərbaycanın inkişaf etməsi üçün lazımı işlər görürlər.*

*Gənclərin qarşısında duran vəzifələr birinci növbədə cəmiyyətdə öz yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir.*

*Azərbaycan gənclər ölkəsidir. Belə olan halda gənclərə daha da geniş imkanlar yaratmaq, geniş yollar açmaq lazımdır.*

*Gənclərin əmək fəaliyyətinə, dövlət, hökümət işlərinə cəlb olunması bizim əsas vəzifələrimizdəndir.*

*Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik Konstitusiyası, bu Konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, gerbi, himni - bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır.*





*Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!*

*İnsan cəmiyyətində uşaqlara qayğı hər bir vətəndaşın müqəddəs borcudur.*

*Azərbaycan gəncləri XX əsrin əvvəllərində başlamış və 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnmiş milli-azadlıq hərəkatının aparıcı qüvvələrindən olmuşdur.*

*Biz XXI əsrə qədəm qoyuruq. XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini, müstəqil Azərbaycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir.*

*Uşaqlar cəmiyyətin ən gözəl hissəsidir.*

*Hər bir insan, hər bir ana, hər bir ata öz xoşbəxtliyini birinci növbədə öz uşağında, öz övladında görür.*

*Uşaq həmişə insanda çox ülvi hissiyyatlar yaradır.*

*İnsan istedadının hər bir sahəsi Azərbaycanın uşaqlarında var.*

*Bizim borcumuz, bizim vəzifəmiz şərait yaratmaqdan ibarətdir ki, hər bir gənc, hər bir uşaq istedadını inkişaf etdirə bilsin, ona imkan yaransın.*

*Xalq, millət və onun gəncləri, onun ordusu, onun döyüşçüləri həmişə öz torpağını, öz ölkəsini, öz vətənini qorumağa qadir olmalıdır, qorumağa hazır olmalıdır.*





*Mən bütün Azərbaycanın uşaqlarını öz uşaqlarım hesab edirəm, övladlarım hesab edirəm, nəvələrim hesab edirəm.*

*Ölkəmizin bugünkü gəncləri, gənc nəsli Azərbaycanın parlaq gələcəyi yolunda öz xidmətlərini göstərəcək və Azərbaycanı gələcəkdə inkişaf etdirəcəklər.*

*Biz bu gün hansı gənc nəsli yetişdirə bilsək, Azərbaycanın gələcəyi ondan çox asılı olacaqdır. Əgər bugünkü gənc nəsil Azərbaycan xalqının bütün qayğılarına qalmaq iqtidarına malik olacaqsa, yüksək biliyə, təcrübəyə malik olacaqsa, təbiidir ki, biz Azərbaycanın gələcəyi haqqında narahat olmamalıyıq.*

*Ölkəmizin bugünkü gəncləri, gənc nəsli Azərbaycanın parlaq gələcəyi yolunda öz xidmətlərini göstərəcək və Azərbaycanı gələcəkdə inkişaf etdirəcəklər.*

*Gərək hər bir insan və xüsusən gənc nəsil azərbaycançılığın, Azərbaycanın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Biz buna nə qədər çox nail olsaq, bizim millətimizdə millilik, vətənpərvərlik əhval-ruhiyyəsi, öz torpağına, xalqına məhəbbət hissi bir o qədər çox artacaqdır.*

*Azərbaycanın dövləti üçün, müstəqil Azərbaycan üçün Azərbaycanın uşaqları, yeniyetmələri, gəncləri Azərbaycanın əvəzsiz sərvətidir, böyük nemətidir.*

*İndi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin, qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil, bizim zəngin ədəbiyyatımız var. Azərbaycan ədəbiyyatı qədim dövrlərdən indiyədək öz zənginliyi ilə bütün dünya xalqları içərisində öncül yerlərdə olubdur. Demək, bu həm bizim tariximizdir, həm mənəviyyatımız, həm də milli mənliyimizdir.*

*Hər bir ailənin, hər bir valideyinin bütün başqa qayğılardan ən böyük qayğısı öz uşaqlarını Azərbaycanın sağlam, bilikli, yüksək mənəviyyatlı vətəndaşları kimi böyütməkdir.*

*Bu gün məktəbə gedən uşaqlar Azərbaycanın vətəndaşı - yüksək mənada vətəndaş, yüksək biliyə malik olan vətəndaş, yüksək əxlaqa malik olan vətəndaş, dövlətçiliyə sədaqətli olan vətəndaş, vətənpərvər olan vətəndaş olmalıdırlar. Arzu edirəm ki, valideynlər bu işlərə daha da çox diqqət yetirsinlər və qayğı göstərsinlər.*





*Bizim gələcəyimiz gənclərdir.*

*Azərbaycanın bügünkü gəncləri gələcəkdə ölkəmizi idarə edənlər, Azərbaycanı irəli aparanlar olacaqlar. Bizim isə borcumuz bugünkü gənclər üçün güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş elə dövlət, cəmiyyət yaratmaq və xalqın rifah halını o qədər yüksəltmək məqsədidir ki, onlar biz indi çəkdiyimiz çətinlikləri çəkməsinlər.*

*Biz bügünkü gənclərə çox yüksək amallara, mənəvi keyfiyyətlərə, yüksək iqtisadi potensiala malik olan dövlət, ölkə əmanət edəcəyik.*

*Millət üçün, dövlət üçün, ölkə üçün, xalq üçün uşaq, gənclik hər şeydən qiymətlidir. Uşağın dünyaya gəlməsi, onun sağlam böyüməsi, gənc nəslin yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünkü o, millətin, xalqın gələcəyidir, millətin, xalqın daimiliyidir, əbədiliyidir.*

*İnsanın zehni, beyni, bacarığı bizim təsəvvür etdiyimizdən də qat-qat çox güclüdür. Ona görə biz də, gələcək nəsillər də daha yeni, böyük hadisələrin şahidi olacağıq.*

*Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir.*

*Azərbaycan gəncinin, Azərbaycan insanının potensial gücü böyükdür, həm də onun mənəvi iradəsi böyükdür.*

*Azərbaycanda kimsəsiz, valideynsiz uşaqlara göstərilən qayğı bizim ən ümdə vəzifələrimizdən biridir.*

*Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsə-*





*nətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb olunub.*

*Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.*

*Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. Hər bir gənc müasir həyatda iqtisadiyyat, siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir.*

*Gərək gənclər indi sürətlə inkişaf etsinlər ki, Azərbaycanda özlərinə məxsus yer tutsunlar və hansı ölkədə olursa-olsun, Azərbaycanı yaxşı təmsil etsinlər.*

*Gənclərimizin sağlam böyüməsi üçün, onların sağlam gələcəyi üçün qoyulan vəsait hər bir şeydən qiymətlidir.*

*Gənclər bizim işlərimizin sədaqətli davamçısı olacaqlar.*

*Gənclər bizim tariximizi, keçmişimizi, xüsusən son on ildə, Azərbaycanın bir müstəqil dövlət, ölkə kimi keçdiyi yolu, onun tarixini yaxşı öyrənməlidirlər. Hər şeydən əvvəl səda-*

*qətli vətəndaş, vətənpərvər azərbaycanlı olmalıdırlar.*

*Azərbaycanın xoşbəxt gələcəyi üçün gənclər layiqli Azərbaycan vətəndaşı adını şərəflə daşımalıdır, öz ölkəsinin, millətinin, öz xalqının vətənpərvər övladı olmalıdır.*

*Biz yol verə bilmərik ki, din pərdəsi altında, fanatizm yolu ilə təxribatlar aparılsın, bizim insanlarımız, xüsusən gənclərimiz belə təhlükəli və dəhşətli işlərə cəlb olunsun. Çünki belə hallar bizim xalqımıza vurulan zərbədir və bizim dövlətçiliyimizə vurulan zərbədir. Biz bunların qarşısını almalıyıq.*

*Biz xalqımızın sağlamlığını qorumalıyıq, xüsusən gənclərin narkotik maddələrdən istifadə etməsi meyllərinin qarşısını almalıyıq.*

*Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir.*

*Uşağı, övladı nə qədər çox istəyirsənsə, onun tərbiyəsi ilə, onun təhsili ilə də bir o qədər məşğul olmalısan.*

*Müstəqil Azərbaycanda bilik alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd kimi qoymalıdır. Ona görə gərək o, öz ölkəsini yaxşı tanısın, öz tarixini yaxşı bilsin və seçdiyi ixtisasda sadəcə, mütəxəssis yox, ən yüksək səviyyəli mütəxəsis olmağa çalışsın.*





*Gəncin formalaşması, onun lazımi bilik alması, lazımi mənəvi dəyərləri dərk etməsi, milli dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir.*

*Gənclərə tövsiyəm odur ki, onlar sağlam fiziki və mənəvi həyat tərzi keçirsinlər. Belə olan halda siz həm daha da sağlam vətəndaş olacaqsınız, həm daha da yaxşı bilik alacaqsınız, belə olanda həm də Azərbaycanın gələcəyinin həqiqi qurucuları olacaqsınız.*

*Uşaqların hüquqlarının qorunması bizim dövlətimizin ən əsas vəzifələrindən biridir. Mən isə dövlət başçısı kimi Azərbaycanda uşaqların hüquqlarının qorunmasının təminatçısı kimi çıxış edirəm.*

*Müstəqil Azərbaycanda uşaqlara qayğı, diqqət, sevgi, məhəbbət hər şeydən üstündür və hər şeydən də irəlidədir.*

*Biz istəyirik ki, gənclərimiz spirtli içkilər içməsinlər, siqaret çəkməsinlər. Biz mübarizə aparırıq ki, ümumiyyətlə, gənclərimiz, insan-*

*larımız tərəfindən narkotik maddələrin istifadə olunması tamamilə aradan götürülsün. Biz bunu istəyirik, bunu arzu edirik. Biz bu mübarizəni aparırıq. Lakin əgər biz deyiriksə ki, gənc siqaret çəkməsin, spirtli içki içməsin, narkotiklərə yaxın düşməsin, bəs bunun əvəzində bunlara nə veririk? Biz onlara bunun əvəzində idmanla, bədən tərbiyəsi ilə məşğul olmaq məsləhəti veririk. Onlara təhsil almaq, məktəblərdə yaxşı oxumaq məsləhəti veririk.*

*Mən inanıram ki, müstəqil Azərbaycanda, cəmiyyətimizdə sağlam həyat tərzi get-gedə özünə üstün yer tutur. Bizim cəmiyyətimizdə sağlam həyat tərzi əsas amillərdən biridir. Sağlam həyat tərzi təkcə gənclər üçün deyil, hər bir insan üçün vacibdir. Bu, insanın şəxsi sağlamlığıdır, onun ailəsinin sağlamlığıdır. Bu, hər bir insanın ömrünün uzadılmasıdır, hər bir insanın nəslinin sağlam olmasıdır. Sağlam həyat tərzi də insanlarda gənclikdən başlayır. Əgər biz gənclərin hamısını sağlam həyat tərzinə yönəldə, onları fiziki və əqli cəhətdən sağlam böyüdə bilsək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqlar.*

*Bütün gənclərimiz bilsinlər. Hərbi xidmətini keçən, öz vətəndaşlıq borcunu yerinə yetirən*





*gənc bizim dövlətdə, mənim başçılıq etdiyim dövlətdə ən hörmətlidir.*

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır.*

*Bizim məqsədimiz müstəqil Azərbaycanın gələcəyi üçün daha bilikli, zəkalı gənclər hazırlamaqdır.*

*Gənclər Azərbaycanın gələcəyini inkişaf etdirməli və özlərindən sonra gələn nəsillərə verməlidir.*

*Hər bir şəxsin, hər bir gəncin özünün fiziki sağlamlığı üçün səy qoyması, lazımi rejim yaratması və bədən tərbiyəsi ilə, idmanla məşğul olması onun sağlamlığının təminatıdır və Azərbaycan gəncliyinin fiziki sağlamlığının təminatıdır.*

*Hərbi xidməti keçməyən gənc Azərbaycanda, bizim cəmiyyətdə heç vaxt hörmət qazana bilməz.*

*Azərbaycanın gələcəyi gənclərə məxsusdur.*

*Gənclərdə, gənc nəsildə vətənpərvərlik hissini, vətənə xidmət etməyi, orduda xidməti şərəf bilmək və Vətən yolunda həlak olmağa, özünü qurban verməyə daim hazır olmaq hisslərini daha da yüksəklərə qaldırmalıyıq.*

*Bizim müstəqilliyimizin sonu yoxdur. Belə də olacaqdır. Ancaq bu da bizdən asılıdır. Bugünkü, gələcək nəsillərdən asılıdır, hamımızdan asılıdır. Biz bu gün əlimizdən gələni edirik və etməliyik. Gələcək nəsillər üçün də biz nümunə yaratmalı, onlar üçün böyük irs qoyub getməliyik.*

*Hər bir insana ən çox sevinc, səadət və həyatda yaşamaq arzusu gətirən uşaqdır.*

*İnsan müəyyən mərhələdən sonra daha da çox yaşamaq istəyir ki, uşaqlarını saxlasın, uşaqlarını böyütsün, oxutsun, müstəqil həyat yoluna çıxarsın. Onda o, öz atalıq, analıq borcunu yerinə yetirmiş olur.*

*Çadırlarda doğulmuş uşaqlar gələcəkdə öz torpaqlarının sahibi olacaq, öz torpaqlarında böyüyəcəklər, öz elində-obasında yaşayacaqlar.*

*Bizim xalqımızın gələcəyi gənclərdir. Gənclər isə gərək həm fiziki cəhətdən sağlam olsunlar,*





*həm də yüksək şüura, yüksək biliyə, yüksək əxlaqa, yüksək tərbiyəyə, yüksək elmə malik olsunlar. Bunlar hamısı bir-birinə sıx bağlıdır.*

*İstedadı olan hər bir gəncə, hər bir insana xüsusi münasibət göstərilməsini istəyirəm. Çünki bu istedadlardan bizim gələcəyimizin mədəniyyət xadimləri yaranacaqdır.*

*Azərbaycanda gözəl gənc nəsil yetişir. Azərbaycanın ağıllı, zəkalı, istedadlı uşaqları var və onlar məktəblərdə oxuyurlar. Onların hamısı Azərbaycanın gələcəyini mütləq bizdən də yaxşı təmin edəcəklər, ölkəmizi bizdən də yaxşı irəliyə aparacaqlar.*

*Əziz balalar, əziz gənclər, mən Azərbaycanın gələcəyi haqqında düşünərkən sizə ümid edirəm, sizə arxalanıram və Azərbaycanın parlaq gələcəyini sizdən gözləyirəm.*

*Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır.*

*Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir.*

*Müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır.*

*İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var.*





# ZİYALILAR VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

# ZİYALILAR VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA



*Mustafa Kamal Atatürk cümhuriyyəti yaratdı, amma eyni zamanda da qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu, böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir. Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.*

*Türkiyənin bugünkü nəsillərinin nailiyyəti yüksək qiymətə layiqdir. Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cüm-*

*huriyyəti ardıcıl olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir.*

*Türkiyə Cümhuriyyətini yaratmaq özü-özlüyündə tarixi bir hadisə idi. Amma onu yaşatmaq, onu qüdrətli cümhuriyyət etmək ondan da çətin, ondan da ağır bir vəzifə idi. Bəli, əgər Mustafa Kamal Atatürk olmasaydı, bəlkə də Türkiyə Cümhuriyyəti yaranmazdı. Əgər Mustafa Kamal Atatürk olmasaydı, Türkiyə Cümhuriyyəti yaşayıb inkişaf edə bilməzdi. Bəli, Mustafa Kamal Atatürkün iradəsi, onun müdrikliyi, dahiliyi, qəhrəmanlığı Türkiyə Cümhuriyyətinin yaşamasının əsas amili olmuşdur. Bu, bizim üçün örnəkdir.*

*Mirzə Fətəli Axundov İslam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olubdur. O, İslam dəyərlərinə çox sadiq bir insan olubdur. Amma eyni zamanda o, Azərbaycanın milli-mənəvi dəyərlərini, İslam dəyərlərini ümumbəşəri, Avropa dəyərləri ilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır.*

*Dahi bəstəkarımız Üzeyir Hacıbəyov nə qədər milli olubsa, o qədər də ümumbəşəri olubdur.*





*Milli xüsusiyyətlərini qoruyub saxlayan, milli-mənəvi dəyərlərinə sadiq olan, milli-mənəvi dəyərlərini yüksək qiymətləndirən, onlarla fəxr edən, eyni zamanda ümumbəşəri dəyərlərin xalqımız üçün faydalı hissələrini götürüb Azərbaycan ictimai, elmi, mədəni fikrini inkişaf etdirən şəxsiyyətlər Azərbaycanın mədəniyyətini, elmini, bu səviyyəyə gətirən insanlardır.*

*Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubluğundan asılı olmayaraq, kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olunmalıdırlar.*

*Biz Nəsimini dünyaya tanıtmaqla Azərbaycanı yenidən tanıtdıq.*

*Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır.*

*Mustafa Kamal Atatürk bizlər üçün qəhrəmanlıq rəmzidir, müdriklik rəmzidir, dövlətçilik rəmzidir, demokratiya rəmzidir.*

*Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti ona abidə kimi yaşayır.*

*Dahi bəstəkar Üzeyir Hacıbəyov 23 yaşında yaratdığı «Leyli və Məcnun» operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur.*

*Cəmi 23 il ömür sürmüş Asəf Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixinə romans, simfonik musiqi və şair kimi bir sıra yeni janrların ilk nümunələrini yaratmış böyük bəstəkar kimi daxil olmuşdur.*

*Azərbaycan xalqı Hüseyn Cavidi çox yüksək qiymətləndirir və onun irsi əsrlər boyu yaşayacaqdır. Onun iradəsi, onun milliliyi və yaradıcılığının özünəməxsus xüsusiyyətləri gələcək nəsillər üçün də böyük örnək olacaqdır.*

*Mən böyük iftixar hissi ilə deyirəm və iftixar hissi keçirirəm ki, Azərbaycan xalqının Süleyman Dəmirəl kimi böyük dostu vardır.*

*Böyük öndər Atatürk tərəfindən yaranmış, əsası qoyulmuş və onun rəhbərliyi ilə böyüyüb qüdrətli bir cümhuriyyətə çevrilmiş Türkiyə Cümhuriyyəti etibarlı əllərdədir. Bizi ən çox sevindirən odur ki, Türkiyə xalqı, hökuməti, dövləti Mustafa Kamal Atatürkün yoluna sadiqdir və onun qoyduğu böyük yolla gedərək yüksək nailiyyətlər əldə edibdir.*





*Azərbaycan bizi əhatə edən istər uzaq, istər yaxın – bütün Şərq ölkələrindən bu gün fərqlənir. Nəyə görə fərqlənir? Əgər bizim ulu babalarımız, əcdadlarımız Azərbaycanda mədəniyyəti, elmi, dünyəviliyi, tərəqqini yaratmasaydılar, onu inkişaf etdirməsəydilər, Azərbaycan belə olmazdı. Azərbaycanda insanlar bu gün də çadra altında olacaqdılar. Azərbaycan öz milli ənənələrini, dəyərlərini, dini dəyərlərini qoruyaraq, saxlayaraq, inkişaf etdirərək eyni zamanda dünyəvi mədəniyyətə doğru gedibdir. Azərbaycan xalqının buna nail olmasında Azərbaycanın böyük simalarının, o cümlədən dahi insan Cəlil Məmmədquluzadənin – Mirzə Cəlilin xüsusi xidməti və rolu olubdur.*

*Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər «Molla Nəsrəddin» jurnalı yatmış insanları qaranlıqdan çıxartmağa çalışmasaydı, əgər onun «Ölülər» əsəri insanların gözünü real dünyaya açmasaydı, xalqımız bu qədər inkişaf edə bilməzdi.*

*Cəlil Məmmədquluzadənin yaradıcılığı həqiqətən unudulmayıbdır. Ancaq hesab edirəm ki, onun fəaliyyətinə, yaradıcılığına nə qədər yüksək qiymət versək də, yenə də onun borcundan çıxa bilmərik.*

*Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gətirdiyinə görə Nehrəm kəndi xüsusi hörmətə layiqdir.*

*Mirzə Cəlil öz xalqına, millətinə nə qədər sədaqətli olduğu kimi, nehrəmlilər də həm Mirzə Cəlil irsinə, həm Azərbaycan xalqına, həm Azərbaycan dövlətinə və onların sevdiyi insanlara o qədər sədaqətlidirlər.*

*Mərhum akademik Ziya Bünyadovun əsəri, («Azərbaycan Atabəylər dövləti» nəzərdə tutulur - Red.) deyə bilərəm ki, Azərbaycan tarixində yazılmış ən qiymətli əsərlərdən biridir. Azərbaycanda işlədiyim zaman bu əsərə görə ona Dövlət mükafatı verdim. Bu əsərə qədər Atabəylər dövləti və Azərbaycanın XII əsrdəki dövlətçilik tarixi məlum deyildi.*

*Ziya Bünyadov böyük bir tarixi ixtira edib.*

*Türkiyə Cümhuriyyətinin banisi böyük Mustafa Kamal Atatürk türk xalqları haqqında düşünərkən, öz fikirlərini həyata keçirməyə çalışarkən Azərbaycana xüsusi diqqət yetirirdi. Onun Azərbaycan haqqındakı fikirləri, dediyi sözlər hamımızın qəlbindədir və biz bunları bir vəsiyyət kimi böyük minnətdarlıqla qəbul edirik.*





*Dünyaya ən böyük şəxsiyyətlərdən birini – Mustafa Kamal Atatürkü bəxş etmiş türk xalqı elə təkcə bununla fəxr edə bilər. Biz də Azərbaycanda fəxr edirik ki, XX əsrdə türk dünyasının belə böyük, dahi şəxsiyyəti olmuşdur.*

*Mustafa Kamal Atatürkün ən böyük xidməti Türkiyə Cümhuriyyətini yaratmasıdır. Biz bəlkə bu gün bunu adi hadisə kimi qəbul edə bilərik, ancaq heç də yox. Bu, heç də adi hadisə deyildi. Türkiyənin Osmanlı imperatorluğunun 700 illik fəaliyyəti şəraitində, onun təsiri altında yaşamış insanları cümhuriyyət qurmağa sövq etmək, cəlb etmək və bu cümhuriyyətin qurulması fikrini ortaya atmaq, bu cümhuriyyəti qurmaq, yaratmaq və onu yaşatmaq Mustafa Kamal Atatürkün çox böyük xidmətidir, demək olar ki, tarixi xidmətidir. Zaman, əsrlər keçəcək, türk xalqı, türkköklü, türkdilli xalqlar, türk dünyası bunu heç vaxt unutmayacaqdır.*

*Türkiyədə yaranmış cümhuriyyət bütün İslam aləmində, dünyada, bütün tarixlər ərzində yaranan ilk demokratik, hüquqi, dünyəvi, yəni layiq cümhuriyyətdir.*

*Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir*

*ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəklərə qaldırmışdır.*

*Süleyman Dəmirəlin Azərbaycan xalqına etdiyi ən böyük töhfə, ən böyük ərməğan «Həsrət körpüsü»nün, «Ümid körpüsü»nün tikilməsidir.*

*Mustafa Kamal Atatürk bəşər tarixinin, XX əsrin ən böyük şəxsiyyətlərindəndir. İstiqlal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmış, Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yaşayır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir.*

*Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir.*

*Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir.*





*Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir.*

*Bəşəriyyətin nadir şəxsiyyətlərindən biri də bizim əziz dostumuz, qardaşımız İhsan Doğramacıdır.*

*Lider olmaq üçün böyük həyat yolu keçmək lazımdır, zəngin biliyə, böyük əməli fəaliyyət təcrübəsinə malik olmaq lazımdır, xarakter, iradə lazımdır. Bütün bunlar olmasa, onda, əlbəttə, xalq onun milli mənafelərini qorumağa qadir liderə malik ola bilməz.*

*Azərbaycanın milli qəhrəmanları – Qarabağ cəbhəsində həlak olmuş jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova yeni dövrün fədakarlıq rəmzi oldular.*

*Nizami Gəncəvi bizim zəngin mədəniyyətimizin tarixinin parlaq nümunəsidir.*

*Böyük Atatürk Türkiyə Cümhuriyyətini yaratdı, onu yaşatdı, inkişaf etdirdi və etibarlı əllərə verdi.*

*Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur.*

*Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.*

*Cəlil Məmmədquluzadəninin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu.*

*Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün Şərqdə opera sənətinin təməli qoyuldu.*

*Məndən soruşanda ki, böyük Atatürkün türk xalqına qoyub getdiyi irs nədən ibarətdir, mən deyirəm ki, bu irs o qədər böyükdür ki, hamısını əhatə etmək mümkün deyildir. Ancaq ən böyük irs onun yaratdığı, qurduğu, yaşatdığı və bu gün uğurla yaşayan Türkiyə Cümhuriyyətidir.*





*Böyük öndər Mustafa Kamal Atatürk elə bir cümhuriyyət yaradıbdır ki, o, daim yaşayacaq, daim inkişaf edəcəkdir.*

*Türkiyənin ən böyük sərvəti onun Silahlı Qüvvələridir, ordusudur. Dəfələrlə demişəm ki, Atatürk gedəndən sonra xalqa iki böyük irs qoyubdur. Birincisi, yaratdığı Türkiyə Cümhuriyyəti, ikincisi, yaratdığı Silahlı Qüvvələrdir.*

*Azərbaycanın istiqlaliyyətini elan edənlər, Xalq Cümhuriyyətini qurub-yaradanlar və ona sona qədər sadiq olan insanlar Azərbaycanın ən mötəbər, ən görkəmli insanlarıdır.*

*Xalq Cümhuriyyətinin rəhbərləri Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, onların silahdaşları və o illərdə müstəqillik uğrunda mübarizə aparan və hakimiyyət orqanlarında fəaliyyət göstərən insanlar Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacaqlar. Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar.*

*Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır.*

*Rəşid Behbudov Azərbaycanın xalq mahnıları ilə, musiqi folkloru ilə müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətləri daşıyan sintezini yarada bilmişdir.*

*Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir.*

*«Arşın mal alan» Azərbaycan mədəniyyəti tarixinin ən böyük nailiyyətlərindən biridir. Ona görə o film yaşamalıdır. O film yaşamalıdır ki, Üzeyir Hacıbəyovun nə qədər böyük insan olduğunu gələcək nəsillər də görsün.*

*Böyük Üzeyir Hacıbəyovun əsrin əvvəlində yazdığı əsərlər dünyaya sübut etmişdir ki, Azərbaycan tarixən Şərq adət-ənənələrini, milli dəyərlərini daşıyan bir xalq kimi, eyni zamanda Şərqlə Qərbin qovuşduğu yerdə yerləşən bir ölkə kimi ümumbəşəri dəyərlərin hamısından istifadə etmək arzusundadır və inkişaf yolu ilə, tərəqqi yolu ilə getmək arzusundadır.*

*Böyük Atatürkün ənənələri Türkiyədə – xalqda, millətdə, cəmiyyətdə və dövlətdə yaşayır.*

*Hər bir iş adamı haradasa bir idman kompleksi, yaxud salonu, bir məktəb tikərsə,*





*haradasa gənclər üçün yeni bir əyləncə yeri, yaxud təhsil almaq üçün imkanlar yaradarsa, onların işi qiymətləndiriləcək, adları tarixə düşəcək və onlar xeyriyyəçi kimi daha da yüksək dəyərləndiriləcəklər.*

*Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır.*

*Çar Rusiyası dövründə azərbaycanlıların hərbi məktəblərə qəbul olunması çox fövqəladə bir hadisə idi. Ancaq buna baxmayaraq, bəzi azərbaycanlılar o qədər yüksək zəka nümayiş etdiriblər, hərbi peşəyə o qədər maraq nümayiş etdiriblər ki, özlərini göstəriblər və böyük rütbələrə nail olublar. Bax, həmin bu nəslin yetirmələrindən biri də Cəmşid Naxçıvanski idi.*

*Bəhruz Kəngərli Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır, bunu açıq deməliyik.*

*Bəhruz Kəngərlinin əsərləri Azərbaycanın rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur.*

*İhsan Doğramacı bir insan kimi çox gözəl qəlbə malik, çox xeyirxah, adamlara yardım etmək istəyən, xalqını inkişaf etdirmək istəyən bir insandır.*

*İhsan Doğramacını xalq türk millətinin, türk dünyasının dəyərli bir insanı, nadir şəxsiyyəti kimi tanıyır, hörmət edir və bundan sonra da ona hörmət edəcəkdir.*

*Müslüm çox mahnılar yaratmışdır, yəni o, özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir.*

*Mahnıları hamı ifa edir. Lakin eyni bir mahnını müxtəlif ifaçılar müxtəlif cür ifa edirlər. Müslümü bütün digər ifaçılardan fərqləndirən xüsusiyyət budur ki, o, hər hansı bir mahnı ifa etməyə başladıqda ona öz aranjimanını, özünün müəyyən çalarlarını verirdi və bu mahnı elə səslənirdi ki, sanki yenicə yazılmışdır.*

*Tamara Sinyavskaya görkəmli şəxsiyyətdir, rus müğənnisidir, Böyük Teatrın solistidir, onun zəngin yaradıcılığı var.*

*XX əsrin əvvəllərində dahi Üzeyir Hacıbəyov özünün ilk opera əsərlərini yaradaraq, bütün*





*dünyaya bəyan etdi ki, Azərbaycan xalqı klassik əsərlər, hamının başa düşdüyü opera əsərləri yaratmağa qadirdir.*

*Çoxlu ifaçılar olmuşdur. Əlbəttə, onların arasında, müğənnilərimiz arasında birinci yerdə unudulmaz Bülbül durur. Azərbaycan tarixinin bütöv bir mərhələsi onun adı ilə bağlıdır.*

*Müslümün ifasında hər bir mahnı ayrıca bir əsərdir.*

*Mən Müslümü gözəl insani keyfiyyətlərinə görə bir insan kimi də, bir artist kimi də, bir bəstəkar kimi də həmişə sevmişəm.*

*Müslüm Maqomayev özünün gözəl mahnıları və incəsənət, mədəniyyət sahəsində görkəmli fəaliyyəti ilə Azərbaycanın tarixinə daxil olmuşdur. O, bizim mədəniyyətimizi, mahnı sənətimizi zənginləşdirmişdir, böyük məhəbbət, çox yüksək nüfuz qazanmışdır. O, Azərbaycan xalqının oğlu olaraq burada dünyaya gəlmiş və ilk addımlarını Azərbaycanda atmışdır, amma sonra, sadəcə, Azərbaycanın çərçivəsinə sığmamışdır. Bu da təbiidir. Çünki onun yaradıcılığı, onun sənəti, onun mahnıları daha geniş auditoriya, xalqla daha geniş ünsiyyət tələb edirdi.*

*Güclü, yaxşı, xoş avazlı səsə malik olmaq kifayət deyildir, əgər müğənni öz səsindən, Allah vergisi olan istedadından istifadə edə bilmirsə, insanların məhəbbətini və rəğbətini qazana bilməz.*

*Gənc nəslimiz Müslümü tanımalı, onun yaradıcılığını, yaradıcılıq yolunu bilməlidir.*

*Müslüm zəmanəmizin böyük müğənnisidir. Mən bunu mübaliğəsiz deyirəm. Dünyada elə bir təşkilat yoxdur ki, o, kimin böyük olduğunu müəyyənləşdirsin. Ancaq insanlar bunu özləri müəyyənləşdirirlər.*

*Müslümün yubileyini qeyd etdiyimiz vaxtda deməliyəm ki, o, tarixə böyük müğənni kimi daxil olmuşdur. Özü də təkcə Azərbaycan milli miqyasının böyük müğənnisi kimi deyildir, o, dərhal Azərbaycanın hüdudlarından kənara çıxmışdır. O, dünyanın bir çox ölkələrində tanınmış, belə yüksək ad-san qazanmış böyük müğənnidir.*

*Azərbaycanda rəngkarlıq, rəsm sənəti böyük inkişaf yolu keçibdir. Bəhruz Kəngərlidən, Əzim Əzimzadədən başlayaraq, Azərbaycanda davamlı olaraq böyük rəssamlar dünyaya gəlib və böyük əsərlər yaradıblar.*





*Sultan Məhəmmədin əsərləri, onun miniatür sənəti 500 il bundan öncə bizim Azərbaycanın bu sənət sahəsindəki nailiyyətlərini göstərir.*

*O vaxtlar Azərbaycan Xalq Cümhuriyyətini yaradanları – Məmməd Əmin Rəsulzadəni, Əlimərdan bəy Topçubaşovu, Fətəli xan Xoyskini, Nəsib bəy Yusifbəylini və digərlərini biz daim yad edirik. Onlar öz cəsarətli fəaliyyətləri ilə Azərbaycanda ilk müstəqil dövlətin qurulması üçün güclü addımlar atdılar. Xalqımıza müstəqillik ənənələri qoyub getdilər.*

*Niyazi olmasaydı, Qara Qarayevin əsərləri o cür yüksək səviyyədə təqdim edilə bilməzdi. Eləcə də Fikrət Əmirovun əsərləri. Onların hamısı bu simfonik orkestrdən və Niyazinin əlindən keçəndən sonra biz gördüyümüz səviyyəyə gəlib çatırdı.*

*Azərbaycanda professional musiqinin, yəni simfonik musiqinin təbliğində, Azərbaycan bəstəkarlarının simfonik musiqi əsərləri yaratmasında və bu əsərlərin ifa edilməsində Niyazinin əvəzsiz rolu olubdur.*

*Niyazinin musiqi səhnəsindəki gördüyü işlər, demək olar ki, ən çətin işlərdir.*

*Böyük Üzeyir Hacıbəyov yüz il bundan öncə Azərbaycan opera sənətinin, klassik musiqi sənətinin əsasını, təməlini qoyubdur. Onun davamçıları, yaratdığı məktəbin nümayəndələri Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev və digərləri böyük-böyük əsərlər yazıblar. Azərbaycanda yeni bir mədəniyyət, incəsənət, musiqi janrı - opera, klassik musiqi yaranıbdır. Əgər qonşu müsəlman ölkələri ilə müqayisə etsək, Azərbaycan bu barədə həddindən artıq inkişaf etmiş bir ölkədir. Bunları yaradan insanlar da təbiidir ki, çox nadir fitri istedada malik insanlar olmuşlar. Bu sahədə hər adam müvəffəqiyyət qazana bilməz. Ancaq elələri buna müvəffəq olur ki, tale onlara böyük istedad bəxş edir və başqa imkanlar bəxş edir.*

*Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti 1923-cü ildən indiyə qədər böyük yol keçibdir. Bu yol çox şərəfli yoldur.*

*Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir.*

*Atatürk təkcə Anadolu türklərinin deyil, o, bizim hamımızındır.*



HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

## MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR

# MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR

*Hər bir sahədə işləyən adam gərək çalışsın, o sahənin işlərini daha da yaxşı qursun.*

*Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək - bu, çox şərəfli vəzifədir.*

*Prokuror olmaq şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cür-*

*bəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir.*

*Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir.*

*Müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq vətəni qorumaq peşəsi ən şərəfli peşədir.*

*Hakimiyyət orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar – Azərbaycan vətəndaşları insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar.*

*Milli Təhlükəsizlik Nazirliyində işləmək, dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir.*

*Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları xalqımıza, Azərbaycan dövlətinə, ölkəmizə hədsiz sədaqətli olmalıdırlar. Saf mənəviyyata, əxlaqa malik olmalıdırlar.*

*Həkimlik sənəti dövrü-qədimdən şərəfli sənət olmuşdur, hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlər-*





*dən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, o, həkimlik kimi hər bir insana lazım olsun.*

*Həkim, səhiyyə təkcə insanları müalicə etmək üçün yox, həm də xəstəliklərin qarşısını almaq, geniş profilaktik iş aparmaq üçündür.*

*Azərbaycanda güclü səhiyyə kadrları yaranıbdır, həkim ordusu yaranıbdır, tibb elimini inkişaf etdirən alimlərimiz yaranıbdır. Biz bununla fəxr edirik. Bu, bizim milli sərvətimizdir.*

*Hər bir səhiyyə işçisi, hər bir həkim öz sənətinə sadiq olmalıdır, öz şərəfini qorumalıdır. Şərəfdən yüksək heç bir şey yoxdur, Qalan şeylər gəldi-gedərdir. İnsan ləyaqəti, insan şərəfi, insan mənəviyyatı hər şeydən üstündür.*

*Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.*

*1970-ci illərin əvvəllərindən Azərbaycan mülki aviasiyasında milli kadrlar, yəni yüksək təhsilə malik olan mühəndislər, texniklər və başqa mütəxəssislər hazırlanması işini planlaşdırdıq və bunun üçün Sovetlər İttifaqının müxtəlif şəhərlərində yerləşən mülki aviasiya*

*ali məktəblərinə azərbaycanlı gəncləri göndərdik. Bu da Azərbaycanın gələcəyi haqqında düşünməyimizin nümunəsidir. Bəli, biz hesab edirik ki, Azərbaycan öz milliliyini təmin etməlidir. Şübhəsiz ki, Azərbaycan millətindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün vətəndaşların vətənidir. Amma Azərbaycan Azərbaycandır və Azərbaycanda da milli kadrlar azərbaycanlıların özləri, bütün ixtisas sahibləri olmalıdırlar və bütün sahələrdə işləməlidirlər.*

*Həkim öz insani keyfiyyətləri ilə bütün başqa peşə sahiblərindən daha da yüksəkdə durmalıdır.*

*Cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir.*

*Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır.*

*Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilinin inkişaf etməsinin və nəhayət, xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır.*





*Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq. Mən də müəllimə borcluyam, sən də müəllimə borclusan, nazirlər də müəllimə borcludurlar. Müəllimə borclu olmayan adam yoxdur - hamı müəllimə borcludur.*

*Müəllim öyrətməlidir, bilik verməlidir, tərbiyə verməlidir. Müəllim çalışmalıdır ki, uşaq nəinki bilik alsın, həm də cəmiyyətdə bütün əxlaq normalarını, prinsiplərini mənimsəsin və onlara riayət etsin, öz həyatını yüksək əxlaqi dəyərlər əsasında qorusun. Ancaq tələbə, şagird, gənc isə gərək çalışsın ki, müəllimin bu səyləri ona fayda versin. Ona görə də bu gün birinci sinfə gedən uşaq da, onuncu sinfə gedən gənc də bilməlidir ki, bu 10-11 ildə keçən dövr hər bir insanın həyatında ən dəyərli dövrdür. Çünki bu illərdə kim nəyi itiribsə, onu sonra bərpa edə, qazana bilməyəcəkdir.*

*Dünyada ən sağlam adam da həkimə möhtacdır. Ona görə ki, onu həm xəstəlikdən müalicə etsin, həm də sağlamlığının səviyyəsini müəyyənləşdirsin.*

*Tibb mütəxəssislərimiz gərək öz fəaliyyətlərini indi gördükləri işlərlə məhdudlaşdır-*

*masınlar, dünyanın elmi nailiyyətlərinin hamısı ilə yaxşı tanış olsunlar. Belə olduqda, hər bir mütəxəssisin imkanını ölkəmizin imkanları ilə birləşdirərək Azərbaycan səhiyyəsinin səviyyəsini daha da yüksəklərə qaldıra bilərik.*

*Alim olmaq üçün birincisi, gərək fitri istedada malik olasan. İkincisi, gərək fitri istedadından istifadə edib, seçdiyin sənəti sevəsən və həmin elm sahəsini mənimsəmək üçün fədakarlıq göstərəsən. Üçüncüsü, gərək sən daim öz üzərində işləyəsən və bunların nəticəsində də böyük alim, müəllim ola bilərsən.*

*Yer kürəsindəki insanların hərəsi öz fəaliyyətini bir sahədə göstərir, hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır.*

*Həkim yüksək mənəviyyata malik olmalıdır. Təsadüfi deyil ki, heç bir sahədə «Hippokrat andı» kimi and yoxdur. Hansı bir mütəxəssis, mühəndis ali təhsili qurtarandan sonra and içir ki, «Mən yaxşı mühəndis olacağam»? Hansı bir aqronom and içir ki, «Mən yaxşı aqronom olacağam»? Ancaq həkim and içir. And içir ki, «Mən bu şərəfli peşəmə sədaqətlə xidmət edəcəyəm».*





*Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir.*

*Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün həsr edir? Demək, Vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gəncin əsas məqsədi budur.*

*Məşhur bir ifadə var ki, Vətən sərhəddən başlayır. Bu həqiqətdir. Ona görə də sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir.*

*Orta məktəbdə, ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır.*

*Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir, Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir, hər bir Azərbaycan vətəndaşına xidmət edir.*

*İndi Azərbaycan polisi Azərbaycan övladlarının polisidir, milli polisdir. Bununla fəxr etmək lazımdır.*

*Öz xalqına, öz millətinə, öz doğma Vətəninə sədaqət andı içmiş insanın öz andını pozması çox böyük cəza tələb edir. Ona görə də bu gün hər bir polis nəfəri, Daxili İşlər Nazirliyində xidmət edən hər bir şəxs, bizim Silahlı Qüvvələrimizdə olduğu kimi, anlamalıdır, dərk etməlidir ki, əgər bu peşəyə yiyələnib xidmət etmək istəyirsə, buna onun imkanı varsa, bunun üçün qabiliyyəti varsa və müvafiq dövlət orqanları bu şəxsin bu peşədə xidmət etməsini qəbul edirlərsə, o, and içirsə, bu andına daim sadiq qalmalıdır.*

*Polis cinayətkarlıqla mübarizə aparır. Dövlətin hüquqlarını qoruyur. Amma eyni zamanda polis hər bir vətəndaşın hüququnu qoruyur.*

*Müəllimlik sənətindən, yəni insanları təhsilləndirmək sənətindən uca sənət yoxdur.*

*Azərbaycanda artıq on illərlə belə bir adət var – insanlar insanlara müraciət edəndə hörmət əlaməti olaraq «müəllim» deyirlər. Çünki müəllim həqiqətən də böyük hörmətə layiqdir.*





*Hərbi peşə insandan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, Vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik.*

*Azərbaycanın bütün müəllimlərinə tövsiyə edirəm ki, onlar öz vəzifələrini daim şərəflə yerinə yetirsinlər.*

*Bizim həyatımızda müəllimlik ən hörmətli peşədir. Müəllim cəmiyyətimizdə görkəmli yer tutur. Müəllimə hamı hörmət edir və hörmət etməlidir.*

*Hər bir zabiti, - bütün başqa peşə sahiblərindən fərqləndirən o olubdur - o olmalıdır ki, o, mənəviyyatca təmizdir, safdır. Saf mənəviyyatla xalqına, millətinə, dövlətinə xidmət edir və bütün başqa peşə sahiblərinə nümunə göstərir.*

*Hərbi xidmətə gələn, əsgərliyə başlayan, yaxud hərbi məktəbdə təhsil almağa başlayan hər bir kəs verdiyi vədə və içdiyi anda sadiq olmalıdır.*

# AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ HAQQINDA

## AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ HAQQINDA

*Xalqımızın mədəniyyət tarixində Şəki sənətçilərinin həmişə öz dəst-xətti olmuşdur.*

*Təbriz həm İran üçün, həm də Azərbaycan, yəni bizim Azərbaycan üçün çox əziz, qiymətli və müqəddəs bir şəhərdir.*

*Bakı şəhəri XIX əsrin sonlarında – XX əsrin əvvəllərində çox güclü inkişaf etmişdir. Burada o dövrün tələblərinə uyğun olan sənaye müəssisələri, yaşayış evləri, ofislər üçün müxtəlif binalar, ticarət mərkəzləri yaradılmış və bunların hamısı Bakını bir növ Avropa üslubunda olan gözəl bir şəhərə çevirmişdir.*

*Bakı hava limanının aerovağzal kompleksi böyük memarlıq abidəsidir.*

*Müstəqil Azərbaycan yaşayır, müstəqil Azərbaycanın iqtisadiyyatı inkişaf edir, müstəqil Azərbaycanda sürətli inşaat işləri gedir. İnşaat həyatın çox əhəmiyyətli bir sahəsidir. İnşaat ölkəyə, şəhərə yeni-yeni binalar gətirir, iş fəaliyyətinin, yaşayış şəraitinin yaxşılaşmasını təmin edir və öz memarlıq nümunələri ilə şəhəri gözəlləşdirir.*

*Bakı şəhəri öz gözəlliyi ilə həmişə məşhur olmuşdur və biz bununla həmişə fəxr etmişik. Lakin son illərdə, bizdə azad sahibkarlığın, bazar iqtisadiyyatının inkişaf etdiyi, iqtisadi və sosial islahatlar aparıldığı dövrdə şəhər daha yeni görkəm alır.*

*Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur.*

*Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan*





*Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunlar hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir.*

*Naxçıvan Azərbaycanın Dədə Qorqud mərkəzlərindən biridir və «Kitabi-Dədə Qorqud»un çox izlərinin Naxçıvanda olması Naxçıvanın Azərbaycanın nə qədər qədim və zəngin diyarı olduğunu bir daha göstərir.*

*Naxçıvan çox böyük mütəfəkkirlər diyarı, böyük alimlər, sənətkarlar diyarı olubdur. Əgər yaşadığımız əsrin əvvəlini götürsək, böyük Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının fəxrinə çevrilmiş şəxsiyyətlər, onların əsərləri öz həyat yolunu buradan başlamışlar.*

*Naxçıvan təbiətinin gözəlliyi məğrurluq rəmzidir.*

*Yanvarın 19-da Naxçıvan Muxtar Respublikasının Ali Soveti yığışdı, iradə göstərdi və Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bu, təsadüfi hal deyildi. Bu, Naxçıvanda milli ruhun, müstəqilliyə bağlılığın, müstəqillik*

*üçün çalışmağın, azad olmağın rəmzi idi. Bax, bütün bunlar hamısı bir daha, bir daha mənə əsas verir deyəm ki, Naxçıvanın xüsusiyyətlərindən biri də burada milli ruhun, milli şüurun, azərbaycançılığın çox yüksək səviyyədə olmasıdır.*

*Azərbaycanın hər yeri Azərbaycanın rəhbərləri üçün doğma olmalıdır.*

*Naxçıvan əhalisi azadlığa, müstəqilliyə, sərbəstliyə daha da çox can atanlardan olub.*

*Naxçıvanda gedən bu işgüzar quruculuq prosesi məni sevindirir.*

*Azərbaycanda iqtisadi islahatlar həyata keçirmək, həm respublikamızı bazar iqtisadiyyatı yolu ilə aparmaq, həm də ölkəmizdə hüquqi, demokratik dövlət qurmaq üçün Naxçıvan ilk təşəbbüskarlardandır. Fəxr edirəm ki, mən bu təşəbbüslərin iştirakçısı olmuşam.*

*Naxçıvan Muxtar Respublikasının muxtariyyət, dövlətçilik statusu daimidir, əbədidir.*

*Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir.*





*Naxçıvan Azərbaycanın elə bir diyarıdır ki, burada milli ruh, milli şüur çox yüksəkdir.*

*Naxçıvanda millilik, azərbaycançılıq, türkçülük çox dərin köklərə malikdir.*

*Gəncə böyük mədəniyyət mərkəzidir və Azərbaycan mədəniyyətinin qədim tarixini dünyaya nümayiş etdirən bir şəhərdir.*

*Naxçıvan Azərbaycanın ən qədim və ən mötəbər torpağıdır.*

*Borcumuz Naxçıvanı inkişaf etdirməkdir, Naxçıvanı yaşatmaqdır.*

*Azərbaycana təcavüz edənlər haqqında demək istəyirəm, onlar bilməlidirlər ki, onlara heç vaxt bəraət qazandırılmayacaqdır. Onlar hesab etməsinlər ki, bu gün Şuşanın işğalını bayram edirlər və bu da onlar üçün əbədidir. Yox! Çoxəsrlik tarix belə hadisələri artıq kitablarda əks etdiribdir. Bunlar hamısı məlumdur – təcavüzkar həmişə cəzalandırılmalıdır. Təcavüzkar öz cəzasını almalıdır.*

*Möminə Xatın türbəsi 800 ildir ki, bütün dünya səyyahlarını heyran edir. Yusif ibn Küseyr, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr – bunlar hamısı Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim*

*Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir.*

*Azərbaycanın hər bir torpağı, hər bir qarışı millətini sevən, xalqını sevən həqiqi azərbaycanlı üçün eyni dərəcədə əziz olmalıdır.*

*Naxçıvanın torpağı, daşı, havası, səması – hamısı mənim üçün əzizdir.*

*Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsi təkcə naxçıvanlıların işi deyil, təkcə Naxçıvanda yaşayanların, Naxçıvanda yerləşdirdiyimiz hərbi hissələrin işi deyildir. Bu, bizim ümumi işimizdir. Millətimizin, Azərbaycan dövlətinin ən böyük işlərindən biridir.*

*Dövləti nöqteyi-nəzərdən, siyasi nöqteyi-nəzərdən müstəqil bir dövlət kimi Azərbaycan, vahid Azərbaycan dövləti haqqında düşünərkən, Naxçıvanın burada xüsusi yeri var və xüsusi əhəmiyyət kəsb edir.*

*Gəncə Azərbaycanın, Azərbaycan xalqının qədim tarixini əks etdirən gözəl bir məkandır.*

*Uzun əsrlərdir ki, Gəncə Azərbaycan mədəniyyətinin, şeirinin, ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Gəncə Azərbaycanın elm, tərəqqi mərkəzlərindən biri olmuşdur.*





*Gəncədə Azərbaycanın milli mənliyi, Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda böyük qəhrəmanlıq göstərən insanlar yaşamış, yaratmışlar və Azərbaycan xalqını ucaltmışlar.*

*Gəncənin tarixində Azərbaycan xalqının qəhrəmanlığını, müdrikliyini, böyüklüyünü nümayiş etdirən çox böyük və əziz səhifələr var.*

*Gəncəyə xalqımızda böyük hörmət və ehtiram hissi var. Xalqımız Gəncənin tarixi ilə fəxr edir. Ona görə də mən şəxsən hər dəfə Gəncəyə gələndə özümü Azərbaycanın ən doğma, ən gözəl yerində olduğum kimi hiss edirəm, buna çox sevinirəm.*

*Gəncə öz çoxəsrlik tarixində çox böyük qəhrəmanlar, şücaətli, vətənpərvər insanlar, Vətənin yolunda özünü qurban vermiş insanlar yetişdirmişdir. Ona görə bu torpaq – Nizami torpağı müqəddəs torpaqdır. Bu torpağa hamı hörmət və ehtiram etməlidir.*

*Goranboy rayonu Azərbaycanın tanınmış guşələrindən biridir. Məhsuldar torpağı, yaxşı, gözəl təbiəti və qədim zamanlardan çox dəyərli insanları olan bu rayon Azərbaycanın həyatında keçmiş tarixdə də, müasir dövrdə də çox böyük rol oynamışdır.*

*Biz bütün respublikada, hər bir bölgədə olan vəziyyəti qiymətləndirməliyik və hər bir bölgə üçün lazımi tədbirlər görməliyik. Burada Bakı şəhəri xüsusi yer tutur.*

*Gərək hər bir sakin, hər bir insan şəhər haqqında düşünsün, yaşadığı yer, küçə, ev haqqında düşünsün. Amma biz bütün respublika haqqında düşünürük və düşünməliyik.*





# SİYASİ PARTİYALAR, İCTİMAİ BİRLİKLƏR VƏ MÜXALİFƏT HAQQINDA

## SİYASİ PARTİYALAR, İCTİMAİ BİRLİKLƏR VƏ MÜXALİFƏT HAQQINDA

*Yeni Azərbaycan Partiyasını Azərbaycanın ictimai-siyasi həyatında ən güclü, ən səviyyəli, ən mütəfəkkir fikirli, ən tərəqqipərvər bir siyasi təşkilat kimi görürəm və Azərbaycanın gələcəyi də bu partiyanın fəaliyyətindən asılı olacaqdır.*

*Biz demokratiya quraraq, demokratiya yaradaraq, demokratiyanı inkişaf etdirərək müxalifətin varlığını və mövcudluğunu dərk edirik. Onsuz demokratiya ola bilməz.*

*Bütün müxalifət qüvvələri ilə qarşılıqlı anlaşma, lazımı olan danışıqların aparılması üçün bizim iqtidarın qapısı həmişə açıqdır.*

*Yeni Azərbaycan Partiyasının təməli sağlam amallar əsasında qoyulubdur.*

*Yeni Azərbaycan Partiyası vətəndaşlarımıza və dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir bir partiyadır, Azərbaycan xalqının taleyi ilə əlaqədar olan məsuliyyəti öz üzərinə götürüb daşıya bilən bir partiyadır. Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaqdır.*

*Yeni Azərbaycan Partiyasının Azərbaycan xalqı qarşısında böyük xidmətləri vardır. Şübhəsiz ki, Azərbaycanda olan hər bir siyasi partiya respublikamızın ictimai-siyasi həyatında iştirak edir və respublikamızda gedən proseslərə müəyyən təsir edir. Ancaq Azərbaycanın müqəddəratını həll edən məsələlərin hamısı Yeni Azərbaycan Partiyasının üzvlərinin, onun nümayəndələrinin üzərinə düşür.*

*Hər bir şəxsin, hər bir təşkilatın, qurumun, siyasi partiyanın fəaliyyəti onun şüarları, çağırışları, nəzəri fikirləri ilə yox, onun əməli işləri ilə qiymətləndirilir.*





*Azərbaycanda qarşıdurma meyllərinin qarşısı kəsilməlidir, alınmalıdır. Azərbaycanda hər bir şəxs, hər bir partiya milli birlik, vətəndaş həmrəyliyi istiqamətində hərəkət etməli, fəaliyyət göstərməlidir.*

*İndi Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik.*

*Bizim partiya sağlam düşüncə, sağlam fikir – xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədi ilə yarandı.*

*Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır.*

*Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.*

*Yeni Azərbaycan Partiyasının veteranları, bizim alimlərimiz, çox yüksək səviyyəli ziyalılarımız Yeni Azərbaycan Partiyasının qızıl fondudur.*

*Əgər müxalifət olmasaydı, Azərbaycanda demokratiya olmazdı.*

*Yeni Azərbaycan Partiyası üzvlərinin əsas vəzifəsi ondan ibarətdir ki, Azərbaycan iqtidarının, hakimiyyətinin həm daxili, xarici siyasətini, həm gördüyü işləri, həm də onların əməli nəticələrini, fəaliyyətini daim kütlələrə, vətəndaşlara çatdıra, anlada bilsinlər və onu təbliğ edə bilsinlər.*

*Cəmiyyət heç vaxt bir rəngdə ola bilməz. Əgər keçmişdə kimsə bunu bir rəngdə etmək istədisə, onlar hamısı məğlub oldu. Cəmiyyət müxtəlifdir, insanların, vətəndaşların fikir müxtəlifliyi var, bu da təbiidir.*

*İnsanlar demokratiya mədəniyyətini, müxalifət mədəniyyətini, iqtidar mədəniyyətini mənimsəməlidirlər.*

*Bizim əldə etdiyimiz, dövlətin əldə etdiyi nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının çox dəyərli payı var.*

*Azərbaycanda dövlətin qarşısında duran vəzifələr eyni zamanda Yeni Azərbaycan Partiyasının qarşısında duran vəzifələrdir.*

*Müxalifət demokratiyanın təbii bir hissəsidir. Müxalifət olmayan yerdə demokratiya ola bilməz.*





*Bu gün tam cəsarətlə və böyük iftixar hissi ilə demək olar ki, iqtidar partiyası adı daşıyaraq partiyamız (Yeni Azərbaycan Partiyası nəzərdə tutulur — Red.) Azərbaycan xalqına hədsiz xidmətlər göstərmiş və xalqımızı, millətimizi, ölkəmizi o ağır günlərdən çıxarıb bügünkü vəziyyətə gətirib çatdırmışdır.*

*Partiyada gərək elə mühit yaransın ki, yaxşı ilə pis seçilə bilsin. Fəal və passiv partiya üzvləri bir-birindən seçilə bilsin.*

*YAP qəlbən ona bağlı olanların partiyasıdır.*

*Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zəruriyyətdən yaranmış bir partiyadır.*

*Bizim partiyaya (Yeni Azərbaycan Partiyası nəzərdə tutulur — Red.) gələn adamlar ancaq və ancaq öz qəlbinin, öz zehninin hökmü ilə gəlməlidir, öz könlü ilə gəlməlidir. Bilməlidir ki, bu partiya onun bütün arzu və istəklərinə cavab verən partiyadır.*

*Gənclər bizim partiyanın sıralarında xüsusi qayğıya malik olmalıdırlar.*

*Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdır.*





# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA

*Azərbaycan mətbuatı zəngin və şərəfli tarixi boyu həmişə böyük ictimai idealların carçısı olmuş, xalqımızın azadlıq istəyinin, müstəqillik amalının güclənməsində, mənəvi tərəqqisində, yüksək əxlaqi dəyərlərin qorunub saxlanılmasında və daha da inkişaf etdirilməsində müstəsna xidmətlər göstərmişdir.*

*Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu seçmiş Azərbaycan Respublikasında mətbuat, söz və fikir azadlığının qorunmasına, siyasi plüralizmə dönmədən əməl olunur.*

*Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün*

*əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir.*

*Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir.*

*Azərbaycanda təşəkkül tapmış yeni tipli məktəb, demokratik mətbuat və dünyəvi teatr gənclərin milli-siyasi şüurunun inkişafında müstəsna rol oynamışdır.*

*Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan «Əkinci» qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur.*

*Milli demokratik mətbuatın «Əkinçi» qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maariflənmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.*





*«Molla Nəsrəddin» dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi.*

*Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.*

*Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.*

*Deyirlər ki, indi mətbuat dördüncü hakimiyyətdir. Nə olar, qoy hakimiyyət çox olsun. Qoy mətbuat dördüncü hakimiyyət olsun. Biz bunu qəbul edirik. Buna görə də başlıcası odur ki, mətbuat özünün dördüncü hakimiyyət olmaq vəzifəsini bu və ya digər işə bələdliklə yerinə yetirsin. Bundan ötrü ən yaxşı üsul isə jurnalistin özünün tanış olması, özünün görməsi, özünün eşitməsidir.*

*Fikir müxtəlifliyi varsa, söz azadlığı varsa, əgər siyasi plüralizm varsa, hamı bir fikirdə, eyni fikirdə ola bilməz.*

*Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir.*

*Mətbuat cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir.*

*Dövlət mətbuatı yalnız iqtidarı təbliğ etmək, iqtidarın qanunlarını, qərarlarını şərh etmək yolu ilə getməməlidir. O da bizim bütün işlərimizdə olan nöqsanları, qüsurları aşkara çıxarmalıdır, tənqid etməlidir.*

*Biz senzuranı ləğv etdik, Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır.*





*Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq, görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır.*

*Jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun, cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatları ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də gərək biz jurnalistlərə kömək edək.*

*Əgər jurnalistlər cəmiyyətlə daha yaxın olsalar, cəmiyyətdə jurnalistləri sevsələr, onlara hörmət etsələr, onların işlərinin, fəaliyyətlərinin həyata keçirilməsinə yardım etsələr, bunda cəmiyyət də udacaqdır, jurnalistlər də.*

*Bizdə azad mətbuat, o cümlədən, xüsusən müstəqil telekanallar vaxtlı-vaxtında müəyyən məsələləri xatırlatmasa, tənqid etməsə, yenə də deyirəm, səhvlər daha da çox olar.*

*Sərbəst, azad mətbuat və o cümlədən özəl televiziya kanalları demokratik ölkədə geniş*

*yayılmalıdır, inkişaf etməlidir və bizim hamımızın ümummilli mənafelərimizi təmin etmək üçün birlikdə çalışmalıdır.*





# DÜNYA AZƏRBAYCANLILARI HAQQINDA

# DÜNYA AZƏRBAYCANLILARI HAQQINDA

*Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkil edir.*

*Hal-hazırda bütün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan bir dövlət var. Bu dövlət Azərbaycan Respublikasıdır. Onun müstəqilliyini dönməz etmək, dövlətçiliyini qorumaq, ərazi bütövlüyünü, təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını təmin etmək, bütün ölkələrlə bərabər hüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq tək Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının övladlıq*

*borcudur. Bu sahədə ilkin vəzifə işğal olunmuş torpaqlarımızın geri alınması, öz vətənlərində qaçqın və köçkünə çevrilmiş insanların doğma ocaqlarına qaytarılmasıdır.*

*Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli bir tarixi yükdür.*

*XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır. Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməliyik. Vətənini, xalqını sevən hər bir soydaşımız, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənpərvərlik hissləri ilə tarixi torpaq-*





*larımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamalıdır. Vətənimizin, respublikamızın taleyi hər bir azərbaycanlının taleyinə çevrilməlidir.*

*İnanıram ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı əsrlərdən bəri arzusunda olduğumuz və uğrunda mübarizə apardığımız müstəqil və azad Azərbaycan ideyasının, ümummilli məqsədlərimizin tam gerçəkləşməsi üçün daha sarsılmaz həmrəylik nümayiş etdirəcək. Xalqımızın müstəqillik əzmi və iradəsi, sıx birliyi qarşılaşdığımız hər bir çətinliyə qalib gələcəkdir.*

*Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin gerçəkləşməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir.*

*Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır.*

*Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir.*

*Bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqillik və dövlətçilik amalları, doğma respublikamızın qayğıları, problemləri ilə yaşamalı, vətən qarşısında övladlıq borcunu dərk etməlidir.*

*Bütün azərbaycanlılara, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycançılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, dilimizə, mədəniyyətimizə, mədəni irsimizə və dövlət rəmzlərimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir.*

*Dünya azərbaycanlılarının həmrəyliyi XXI əsrin astanasında daha böyük məna və əhəmiyyət kəsb edir.*

*İnanıram ki, gələcəyin güclü, qüdrətli Azərbaycanı dünya azərbaycanlılarının bu günlərimizdə əsası qoyulan və getdikcə mətinləşən həmrəyliyinin möhkəm bünövrəsi üzərində qurulacaqdır.*





*Biz bütün dünyada yaşayan azarbaycanlılarla müstəqil Azərbaycanda yaşayan azərbaycanlıların həmrəyliyini, əlaqələrini çox yüksək qiymətləndiririk. Çünki biz birinci növbədə istəyirik, dünyanın hər bir ölkəsində yaşayan azərbaycanlı hiss etsin ki, bu dünya birliyində onun dövləti vardır. Dövləti olmayan xalqın dünya birliyində yeri yoxdur.*

*Gürcüstanda yaşayan bütün azərbaycanlılara müraciət edirəm, siz öz taleyinizdən arxayın ola bilərsiniz, çünki biz sizin arxanızda durmuşuq.*

*Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir.*

*Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur.*

*Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində*

*yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır.*

*Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.*

*Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını gündən-günə möhkəmləndirir.*

*Müstəqil Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır.*

*Rusiyada yaşayan azərbaycanlılar Rusiyanın layiqli vətəndaşları olmalıdırlar, öz hərəkətləri ilə xalqını gözdən salmamalıdırlar. Bir tərəfdən onların vəzifəsi bundan ibarətdir, digər tərəfdən isə onlar öz Vətəninin, öz torpağının, öz xalqının vətənpərvərləri olmalı, öz dilini, adətlərini unutmamalıdırlar.*





*Dünya Azərbaycanlılarının I qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir.*

*Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin.*

*Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, mill-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir – ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir.*

*İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın.*

*Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır.*

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik.*

*Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.*

*Azərbaycanlı, bizim həmvətənimiz, həmyerlimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir.*

*31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü, hər bir azərbaycanlı üçün əziz olan bu tarixi gün milli şüurumuzun və azadlıq mübarizəsinin güclənməsinin məntiqi nəticəsi olaraq meydana çıxmış, xalqımızın dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirərək, soydaşlarımızı öz tarixi vətəni, milli mənliyi, öz taleyi üçün düşünməyə dəvət edir.*

*Xalqımızın tarixi müqəddəratının təxirəsalınmaz vəzifəsi olan dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin əsasını azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları təşkil edir. Azərbaycançılıq ideyası hər şeydən əvvəl azərbaycanlıların milli mənlik şüurunun, milli-mənəvi dəyərlərinin, dilinin, mədəniyyətinin, əsrlərin sınağından çıxmış adət-ənənələrinin yaşadılmasını, bu ideya əsasında azərbaycanlıların tarixi Vətənlə və öz aralarında birliyinin yaradılmasını nəzərdə tutur.*





*Müstəqil Azərbaycan dövləti dünya azərbaycanlılarının həmrəyliyinin güclü faktoru, onların təşkilatlanması, beynəlxalq aləmdə nüfuzlu bir qüvvə kimi çıxış etməsi üçün etibarlı dayaq nöqtəsidir.*

*Azərbaycan dövləti dünya azərbaycanlılarının insan hüquqlarının, qanuni maraq və mənafelərinin müdafiəçisi kimi çıxış edir. Azərbaycan dövləti xalqımızın tarixən dünya mədəniyyətinə verdiyi zəngin maddi, mənəvi-əxlaqi, intellektual sərvətlərin, Azərbaycan adının etibarlı müdafiəçisi və sahibidir.*

*Dünya azərbaycanlılarının ən mühüm, müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir.*

*Müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi cəmiyyət*

*yaradılması yolu ilə inamla irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının milli müstəqillik və dövlətçilik təfəkkürünün inkişafına, onların həmrəyliyinə təkan verir.*

*Soydaşlarımız Azərbaycan dövlətçiliyi ideyaları ətrafında sıx birləşməli, ümummilli məsələlərdə sarsılmaz həmrəylik nümayiş etdirməli, bu məqsədlə azərbaycanlı icmalarının, mədəniyyət mərkəzlərinin və dostluq cəmiyyətlərinin imkanlarından geniş istifadə olunmalıdır.*

*Dünya azərbaycanlılarının birliyi, həmrəyliyi onların daimi yaşadığı ölkələrdə və bütün dünyada güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha dolğun qorumalarına da əhəmiyyətli təsir göstərəcəkdir.*

*Bu gün müstəqil Azərbaycan Respublikasında dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemi dövlət siyasəti səviyyəsinə qaldırılmış, dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır.*





*Bu gün öz tarixinin məsul və şərəfli oyanış mərhələsini yaşayan dünya azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir tarixi Vətəni təmsil edir.*

*Azərbaycanlılar dünyanın bütün ölkələrində Azərbaycan mədəniyyətinin, dilinin, adət-ənənələrinin, mentalitetinin layiqli daşıyıcıları kimi çıxış etməlidirlər.*

*Harada yaşamasından asılı olmayaraq, sağlam milli adət-ənənələrin, mədəni-mənəvi dəyərlərin qorunub saxlanması, gənc nəslə ötürülməsi dünya azərbaycanlılarının tarixi Vətən qarşısında müqəddəs borcudur.*

*Əsl soyqırımı haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir. Bu məsələdə bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları bir olmalı, eyni mövqedən çıxış etməlidirlər.*

*Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və güclü dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən azərbaycançılıq və Azərbaycan*

*dövlətçiliyi ideyaları məhz müstəqil dövlətimizin yaranması ilə inkişaf etmiş, şüurlarda özünə möhkəm yer tutmuş, soydaşlarımızı birləşdirən milli məfkurəyə çevrilmişdir.*

*Azərbaycan Respublikası indi dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının əsas daşıyıcısıdır, müxtəlif vaxtlarda tarixi Vətənimizdən uzaq düşmüş soydaşlarımızın milli şüurunun güclənməsinin başlıca mənbəyidir.*

*Hazırda bütün azərbaycanlıların vahid amal və ideya ətrafında birləşdirilməsi, soydaşlarımızla əlaqələrin gücləndirilməsi dövlət siyasəti səviyyəsinə qaldırılmış, bütün rəsmi və qeyri-rəsmi strukturların diqqəti bu istiqamətə yönəldilmişdir.*

*Xaricdəki Azərbaycan icmalarının, diasporumuzun potensialı, istifadə olunmamış imkanları xeyli böyükdür və bu sahə əsl vətənpərvər insanlarımız üçün geniş yaradıcılıq və fəaliyyət sahəsidir.*





# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR HAQQINDA

*Qafqaz dünyanın nadir regionudur, öz təbiətinə, çox milliliyinə, adət və ənənələrinə, tarixi köklərinə görə nadir bir regiondur. Bizim xalqlarımız bu qocaman Qafqazda əsrlərlə, min illər boyu bir yerdə yaşamışlar, bir-birini dəstəkləmiş, bir-birinə kömək göstərmişlər. Onda bəs bu gün biz Qafqazı dinc, sabit regiona çevirmək, Qafqazın sülhsevərlik, dini dözümlülük, bütün dünya üçün əmin-amanlıq nümunəsi olması üçün niyə birlikdə irəliləməyək? Mən inanıram ki, biz bunu etməyə qadirik.*

*Biz qafqazlılar mehriban qonşularımızla, dost ölkələrimizlə birlikdə Qafqazı dinc, azad, sabit və çiçəklənən diyara çevirəcəyik.*

*Türkiyə Cümhuriyyəti Avropa ilə Asiyanın, Şərqlə Qərbin sintezindən əmələ gəlmiş və bütün müsəlman Şərq aləmi üçün örnək cümhuriyyət olmuşdur.*

*Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıb, bu gün də dostluğumuzun, əməkdaşlığımızın əsasını təşkil edir.*

*Türkiyə Azərbaycana həmişə dayaq olmuşdur. XX əsrdə 1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti elan olunarkən Türkiyənin Azərbaycana etdiyi yardımlar və o illərdə ölkəmizə qarşı təcavüzün qarşısının alınmasında türk qardaşlarımızın göstərdikləri qəhrəmanlıqlar Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.*

*Cümhuriyyət dövründə keçilən şərəfli tarixi yol böyük türk xalqına insan hüquqlarının, vicdan, din, söz azadlığının bərqərar olduğu demokratik vətəndaş cəmiyyəti, dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə qalxmış*





*dünyəvi və hüquqi dövlət bəxş etmişdir. Türkiyənin bu günü bizi çox sevindirir və böyük iftixar hissi doğurur.*

*Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın ənənəvi dostluğu və qardaşlığının qədim və möhkəm kökləri var. Müştərək mədəniyyətimiz, mənəviyyatımız, qarşılıqlı hörmət və sevgimiz iki qardaş xalq, onları təmsil edən hökumət və dövlət arasında sarsılmaz əlaqələrin əsasını qoymuşdur.*

*Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu dostluğumuz əbədidir, sarsılmazdır.*

*Qafqaz öz təbiətinə, coğrafi quruluşuna görə və Qafqazda qədim zamanlardan məskunlaşmış, min illər boyu yaşamış insanların xüsusiyyətinə, onların xarakterinə görə çox nadir bir bölgədir.*

*Biz qafqazlılar özümüzün qafqazlı olmağımızla fəxr edirik. Bu nə deməkdir? Qafqazın təkcə məğrur dağları, onun gur çayları, gözəl bulaqları, meşələri, gül-çiçəkləri demək deyildir. Qafqazlı olmaqla fəxr etmək Qafqaz xalqlarının tarixi kökləri ilə, Qafqaz xalqla-*

*rının bəşər mədəniyyətinə verdikləri töhfələrlə bağlıdır.*

*Azərbaycan Qafqazda İslam sivilizasiyası araşdırmalarının mərkəzi ola bilər. Azərbaycanın buna haqqı da vardır.*

*Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən birləşdirən bir ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərq və Qərbi, Avropa ilə Asiyanı, xristian aləmi ilə İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir və bundan sonra da müstəqil dövlət kimi yaşayacaqdır.*

*Azərbaycan Qafqazda bütün dinlərin bir-biri ilə mehriban əlaqələrdə yaşadığı bir ölkədir. Biz bununla fəxr edirik.*

*Özbəkistanla Azərbaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir. Biz eyni köklərə mənsubuq və onları, milli xüsusiyyətlərimizi, milli mənşəyimizi indi daha çox qiymətləndiririk. Bu, müstəqil, suveren dövlətlər kimi Özbəkistanın da, Azərbaycanın da yer üzündə möhkəm durması və mövcud olması üçün*





*onların müstəqillik və suverenliyini heç kimin poza bilməməsi üçün zəruridir.*

*Biz Türkiyənin əldə etdiyi nailiyyətləri gənc, müstəqil Azərbaycanın dövlət quruculuğunda örnək qəbul etmişik.*

*Azərbaycan həmişə Türkiyə xalqına, türk torpağına sadiq olubdur.*

*Sülh bizə çox gərəkdir, bizə dinc Qafqaz gərəkdir, bizə sabitlik gərəkdir, biz silahlı münaqişələrə son qoymalı, Qafqaz ölkələri ilə regionumuzu əhatə edən ölkələr arasında ən yaxşı və mehriban münasibətlər yaratmalıyıq.*

*Fransa böyük tarixə, zəngin mədəniyyətə malik olan ölkədir. Fransa bu gün dünyanın qüdrətli və inkişaf etmiş dövlətlərindən biridir və beynəlxalq siyasətdə onun özünəməxsus yeri var.*

*Azərbaycan xalqı Misirin qədim, zəngin mədəniyyətinə, zəngin tarixinə böyük hörmət və ehtiram bəsləyir. Bizim üçün bugünkü Misir-Azərbaycan əlaqələri çox əzizdir.*

*Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır.*

*Müstəqil dövlət olaraq Özbəkistan Mərkəzi Asiyanın, bütün Asiyanın həyatında mühüm rol oynayır, bütün dünya siyasətində fəal iştirak edir. Beynəlxalq təşkilatlarda Özbəkistanın mövqeyi həmişə aydın və dəqiqdir, suverenlik, azadlıq və müstəqillik prinsipinə əsaslanır. Bir çox digər amillərlə yanaşı, bu da bizi çox yaxınlaşdırır və münasibətlərimizi, dostluğumuzu möhkəmləndirir.*

*Azərbaycan sülhsevər dövlətdir. Azərbaycan həm ölkədə, həm bölgədə, həm də dünyada sülh istəyir. Ona görə də biz Qafqazda, dünyada sülh istəyirik. Əminəm ki, biz sülhə, əmin-amanlığa nail olacağıq. Hamımızın arzusu ondan ibarətdir ki, Azərbaycan bundan sonra da sülh, əmin-amanlıq, rahatlıq şəraitində yaşasın.*

*Son ilər Çin xalqı iqtisadi və sosial islahatları həyata keçirərək böyük uğurlara nail olmuşdur.*

*«LUKoyl» şirkətinin Azərbaycanın iqtisadiyyatında iştirak etməsi və ölkəmizlə əməkdaşlığı Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin inkişaf etməsinin gözəl nümunəsidir.*

*Almaniya dünyada və xüsusən Avropada çox qədim tarixə, böyük mədəniyyətə, iqtisadiyyata malik olan bir ölkədir.*





*Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında gözəl əməkdaşlıq və dostluq əlaqələri yaranıbdır.*

*Azərbaycan-Yaponiya əlaqələri xalqlarımızın və ölkələrimizin mənafeləri naminə daim genişlənəcək və inkişaf edəcəkdir.*

*Türkiyənin ələmi, dərdi, kədəri bizim dərdimizdir, bizim kədərimizdir, Türkiyənin sevinci bizim sevincimizdir.*

*Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi, müstəqil dövlət olaraq dünyaya bəyanat verən kimi, sərhədlər açılan kimi Türkiyə və Azərbaycan bir daha bir-birinə qovuşdu və əbədiyyətə qədər qovuşdu.*

*Türkiyə ilə Azərbaycan arasında, bizim xalqlarımız arasında dərin köklərə malik olan, min illik tarixə malik olan dostluq, qardaşlıq əlaqələri vardır. Biz bir kökdənik, biz bir dildə danışır, biz bir millətin şaxələriyik və bizim bu dostluğumuz dərindir.*

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında, Türkiyə xalqı ilə Azərbaycan xalqı arasında dostluq və qardaşlıq əlaqələri tamamilə başqa sifət alınış,*

*başqa səviyyəyə çatmışdır. İndi isə bu dostluq, bu qardaşlıq sarsılmazdır, əbədidir.*

*Azərbaycanda hər bir azərbaycanlı Türkiyəni sevir və Türkiyədə də hər bir türk vətəndaşı, hər bir türk Azərbaycanı sevir. Yəni bu sevgi-məhəbbət, qədim zamanlardan indiyə qədər ayrı-ayrı insanlar arasında, əcdadlarımız arasında olan sevgi-məhəbbət davam edib və nəhayət, bizi bu xoşbəxt, gözəl günlərə gətirib çıxarıbdır.*

*Türk xalqı Mustafa Kamal Atatürkün yaratdığı cümhuriyyəti qorumuş, saxlamış, Atatürk ideyalarına sədaqətini daim nümayiş etdirmişdir. Türkiyə Cümhuriyyəti bu gün dünyanın 65 milyonluq, əzəmətli, qüdrətli və iqtisadi cəhətdən inkişaf etmiş bir ölkəsidir. Türkiyə Cümhuriyyəti Atatürkün vəsiyyətlərini yerinə yetirərək, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurubdur. Beləliklə, dünyada, müsəlman aləmində ilk dünyəvi, demokratik dövlət, hüquqi dövlət quran Türkiyə Cümhuriyyətidir.*

*Sovetlər İttifaqı dağılandan sonra, türkdilli respublikalar öz dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Cümhuriyyətinin türk dünyası qarşısında ən böyük xidmətləri ondan*





*ibarətdir ki, türkdilli dövlətlərin birliyi yarandı. Bu birlik bu gün də davam edir, türkdilli dövlətləri bir-birinə daha da yaxınlaşdırır, əməkdaşlığı daha da inkişaf etdirir, bizim müştərək tarixi köklərimizin birlikdə araşdırılmasına və onların aşkara çıxarılmasına, dünyaya göstərilməsinə çox kömək edir.*

*Polşa Avropanın ən iri ölkələrindən biridir, zəngin tarixi var. Polyak xalqı özünün bütün tarixi ərzində qəhrəmanlıq və mərdlik göstərmiş, çox çətinlikləri, çox məhrumiyyətləri aradan qaldırmış, lakin öz milli ləyaqətini qorumuş, öz mədəniyyətini inkişaf etdirmişdir.*

*Polyak xalqı dünyaya elm və mədəniyyət sahəsində Kopernik, Adam Mitskeviç, Şopen kimi bir çox görkəmli şəxslər vermişdir.*

*Türk xalqı qəhrəman xalqdır, iradəli xalqdır. Türk xalqı böyük tarixi imtahanlardan, sınaqlardan keçmiş xalqdır.*

*Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bütün dünya xalqları içərisində dostluq və qardaşlıq üçün örnəkdir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, bu dostluğu özümüz üçün böyük dayaq kimi qəbul edirik.*

*Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa əbədiyyətə qədər sadiq olacaqdır.*

*Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının böyük tarixi vardır. Ancaq bizim yeni tariximiz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra başlayıbdır.*

*İlk dəfə olaraq Türkiyənin xaricindən, xarici ölkədən - yalnız Azərbaycandan torpaq gətirildi və o torpağı mən şəxsən Mustafa Kamal Atatürkün qəbrinin yanına, böyük Türkiyənin diyarlarından gətirilmiş torpaqlarla bir sırada qoydum. Bu, bizim üçün tarixi bir hadisədir. Çünki ilk dəfədir ki, Türkiyənin xaricindən buraya torpaq gətirilir. Eyni zamanda bu onu göstərir ki, Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, bütün diyarları kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir.*

*Türkiyə-Azərbaycan əlaqələri, dostluğu dünyada heç bir ölkənin əlaqələrinə bənzəmir, yəni beləsi yoxdur. Birincisi, bunlar səmimidir, ikincisi, bizim dərin milli köklərimizin, dilimizin, dinimizin, adət-ənənələrimizin üzərində qurulubdur. Ona görə də bunlar tarixi əhəmiyyətə malikdir.*





*Azərbaycan bu gün də, gələcəkdə də Rusiya ilə səmimi münasibətlərə, yaxşı tərəfdaşlıq münasibətlərinə malik olmalıdır.*

*Azərbaycan heç nəyə baxmadan Rusiya ilə həmişə dost olacaq, bu dostluğu inkişaf etdirəcək, əməkdaşlığı inkişaf etdirəcəkdir.*

*Cənubi Qafqazda sülhün yaranması, əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən Qafqazda sülhün yaranması bütün ətraf dövlətlər üçün lazımdır.*

*Türkiyə Cümhuriyyəti - böyük Atatürkün yaratdığı cümhuriyyət yaşadığı illərdə bütün türkdilli xalqlar üçün örnək olmuşdur, o, Azərbaycan xalqı üçün böyük örnəkdir.*

*Azərbaycan xalqı Türkiyə Cümhuriyyətini, hər bir türkü ürəkdən, qəlbdən sevir, ona öz hörmət və ehtiramını bildirir.*

*Azərbaycan ilə İsrail arasında olan dostluğun dərin kökləri var. Azərbaycanda yəhudilər əsrlər boyu yaşamış, Azərbaycanın bərabər hüquqlu insanları kimi yaşamışlar.*

*Beynəlxalq hüququn prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, tərəfdaşlıq və daha çox inkişaf etmiş dövlətlərin daha az inkişaf etmiş dövlətlərə köməyi,*

*qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, milli fərqlərin də qəbul olunması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır.*

*Biz Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk. Dünyanın bir neçə regionunun dövlətlərinin azad və mükəmməl inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var, bunlar fövqəlmilli əməkdaşlığa təkan verəcək və qlobal şəraitin inkişafına müəyyənedici təsir göstərəcəkdir.*

*Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, Birləşmiş Millətlər Təşkilatı ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli tədbirlər görəcəkdir.*

*Cənubi Qafqaz regionuna siyasi tamlıq və bitərəflik statusu verilməsi Cənubi Qafqaz dövlətlərinin normal qarşılıqlı münasibətlərini qaydaya salmağa və onların dünya iqtisadi sisteminə ahəngdar inteqrasiyasını təmin etməyə imkan verər.*





*Birləşmiş Millətlər Təşkilatının üzərinə dünyanın taleyi üçün çox böyük məsuliyyət düşür, biz ümidlərimizi ona bəsləyirik.*

*Azərbaycan xalqı ilə Türkiyə xalqı arasındakı tarixi köklər, tarixi birlik – dilin, adət-ənənələrin, milli dəyərlərin, dinin birliyi - hamısı birlikdə tarixən bizi həmişə bir yerdə, bir-birimizlə bağlı edibdir.*

*Azərbaycan üçün Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr xüsusi əhəmiyyət daşıyır.*

*Biz böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yoldan, Türkiyə Cümhuriyyətinin bugünkü nailiyyətlərindən istifadə edirik.*

*Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq strateji xarakterə malikdir.*

*Ukrayna olduqca zəngin iqtisadi və intellektual potensiala malik böyük ölkədir. Ukrayna çox mühüm coğrafi-strateji mövqedə yerləşir, müasir beynəlxalq həyatda, dünya siyasətində və Avropa Birliyi strukturlarında əhəmiyyətli rol oynayır. Buna görə də Ukrayna ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın bizim üçün çox böyük əhəmiyyəti var.*

*Türk xalqına qarşı edilən hər bir təcavüz, yaxud hər bir ədalətsizlik, Azərbaycana qarşı edilən ədalətsizlikdir. Azərbaycana qarşı edilən hər bir ədalətsizlik, Türkiyəyə qarşı edilən ədalətsizlikdir.*

*Türkiyə Cümhuriyyəti dünya birliyində öz yerini tutmuşdur və dünyada gedən proseslərə bilavasitə təsir etmək gücünə və imkanına malikdir.*

*Türkiyə Cümhuriyyəti yenilməz bir qaladır. Bu, bizdə iftixar hissi doğurur.*

*Xalqımızın yüksək mənəviyyatdan irəli gələn böyük dözümü, iradəsi və müdrikliyi bütün Qafqazın sülh, əmin-amanlıq bölgəsinə çevrilməsi üçün ən etibarlı təminatdır.*

*Qafqazdakı bütün problemlərin bizim üçün əhəmiyyəti var, o mənada ki, bizə dinc Qafqaz gərəkdir.*

*Bizim üçün ən böyük əhəmiyyəti olan odur ki, rus mədəniyyətinin təsiri altında Azərbaycanda dünyəvi həyat tərzinin xüsusiyyətləri meydana gəlməyə başlamışdır.*

*Cənubi Qafqaz regionuna siyasi bütövlük və bitərəflik statusu verilməlidir. İndi artıq bütün Cənubi Qafqaz regionunun Avropa Şurasına*





*daxil edilməsi çox mühüm amildir və bu, regionda münaqişələrə son qoyulmasına, dövlətlər arasında münasibətlərin normallaşdırılmasına, beləliklə də Cənubi Qafqazda və Avropada təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət etməlidir.*

*Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabər hüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.*

*Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə sadiqdir.*

*TRASECA proqramı, Böyük İpək Yolunun bərpa edilməsi bu gün üçün və XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli nikişafını nə qədər təmin edə bilsək, Cənubi Qafqaz, Orta Asiya, Mərkəzi Asiya ölkələrinin Avropa ilə inteqrasiyası o qədər də surətli olacaqdır.*

*Avropa ilə inteqrasiya bizim strateji yolumuzdur.*

*Biz Türkiyə Cümhuriyyətinə, Türikiyə xalqına hədsiz məhəbbət hissi ilə yaşayırıq. Bu*

*məhəbbət hisslərinin dərin kökləri var. Bu, bizim tarixi keçmişimizdir. Bu, bizim dilimizdir. Bu, bizim milli-mənəvi dəyərlərimizdir. Bu, bizim dinimizdir. On əsası isə Azərbaycanın Türkiyəyə keçmişdə də, bu gün də olan məhəbbəti və sevgisidir.*

*Biz bütün əlaqələrimizdə Türkiyə ilə birlikdəyik. Türkiyə bizim üçün həm dostdur, həm qardaşdır, həm dayaq nöqtəsidir, həm də arxadır.*

*Erməni əhalisi türk və Azərbaycan xalqına qarşı daim millətçilik, şovinizm ruhunda tərbiyə olunmuşdur.*

*Biz Türkiyənin nail olduğu inkişafdan və onun dünya birliyindəki nüfuzundan böyük məmnunluq duyuruq və inanırıq ki, Türkiyə bundan sonra da Atatürk yolu ilə, demokratiya, insan haqlarının qorunması, hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə uğurla irəliləyəcəkdir.*

*Biz hər dəfə Türkiyəyə gələndə böyük məmnunluq hissi duyuruq və türk qardaşlarımızla görüşərkən özümüzü çox bəxtiyar hiss edirik.*





*Türkiyə bizim üçün ikinci vətəndir. Ona görə də Türkiyədə olarkən hər birimiz özümüzü öz vətənimizdə hiss edirik.*

*Mədəniyyət sahəsində İtaliya ilə əməkdaşlıq etmək bütün xalqlar üçün lazımdır. Çünki İtaliya ən qədimdən dünyanın mədəniyyət mərkəzi olubdur.*

*Ölkəmizin Avropa Birliyinə daxil olması Avropanın mənəviyyat, ənənələr cəhətindən zənginləşdirilməsinə gətirib çıxaracaqdır. Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Avropa dəyərlərinin üzərinə bunu əlavə etsək, Avropa dəyərləri daha da zəngin olacaqdır.*

*Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında dostluğu səciyyələndirən çox parlaq səhifələr var.*

*Biz XX əsrdə ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, ümumən iqtisadiyyatın bütün sahələrinin inkişafında Rusiyanın rolunu, rus xalqının rolunu çox yüksək qiymətləndiririk. GUÖAM təşkilatında birləşən ölkələrimiz zamanın sınağından çıxmışlar. GUÖAM yaşayır, mövcuddur və özünü hər hansı beynəlxalq təşkilata qarşı qoymur.*

*Ölkələrimiz, əvvəla, regional prinsiplərə görə, ikincisi, mənafelərin oxşarlığına görə, xüsusən də müstəqilliyi möhkəmlətməyin və daha da inkişaf etdirməyin zəruriliyi ilə, iqtisadi əməkdaşlıq üçün və təbii ki, bu çətin keçid dövründə bir-birini dəstəkləmək üçün daha əlverişli imkanların olması ilə əlaqədar birləşmiş və GUÖAM təşkilatını yaratmışlar.*

*GUÖAM-ın özünü hər hansı təşkilata qarşı qoymaq məqsədi yoxdur, əksinə, hazırda baş verən dünya proseslərinə daha fəal qoşulmağın zəruriliyini öz vəzifəsi hesab edir.*

*Sovet İttifaqının tərkibinə daxil olmuş respublikalar arasında ilk olaraq Rusiyanın, Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamə qəbul etməsinin və bununla da sovet respublikalarının müstəqilliyinə, azadlığına, suverenliyinə doğru yol açmasının bizim üçün xüsusi əhəmiyyəti var.*

*Rusiyada nə baş verirsə, onların hamısı bizim üçün də böyük əhəmiyyətə malikdir. Əgər Rusiyanın demokratik dəyişikliklər, demokratik inkişaf, demokratik hüquqi dövlət, hüquqi cəmiyyət quruculuğu yolunu tutduğunu nəzərə alsaq, onda bunun bizim üçün nə kimi əhəmiyyəti olduğunu müəyyənləşdirmək mümkündür.*





*Azərbaycan xalqı həmişə Rusiya ilə Azərbaycan arasında dostluq, qarşılıqlı fəaliyyət, qarşılıqlı faydalı əməkdaşlıq mövqeyində durmuşdur.*

*İndi biz iftixar hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan Amerika Birləşmiş Ştatları ilə strateji əməkdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışdır.*

*Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk və müstəqil dövlətimizi quraraq, yaradaraq, inkişaf etdirərək bütün sahələrdə – dövlət quruculuğunda, demokratiyanın inkişaf etdirilməsində, bütün azadlıqların təmin olunmasında, bazar iqtisadiyyatı yolunda islahatların keçirilməsində Amerikanın təcrübəsindən daim bəhrələnirik.*

*Qafqazda sülh, əmin-amanlıq olsa, Azərbaycan bir müstəqil dövlət kimi Amerikanın 225 ildə keçdiyi yolu bəlkə də ondan tez keçə bilər.*

*Biz ümid edirik ki, sülh əldə olunacaqdır. Biz beynəlxalq birliyə, beynəlxalq təşkilatlara, beynəlxalq hüquq normalarına arxalanırıq və dünyanın aparıcı dövlətlərinin dövlətlərarası hüquq normalarının təmin olunması üçün səylər göstərməsinə arxalanırıq.*

*Yaponiya ilə Azərbaycan arasında yaranmış dostluq, tərəfdaşlıq, işgüzar əlaqələr bizim üçün çox əhəmiyyətlidir.*

*ATƏT-in əsas prinsipləri hər bir dövlətin ərazi bütövlüyüdür və hər bir dövlətin sərhədlərinin toxunulmazlığıdır, hər bir dövlət tərəfindən beynəlxalq hüquq normalarına riayət edilməsidir. Ancaq Azərbaycanla bu münaqişəni başladıqdan sonra Ermənistan ATƏT-in bu prinsiplərini tamamilə pozubdur. ATƏT də buna biganədir. Belə olan halda, ATƏT ya gərək öz prinsiplərindən imtina etsin, ya da öz prinsiplərinin həyata keçirilməsini təmin etsin.*

*Biz hesab edirik ki, ATƏT-in prinsipləri dəyişilməz, pozulmaz olmalıdır. ATƏT-in prinsiplərini pozan Ermənistan cəzasız qalır. Hər iki ölkəyə eyni münasibət göstərilir. Baxmayaraq ki, bir ölkə təcavüzkardır, o birisi isə təcavüzə məruz qalmışdır. Əgər təcavüzkara lazımi cavab verilməsə, onun qarşısı alınmasa, yaxud təcavüzkar cəzalanmasa, təcavüzkarlar başqa yerlərdə də belə hərəkət edəcəklər.*

*Biz haqq-ədalət istəyirik. Biz dünya birliyindən haqq-ədalət umuruq. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərindən və ümumiyyətlə, ATƏT-dən ədalət istəyirik.*





*Fransa dünya siyasətinə böyük təsir göstərən ölkələrdən, dövlətlərdən biridir. Fransa bütün beynəlxalq təşkilatlarda özünə məxsus siyasət həyata keçirir və beləliklə də heç bir başqa dövlətdən asılı olmayaraq, müstəqil siyasət apardığını daim dünyaya nümayiş etdirir. Ona görə də müstəqil dövlət kimi Azərbaycan Fransa ilə əlaqələrini çox əhəmiyyətli hesab edir və bu əlaqələrin daim inkişaf etməsinə öz səylərini göstərir.*

*Bizə Türkiyə qədər, Türkiyə səviyyəsində dost olan heç bir ölkə yoxdur.*

*Almaniya Azərbaycan üçün çox əhəmiyyətli bir tərəfdaşdır.*

*Türkiyə ilə Azərbaycan xalqlarının əlaqələrinin çoxəsrlik tarixi vardır. Biz bir kökdənik. Bizim adət-ənənələrimiz, milli-mənəvi dəyərlərimiz eynidir, yaxud bir-birinə çox bənzərdir. Biz bir dildə danışırıq. Bir dinə məxsusuq və eyni mənəvi dəyərlərdən istifadə etmişik və edirik. Əcdadlarımız, bizdən öncə yaşamış nəsillər bu dostluğu, qardaşlığı daim inkişaf etdiriblər. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr artıq xalqlar arasındakı əlaqələrlə bərabər, dövlətlər arasında əlaqələr səviyyəsinə çatmışdır.*

*Pakistan, Pakistan xalqı bizim üçün dost və qardaş ölkə, xalqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi Pakistan ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdəndir.*

*İranın qonşularından, yəni sərhədyanı qonşularından tarixi nöqteyi-nəzərdən, dil, din, mənəvi dəyərlər nöqteyi-nəzərindən ona Azərbaycan kimi yaxın ölkə, Azərbaycan xalqı kimi yaxın xalq yoxdur.*

*İran-Azərbaycan əlaqələri bizim üçün çox əhəmiyyətlidir, əzizdir. Bu əlaqələrin daim inkişaf etməsi bizim xarici siyasətimizin əsas sahələrindən biridir.*

*Biz bu mövqeyin üzərində qəti dururuq ki, Xəzər dənizi sülh, qardaşlıq, birgə əməkdaşlıq dənizi olmalıdır.*

*Rusiya bizim üçün dost ölkədir, qonşumuzdur, indi biz müstəqil olsaq da, təxminən 200 il onun tərkibində birlikdə yaşamışıq. Odur ki, mən Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı bütün tədbirləri dəstəkləmişəm və dəstəkləyirəm.*

*Gürcüstanda sabitlik bizim Azərbaycan üçün çox vacib amildir.*

*Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq münasibətləri və*





*sıx əməkdaşlıq uğurla inkişaf edir və böyük gələcəyə malikdir.*

*Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik məsələsi - bizim üçün də, Rusiya üçün də, bütün Avropa üçün də son dərəcədə əhəmiyyətlidir.*

*Rusiya ilə münasibətlərin bizim üçün xüsusi əhəmiyyəti var. Rusiya bizim şimal qonşumuzdur. Rusiya böyük ölkədir. Rusiya nəhəng iqtisadi potensiala və böyük beynəlxalq nüfuza malik ölkədir.*

*Əgər biz Xəzər hövzəsi və Mərkəzi Asiya regionunu qlobal iqtisadiyyatda güclü bir qüvvə kimi görmək istəyiriksə, bu regiona daxil olan ölkələr öz qədim mədəniyyətləri ilə dünya mədəniyyətinə lazımi töhfələr versinlər, onlarla dialoq yolu ilə danışmalıyıq.*

*Roma papasının Azərbaycana ziyarəti tarixi hadisədir. Onun Azərbaycanda olması, bizimlə aparılan danışıqlar və ictimaiyyətin nümayəndələri ilə, xalq kütlələri ilə görüşü bizim xalqımızın Roma papasına, ümumiyyətlə, sülhə, dostluğa münasibətini nümayiş etdirmişdir.*

*Biz Rusiyanın uğurlarına həmişə sevinmiş və uğursuzluqlarından kədərlənmişik.*

*Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsinin də ucaldılması rusiyalıların Azərbaycan xalqına olan dərin ehtiramının əlamətidir, xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə yönəldilmiş bir aktdır.*

*Qars xüsusi, tarixi bir şəhərdir.*

*Qars qaladır, yenilməz qaladır. Hamı Qarsı belə tanıyır.*

*Qars bizim üçün, azərbaycanlılar üçün tarixən çox məşhur və çox doğma, çox əziz bir diyar olubdur.*

*Türk dünyasının tarixi o qədər qədim, o qədər zəngindir ki, əsrlər keçdikcə türk kökündən bir çox xalqlar yaranmışdır. Osmanlı türkləri, Orta Asiyada yaşayan özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, tatarlar, azərbaycanlılar və digərləri. Bizim hamımızın bir kökümüz, bir dilimiz, bir dinimiz var. Çox qədim, müştərək adət-ənənələrimiz, mənəvi dəyərlərimiz var.*

*Biz - Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətik.*

*TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi,*





*Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məhtumqulu, Abay irsi kimi nadir incilər vermiş türkdilli xalqların mədəni inteqrasiyası, bu qədim zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər aparmışdır.*

*Əsrlər boyu, tarixin bütün zamanlarında Gürcüstan ilə Azərbaycan arasında heç bir nifaq, münaqişə olmamış və bir-birimizlə dostluq, mehribanlıq, qonşuluq şəraitində yaşamışıq.*

*Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir.*

*Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı ancaq iqtisadi əlaqələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, bəli, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir, bayramımız birdir — hamısı birdir.*

*Türkiyə qüdrətli bir dövlətdir, dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir.*

*Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır.*

*Biz həmişə Turkiyə ilə fəxr etmişik.*

*Xalqımız həmişə Türkiyəyə məhəbbət hissi ilə yaşamış və onunla qovuşma arzusunda, həsrətində olmuşdur.*

*Əgər beynəlxalq hüquq prinsipləri bizim inandığımız və böyük ümidlər bəslədiyimiz, öz prinsiplərinin dəyişməz olduğunu bəyan edən, praktikada isə bizə hansısa başqa bir yol axtarmağı məsləhət görən* ***Birləşmiş*** *Millətlər Təşkilatı, ATƏT və digər beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmişsə, onda ikili standart əmələ gəlir. Zənnimcə, müşahidə etməyə başladığımız ən təhlükəli meyl məhz bundan ibarətdir. Əgər bu meyl dayandırılmazsa, onda, ümumiyyətlə, beynəlxalq hüququn mövcudluğuna son qoyular və o, ayrı-ayrı güclü və ya hər hansı söhbətlər üzündən müəyyən üstünlüyə yiyələnmiş ölkələrin ixtiyarında olacaqdır. Ancaq biz bununla razılaşa bilmərik.*





*Türkiyə ilə Azərbaycan arasında həll edilə bilməyəcək problem yoxdur, olmayıbdır.*

*Türkiyə Cümhuriyyəti dünyanın böyük ölkələrindən biridir. Türkiyə Cümhuriyyəti inkişaf etmiş bir dövlətdir, demokratik ölkədir, bazar iqtisadiyyatı yolu ilə gedən ölkədir. Uzun illər NATO-nun tərkibində olan bir ölkədir. Belə bir ölkənin hökuməti təbiidir ki, gərək dinamik olmağa qadir olsun.*

*Beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə ilə Azərbaycan bir yerdədir və bir yerdə də olacağıq. Erməni lobbisinə qarşı bir yerdə mübarizə aparmışıq, bir yerdə də aparacağıq.*

*Türkiyə bizimlə bərabərdir.*

*Türkiyənin iqtisadiyyatı nə qədər çox inkişaf etsə, bunun Azərbaycana da bir o qədər müsbət təsiri olacaqdır.*

*Dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir.*

*İran ilə Azərbaycan arasındakı münasibətlər çox böyük, qədim və olduqca zəngin tarixə malikdir. Eyni zamanda xalqlarımızın müş-*

*tərək adət-ənənələri, mədəniyyəti, dini mənsubiyyəti və bir çox başqa amillər həmişə bizi bir yerdə etmiş, dost etmişdir və bu dostluq münasibətləri bu gün də davam edir. Bizim bugünkü münasibətlərimizin keçmişdən keyfiyyətcə böyük fərqi ondan ibarətdir ki, bu, İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərdən ibarətdir.*

*Biz heç bir ölkənin işinə qarışmaq istəmirik. Qarışmaq da istəmirik ona görə ki, biz dünyanın ədalətli qanunlarına riayət edirik, bir də bizim o qədər öz işlərimiz var ki, nə üçün başqa ölkənin daxili işinə qarışmalıyıq? Allah imkan versin ki, biz öz işlərimizi həll edək, öz xalqımızın problemlərini həll edək. Amma eyni zamanda hesab edirik ki, Azərbaycanın da daxili işlərinə heç kəs qarışmamalıdır. Yəni ölkələrin bir-birinin daxili işlərinə qarışmaması çox vacib məsələdir.*





# TARİX VƏ TARİXİ HADİSƏLƏR HAQQINDA

TARİX VƏ TARİXİ HADİSƏLƏR HAQQINDA



*Azərbaycan xalqının həyatının bütün mərhələlərində əldə etdiyi nailiyyətləri də, itkiləri də bizim tariximiz əks etdirir.*

*Bakı-Ceyhan boru kəməri tarixi bir hadisədir. O, XXI əsrin sonunadək yaşayacaq, Türkiyə və Azərbaycan üçün çox böyük faydalar gətirəcəkdir.*

*Naxçıvanın qədim və son əsrlərdəki tarixi daha da geniş təhlil olunmalıdır, yazılmalıdır. Azərbaycana torpaq iddiası ilə yaşayanlara qətiyyətli cavab verilməlidir.*

*Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan yerləşən həmin tor-*

*paqların Azərbaycana məxsus olmasını daim ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün bir yol açmalıyıq.*

*Tarix böyükdür. Bir əsrdə olan hadisələr sonrakı əsrdə dəyişə bilir. Biz sadəcə, bu həqiqətləri əsərlərdə əks etdirməliyik. Ancaq nə vaxt, nə mümkün olacaq -bunu tarix göstərəcəkdir. Bizim indi ilkin vəzifəmiz Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi zaman beynəlxalq təşkilatların qəbul etdiyi sərhədlər içərisində Azərbaycan torpaqlarını qoruyub saxlamaqdan ibarətdir. Biz məhz bu tarixi torpaqlarımızın bizə mənsub olmasını daim sübut etməliyik. Bu, bizim geniş miqyasda işimizdir.*

*Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt Azərbaycanın milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm.*

*Biz keçmişdə nə qədər iş görmüşüksə, indimüstəqil dövlət olduqdan sonra gördüyümüz işlər onların hamısından üstündür. Çünki biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi əks etdiririk və əks etdirəcəyik.*





*Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik. Və fəxr etməyə haqqımız vardır. Çünki «Kitabi-Dədə Qorqud» dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər.*

*1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması bir də ona görə tarixi hadisədir ki, bu, müsəlman aləmində, türk dünyasında ilk yaşayan cümhuriyyətdir. Yenə də deyirəm, yaranması da çox əhəmiyyətlidir.*

*Azərbaycanın XX əsrin ərzində ikinci dəfə istiqlaliyyət alması, ancaq birincidən fərqli olaraq, bu dəfə istiqlaliyyəti qoruyub saxlaması Azərbaycan xalqı üçün tarixi bir hadisədir.*

*Tarix boyu bəşər sivilizasiyasında misilsiz rol oynamış yenilməz türk əzmini qırmaq, türk ruhunu sarsıtmaq heç kimə müyəssər olmamışdır.*

*Fransa inqilabı – Bastiliyanın alınması təkcə Fransa üçün yox, bütün bəşəriyyət üçün bir dönüş nöqtəsi oldu. Fransa inqilabının irəli sürdüyü prinsiplər – demokratiya, insan haqları, qanunun aliliyi prinsipləri o vaxtdan başlayaraq dünyanın bir çox ölkələrində özünə*

*yer tapdı və beləliklə, demokratiyanın inkişafı başlandı.*

*Alman faşizminə qarşı mübarizədə Azərbaycandan 130 gənc Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onlardan iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun, qvardiya polkovniki Adil Quliyevin, qvardiya serjantı Gəray Əsədovun, məşhur partizan Mehdi Hüseynzadənin, sonralar «iki cəbhənin qəhrəmanı» adı ilə tanınmış akademik Ziya Bünyadovun və başqalarının döyüş rəşadəti bugünkü gənclərimiz üçün əsl qəhrəmanlıq nümunəsidir.*

*Hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Demək, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır.*

*İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbə çalınmasında Azərbaycan neftinin misilsiz rolu olmuşdur.*

*«Əsrin müqaviləsi» də məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş bir tarixi hadisədir.*





*Azərbaycanın mülki aviasiyasının fəaliyyəti, inkişafı, səmərəli fəaliyyət göstərməsi üçün ona şərait yaradılması əsas şərtlərdən biridir. Biz bu şərtləri nəzərə alaraq Bakı Aerovağzal Kompleksinin qısa müddətdə tikilib başa çatdırılmasına nail olduq.*

*1981-ci ildə Bakıda beynəlxalq aerovağzal kompleksinin tikilməsi haqqında qərar qəbul edərkən biz Azərbaycanın bu gününü, gələcək müstəqilliyini, azadlığını düşünürdük.*

*«Berlin divarı»nın dağıdılması, ondan bir il sonra isə Almaniyanın birləşməsi Avropada, bütün dünyada tarixi hadisə oldu. O vaxtlar bu hadisələrin dünya siyasətinə, Avropaya və o cümlədən Şərqi Avropaya, keçmiş Sovetlər İttifaqına nə qədər böyük təsir göstərəcəyini bəlkə də o qədər dərk edə bilmirdilər. Ancaq bu iki böyük hadisə – «Berlin divarı»nın dağılması, Almaniyanın birləşməsi Sovetlər İttifaqı kimi böyük bir imperiyanın qısa bir müddətdə dağılmasına da səbəb oldu.*

*Bu gün keçmişə, tarixə nəzər salarkən, demək olar ki, «Berlin divarı»nın dağılmasına, Almaniyanın birləşməsinə almanlar, avropalılar nə qədər seviniblərsə, o qədər də azərbaycanlılar sevinirlər. Bu hadisələr baş verəndə bəlkə də bunun əhəmiyyəti bir o qədər*

*də dərk olunmurdu. Amma zaman keçdikcə bunun nə qədər böyük əhəmiyyəti olduğunu Azərbaycan xalqı dərk edir və sevinir.*

*Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikamızın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar.*

*Naxçıvan qədim diyardır. Arxeoloji tapıntıların təhlilinə görə demək olar ki, Azərbaycanın ən qədim diyarlarından biri Naxçıvandır. Bu, üç min il, dörd min il tarixi olan bir diyardır. Naxçıvanın böyük və zəngin tarixi keçmişi vardır. Naxçıvan dəfələrlə dağıdılıb, amma insanlar yenidən qalxıb, qurub, yaradıblar.*

*Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir. XII əsrdə Naxçıvan Azərbaycanın Atabəylər – Eldəgəzlər dövlətinin, o əsrdə Azərbaycanın ən böyük, ən qüdrətli dövlətinin paytaxtı olubdur. Atabəylər dövləti 100 ildən artıq hökm sürmüş və onun paytaxtı azərbaycançılığı qoruyub saxlamışdır.*





*Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha da dərk etməyin, daha da yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır.*

*Azərbaycanın xanlıqlara bölünən dövründə – hər bir xanlıq Azərbaycan dövlətçiliyinin nümunəsidir, biz bu xanlıqları tarixi nöqteyi-nəzərdən belə qəbul edirik – Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. İrəvan xanlığı, Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları – bu xanlıqlar Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar.*

*Naxçıvan mütəfəkkirlərlə zəngin olmuşdur. Orta əsrlərdə Azərbaycanın memarlıq sənətinin ən yüksək nümunəsi Əcəmi Naxçıvaninin yaradıcılığı olmuşdursa, XII əsrdə bizim mədəniyyətimizdə, ədəbiyyatımızda ən qiymətli əsərlərin müəllifi, xalqımızın ən qiymətli milli dəyəri Nizami Gəncəvi və onun yaradıcılığı olmuşdur. Həmin dövrdə Azərbaycanın ən yüksək, ən qiymətli memarlıq əsərlərini Naxçıvanda Əcəmi Naxçıvani yaratmışdır.*

*Naxçıvan mühiti hətta Sovet hakimiyyəti qurulandan sonra da – 20-ci, 30-cu illərdə də davam edirdi. Çox milli hissiyyatlarla dolu olan bir mühit idi.*

*90-cı il noyabrın 17-də biz burada, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik elədiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Yəni bunu biz küçə və meydanda qaldırmadıq, orada bu bayraq qaldırıldı. Amma biz bir dövlət kimi Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından «Sovet Sosialist» sözləri çıxarılmalıdır. Çıxartdıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq.*

*Naxçıvan Muxtar Respublikası Azərbaycanın yeganə bölgəsidir SSRİ-nin saxlanılması ilə əlaqədar 17 mart 1991-ci ildə keçirilən referendumda iştirak etmədi.*





*1921-ci ildə Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı, Rusiya imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinn altında bizim hörmətli paşamız Kazım Qarabəkir paşanın imzası var.*

*Möminə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da böyük memarlıq məktəbi olduğunu göstərir.*

*Naxçıvanın muxtariyyət statusu alması da çox ağır, gərgin bir dövrdə, yəni gərgin mübarizələr nəticəsində olmuşdur. Bu mübarizələrdə Türkiyə Cümhuriyyətinin və böyük Mustafa Kamal Atatürkün də böyük rolu olmuşdur. Xüsusən 1921-ci ildə Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan və Gürcüstan tərəfindən imzalanmış Qars müqaviləsi Naxçıvanın statusunun müəyyən edilməsinə çox böyük yardım göstərmişdir.*

*XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, in-*

*sanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əmrdir.*

*Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.*

*Tarixdə həm nailiyyətləri, həm də faciələri unutmaq olmaz.*

*Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır.*

*Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlamış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur.*

*Xristianlığın ölkəmizdə qədim tarixi vardır. Qafqazda xristianlığın ilk məbədləri məhz Azərbaycan torpağında yaradılmışdır. Əsrlər boyu Azərbaycanda islam, yəhudi və xristian*





*dinləri yanaşı mövcud olaraq insanlar arasında sülh və əmin-amanlıq, mehriban dostluq və qardaşlıq münasibətlərinin yaranmasında əvəzsiz rol oynamışdır.*

*Biz gərək tariximizi heç vaxt unutmayaq və tariximizi təhrif etməyək. Tarix tarixdir və o, olduğu kimi yazılmalıdır, nəsildən-nəslə verilməlidir.*

*Biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açmışıq, xalqımıza göstərmişik. Beləliklə də xalqımız öz tarixini, keçmişini daha dəqiq bilərək daha da məğrur insan, azərbaycanlı, vətəndaş olur.*

*Xalqımızın çoxəsrlik zəngin, şərəfli qəhrəmanlıqlar və yüksək yaradıcılıq nümunələri ilə dolu, eyni zamanda mürəkkəb və keşməkeşli bir tarixi vardır. Bu tarixdə sevinc və kədər, qələbə və məğlubiyyətlər əkiz yaşamış, daim bir-birini əvəz etmişdir.*

*Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımızın taleyüklü tarixi problemlərinin həllində keçilməz maneələr yarada bilər. Bunların dərslərini mənimsəmək, nəticələrini aradan qaldırmaq, indiki və gələcək nəsilləri xalqımıza qarşı fəaliyyət göstərən düşmən qüvvələrə və planlara qarşı ayıq sayıqlıq ruhunda düzgün tərbiyə etmək bizim vəzifəmizdir.*

*İkinci Dünya müharibəsində Azərbaycan övladlarının böyük bir hissəsi misilsiz qəhrəmanlıqlar göstərmiş və ən yüksək mükafatlara layiq olmuş, Sovet İttifaqı qəhrəmanı kimi yüksək ad almışlar. Həmin illər azərbaycanlı zabitlər öz şücaətlərinə, qəhrəmanlıqlarına görə rütbəcə də ucalmışlar, yüksək zabit rütbələri almışlar, general rütbəsinə çatmışlar. General Həzi Aslanov, general Əbilov, general Akim Abbasov və digər generallar... Azərbaycan oğlunun nəyə qadir olduğunu göstərmişlər.*

*XX əsr bəşəriyyətin yaddaşında mənəvi-intellektual tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və onlarca yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginlik və sülh, sabitlik naminə göstərilən kollektiv səylərlə qalacaqdır.*

*İki sistemin qarşıdurmasının tarixə qovuşması, demokratiya və sərbəst bazar ideyalarının üstünlük qazanıb yayılması elə bir dünyanın qurulmasına kömək etməlidir ki, orada bütün dövlətlərin mənafeləri nəzərə alınacaq və həqiqətən bərabər hüquqlu tərəfdaşlıq sahmana salınacaqdır.*





*Azərbaycan xalqı XX əsrdə böyük təhsillənmə yolu keçibdir. Azərbaycanda təhsilin XX əsrin əvvəllərindən inkişafı, yeni-yeni məktəblərin açılması, ali təhsil ocağının, - Bakı Dövlət Universiteti 1919-cu ildə yaranmışdır, - ondan sonra onlarca digər ali təhsil müəssisələrinin və bunların davamı olaraq Azərbaycanda böyük elmi-tədqiqat müəssisələri şəbəkəsinin yaranması - bunlar hamısı xalqımızın tarixi nailiyyətidir.*

*Gəncə 1918-ci ildə xalq cümhuriyyəti yarandığı ilk aylarda, müstəqilliyini ilk dəfə bu əsrdə elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin qərargahı olubdur.*

*Böyük İpək Yolu tarixdə böyük izlər qoymuşdur. Bu, təkcə iqtisadiyyatın inkişafı üçün, dövlətlər arasında mal dövriyyəsinin təmin olunması üçün yox, eyni zamanda sivilizasiyaların bir-birinə yaxınlaşması, yəni Şərq sivilizasiyası ilə Qərb sivilizasiyasının bir-birinə yaxınlaşması üçündür.*

*Üzeyir Hacıbəyovun başçılıq etdiyi «Azərbaycan» qəzeti çox böyük bir qəzet olubdur. O da bizim tariximizin parlaq bir səhifəsidir.*

*Tarixi təhrif etmək olmaz. Tarixdə hər şeyin öz yeri vardır.*

*Tarixi heç vaxt unutmaq olmaz. Hər bugünkü gün bizim keçən günlərimizin, illərimizin davamıdır.*

*XX əsrdə türk xalqı üçün ən böyük hadisə 1923-cü ildə böyük Mustafa Kamal Atatürkün iradəsi, siyasi müdrikliyi, qəhrəmanlığı ilə yaranan Türkiyə Cümhuriyyəti olmuşdur.*

*1994-cü ildə imzalanmış və «Əsrin müqaviləsi» adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur.*

*Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.*

*Azərbaycan insanlığın, bəşəriyyətin beşiyi olan unikal ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübüt edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və*





*Xocalı mədəniyyətinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.*

*Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq özünə məxsus zəngin mədəni-mənəvi irs yaratmışlar.*

*2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.*

*XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır.*

*1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan qızlar məktəbi Azərbaycan qadınlarının maariflənməsində müstəsna rol oynamışdır.*

*Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay*

*fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.*

*1937-ci ildə Üzeyir Hacıbəyovun «Koroğlu» operası Azərbaycan mədəniyyətində böyük bir hadisəyə çevrildi.*

*Biz fəxr edirik ki, dünyanın taleyüklü probleminin həll olunmasında – faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur.*

*Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir.*





*Mübaliğəsiz demək olar ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında Bakı nefti həlledici faktorlardan biri olmuşdur.*

*İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır.*

*1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.*

*Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.*

*XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azər-*

*baycan xalqı qarşısında cavab verməli olacaqlar.*

*Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.*

*Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyn etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir.*

*Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.*

*1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunu gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik.*

*Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin,*





*müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyb saxlayacaqdır.*

*Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!*

*XX əsr Azərbaycan xalqının da həyatında silinməz izlər qoymuşdur. Əslində minilliklərin yekununda, əlbəttə ki, yeni bir Azərbaycan təşəkkül tapmışdır.*

*Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil və nəhayət, ictimai-siyasi intibah yolunu tutmuşdur.*

*Ötüb keçən yüzillikdə Azərbaycan xalqı sözün həm hərfi, həm də məcazi mənasında işığa, nurlu bir aləmə çıxmışdır.*

*Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur.*

*İftixarla demək olar ki, Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır.*

*Dünyada heç bir çətinlik əbədi deyil. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır.*

*Mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır.*

*Avropa ilə sıx və məqsədyönlü təmasın nəticəsidir ki, XIX əsrin ortalarından başlayaraq müsəlman Şərqində ilk qəzeti, ilk Avropa tipli məktəbləri, ilk teatrı, ilk yenilikçi ədəbiyyatı və ictimai fikri, nəhayət, demokratik respublika tipli ilk dünyəvi dövləti 1918-ci ildə Azərbaycan xalqı yaratmışdır.*

*Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir.*

*Azərbaycanlılara qarşı müntəzəm olaraq yeridilən bədnam soyqırımı siyasətinin yüzillərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.*





*Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir.*

*Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar omasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.*

*Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.*

*Azərbaycan həm cəbhədəki döyüşçülərinin qəhrəmanlığı ilə, həm də arxa cəbhədəki insanların fədakarlığı ilə qələbəyə böyük töhfə vermişdir.*

*Biz 1969-1970-ci illərdə Kür çayından, 135 kilometr məsafədən Bakıya çox böyük sürətlə böyük bir su kəməri çəkdik. Bununla da biz Bakının su təchizatını xeyli artırdıq. Bakıya çəkilən ikinci kəmər Kür çayından çəkilən həmin su kəməridir.*

*Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq, dünya sivilizasiyasına böyük töhfələr vermişlər.*

*Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında tarixi bir hadisədir.*

*Dünyada sənaye üsulu ilə neft ilk dəfə məhz Azərbaycanda, Bakıda hasil olunubdur.*

*Mən cəsarətlə deyə bilərəm ki, ötən dövrdə Azərbaycanın nefti dünyada sənayenin inkişafına, müxtəlif ölkələrdə neft sanayesinin yaranmasına və inkişafına öz təsirini göstəribdir.*

*Neft geologiyasının başlanğıcı Azərbaycanda olduğuna görə Azərbaycan bu gün də böyük iftixar hissi keçirir.*

*1949-cu ildə Azərbaycan geoloqları, neftçiləri əfsanəvi Neft Daşlarında neft buruqları qurub*





*ilk dəfə suyun dərinliyindən, dənizin dibindən neft çıxarmağa başlayıblar.*

*1994-cü ilin 20 sentyabrı Azərbaycan tarixində ən parlaq səhifələrdən biridir. O, bizim nəzəri olaraq hazırlanmış neft strategiyamızın əməli surətdə həyata keçirilməsinin əsasını, başlanğıcını qoydu. Biz səhv etmədik. Biz düz yolda olduq və o vaxtdan da düz yol ilə gedirik.*

*Bu günü qiymətləndirmək üçün keçmişi unutmamaq lazımdır.*

*XVI əsr Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq, rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi.*

*1926-cı ildə Bakıda birinci beynəlxalq türkoloji qurultay çağrıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 20-30-cu illər Azərbaycanın dilçilik sahəsindəki elmi potensialına verilən qiymət kimi səciyyələndirmək olar.*

*Neçə-neçə böyük mədəniyyətin yaradıcısı olan xalqımızın tarixi qədər onun dilinin təşəkkülü tarixi də olduqca qədimdir.*

*XX əsr bütövlükdə Azərbaycan dilinin yazı mədəniyyətinin əsl inkişaf yoluna qədəm qoyduğu bir dövrdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meylləri əsasında yazı qaydaları cilalanmışdır.*

*1970-ci ildə Naxçıvansiki adına Orta Hərbi Məktəbin yaranması və ondan sonrakı illərdə sovet ordusunun Azərbaycanda mövcud olan iki ali hərbi məktəbində hər il azərbaycanlı gənclərin sayının artırılması, SSRİ məkanında təxminən 140-dan artıq hərbi məktəbə Azərbaycan gənclərinin göndərilməsi – bunların hamısı 70-ci illərdən başlayaraq azərbaycanlı zabit kadrları hazırlanmasının əsasını qoymuşdur.*

*XX əsrdə Azərbaycanın ən böyük nailiyyəti, birincisi, 1918-ci ildə öz dövlət müstəqilliyini elan etməsidir. İkincisi, 1991-ci ildə bu müstəqilliyin bərpa edilməsi və nəhayət, əldə olunmuş azadlığı, dövlət müstəqilliyini ötən on ildə çətin şəraitdə, çox ağır şəraitdə, bəlkə də sizin hamınızın təsəvvür edə bilmədiyiniz şəraitdə qoruyub saxlamasıdır.*





*XX əsrdə Azərbaycanın ən böyük nailiyyətləri həm də bundan ibarətdir ki, Azərbaycan xalqı təhsil, mədəniyyət, elm sahəsində bir sıçrayış dövrü keçiribdir. Əgər bütün başqa müsəlman ölkələri ilə indiki, bugünkü müstəqil Azərbaycanı müqayisə etsəniz, görərsiniz ki, XX əsrdə bizim keçdiyimiz yol, insanların kütləvi savadlanması, böyük ali təhsil sisteminin, elmin yaranması və inkişaf etməsi, çox görkəmli alimlərin, maarifçilərin yaranması, Azərbaycan mədəniyyətinin musiqisinin, ədəbiyyatın, incəsənətin bütün sahələrinin yüksək inkişaf etməsi məhz bu dövrə aiddir.*

*Bizim neft sənayesində əldə etdiyimiz nailiyyətlər bir neçə nəslin qabaqcıl insanlarının, yüksək səviyyəli alimlərin, mühəndislərin və neft sənayesində işləyən fədakar adamların sayəsindədir. Bunlar hamısı bizim tariximizdir. Tarixi heç vaxt unutmaq lazım deyildir. Çünki əgər millətin tarixi yoxdursa, o millət deyildir. Millətin tarixinin bir hissəsini silib atmaq, o biri hissəsini qabartmaq da millətə xəyanət etməkdir.*

*Əsrlər boyu müsəlman dininə etiqad edən Azərbaycan xalqı ümumbəşəri mədəniyyətə, ümumbəşəri dəyərlərə, Avropa dəyərlərinə qovuşdu - bütün bunlar Rusiya vasitəsilə, xüsusən XIX əsrin ikinci yarısında və təbii ki, XX əsrdə baş vermişdir.*

*Fövqəldövlətin qoşunlarının bir gecədə Bakıya göndərilməsi və dinc insanları məhv etməsi - bu, Sovetlər İttifaqının tarixində yeganə haldır, bu, qara ləkədir. Əgər bu gün Rusiyada, Moskvada kimsə bunu unutmaq və ya həmin cinayəti törətmiş insanlara bəraət qazandırmaq, onları bağışlamaq istəyirsə, mən indiyədək də hesab edirəm ki, onlar düzgün hərəkət etmirlər. Heç bir cinayət cəzasız qalmamalıdır.*

*Fransanın milli bayramı – 1789-cu ildə baş vermiş Fransa inqilabı Fransa xalqı üçün çox əziz olduğu kimi, bütün bəşəriyyət üçün də çox əhəmiyyətlidir. Çünki Fransa inqilabı, Bastiliyanın alınması bəşər tarixində yeni bir mərhələ açdı. Respublika üsul - idarəsi, insan hüquqlarına diqqət və onların qorunması, insanlara bərabərlik verilməsi sonra insanların, millətlərin, xalqların taleyində mühüm olan hadisələrin baş verməsinin əsasını qoymuşdur.*

*Biz Azərbaycan olaraq iftixar hissi keçiririk ki, Xəzər dənizinin enerji ehtiyatlarının kəşf edilməsində təşəbbüskar olmuşuq. 50 il bundan öncə, hələ dünyanın heç bir bölgəsində dənizdən, suyun dərinliklərindən neft hasil olunmadığı halda, 1949-cu ildə Azərbaycan əfsanəvi Neft Daşlarında ilk dəfə neft hasil etməyə başladı.*





*Azərbaycan neft sənayesinin, Azərbaycan neftçilərinin böyük, zəngin və şərəfli tarixi var.*

*Dünyada neft istehsalının və ondan artıq müxtəlif sahələrdə istifadə olunmasının təməli, əsası Azərbaycanda qoyulmuşdur.*

*Biz böyük iftixar hissi ilə deyirik ki, Azərbaycanın zəngin təbii sərvəti olan neftinin sənaye üsulu ilə hasil olunmasına başlanması dünyada gələcəkdə böyük dəyişikliklərin baş verməsinin səbəblərindən biri olmuşdur.*

*Əgər Azərbaycan nefti, ağır müharibə şəraitində Azərbaycan xalqının, Azərbaycan neftçilərinin qəhrəmanlığı olmasaydı, alman faşizminin qarşısını almaq çox çətin olardı.*

*Azərbaycan neftçisi, Azərbaycan xalqı zəhmət çəkibdir, böyük işlər görübdür və dünyada neft sənayesinin inkişafı üçün böyük töhfələr veribdir.*

*Azərbaycan həm qədim neft diyarıdır, həm də neft sahəsində çox yüksək səviyyəli mütəxəssislər hazırlayıb keçmiş SSRİ-nin bütün bölgələrinə öz xidmətini göstərən bir ölkədir.*

*Azərbaycan dövlət müstəqilliyini bəyan edən zaman, yəni 1991-ci ilin oktyabr ayının 18-də çox ağır, mürəkkəb bir dövr yaşayırdı. O vaxt*

*Azərbaycanda bəziləri Azərbaycanın müstəqil yaşamaq imkanına şübhə edirdi, yaxud inanmırdı. Bəziləri heç bunu istəmirdi. Bəziləri buna mane olurdu. Amma Azərbaycan xalqının çox əsrlər ərzində qəlbində yaşatdığı istək və arzu bütün bunların hamısına qalib gəldi. Azərbaycan dövlət müstəqilliyini əldə etdi və müstəqillik yolu ilə uğurla irəliləyir.*

*XIX əsrin sonunda və XX əsrin əvvəllərində Azərbaycanın vətənpərvər, mütəfəkkir insanları ölkəmizdə millətin içərisində olan müstəqillik arzularını gücləndirmək üçün milli oyanış, milli özünütanıma, öz millətini qiymətləndirmə fikirlərini ardıcıl olaraq oyatmağa başlamışdılar.*

*Bizim böyük şəxsiyyətlərimiz XIX əsrin sonunda - XX əsrin əvvəllərində, əgər elə təkcə 1906-cı ildə böyük Cəlil Məmmədquluzadə tərəfindən nəşr olunan «Molla Nəsrəddin» jurnalını götürsək, o ağır dövrdə Azərbaycanda milli oyanış, milli dirçəliş, mədəniyyətə, dünyəvi həyata, nə qədər təsir göstərmişdir, böyük arzu və istəklərin oyanmasının əsasını qoymuşdur.*

*Tarixdə heç bir səhifə təhrif olunmamalıdır.*

*Ötən yüzillikdə türk xalqları keşməkeşli bir tarix yaşamışlar. Lakin XX əsrin sonlarında*





*nəhəng Sovet imperiyasının dağılması və qardaş xalqlarımızın azadlığa, dövlət müstəqilliyinə qovuşması bizim hər birimizin, ümumən türk dünyasının möhtəşəm nailiyyəti, tarixi qələbəsidir. Biz tarixin verdiyi bu imkanı, çağdaş siyasi gerçəkliyi, yeni dünya nizamını aydın dərk etməli, müstəqilliyimizi və birliyimizi daha da möhkəmləndirərək xalqlarımızın azadlığını daima yaşatmağı bacarmalıyıq. Bunun üçün ortaq milli-mənəvi dəyərlərimizi, elmi-intellektual və mədəni potensialımızı, siyasi-iqtisadi gücümüzü türk dünyasının birliyi və bütövlüyü kimi müqəddəs məqsədə səfərbər etməliyik. Bu şərəfli işin tarixi məsuliyyəti türk dünyasının siyasət və fikir adamlarının üzərinə düşür.*

*Moskva Universiteti çoxlarına, o cümlədən də bizə - Azərbaycan xalqına, azərbaycanlılara əzizdir. Azərbaycanda demokratik mətbuatın banisi Həsən bəy Zərdabi hələ 1865-ci ildə Moskva Universitetini bitirmişdir. 1918-ci ildə Azərbaycanın dövlət müstəqilliyi qazandığı ildə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə başçılıq etmiş Fətəli xan Xoyski 1901-ci ildə Moskva Universitetində təhsilini başa çatdırmışdır. Sonrakı illərdə minlərlə, on minlərlə insan, o cümlədən azərbaycanlılar Moskva Universitetində təhsil almışlar.*

*Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demo-*

*kratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün İslam dünyasında Avropa tipli ilk dövlət - Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur.*

*Azərbaycan Xalq Cümhuriyyəti özünün qısa ömrü dövründə dəyərli fəaliyyət göstərmişdir və Azərbaycan xalqının müstəqil olmaq iradəsini nümayiş etdirmişdir. Biz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini, onun qurucuları Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin və digərlərinin xidmətlərini böyük minnətdarlıq hissi ilə yad edirik.*

*Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.*

*Orta əsrlərdən etibarən Azərbaycan mədəniyyəti Şərq ilə Qərb, müsəlman və xristian dünyaları arasında bir körpü olmuşdur.*

*Rusiya bizim üçün sadəcə qonşu deyil, həm də elə bir ölkədir ki, biz iki əsrdən artıq dövr ərzində eyni dövlətin tərkibində olmuşuq. Biz Qafqazdakı bir çox problemlərin həllini məhz bu ölkə ilə bağlayırıq.*





*Rusiya tarixinin bütün taleyüklü məqamlarında Sankt-Peterburq rus mənəviyyatının dayağı olmuşdur. Bəşər elminin elə bir sahəsi, incəsənətin elə bir növü, insan təfəkkürünün nüfuz etdiyi elə bir sahə yoxdur ki, bu şəhər orada öz izini qoymamış olsun.*

*Sankt-Peterburq şəhəri Rusiyanın şöhrətinin təcəssümüdür. O, rus ruhunun gücünü və qüdrətini özündə toplamış, rus xalqının yaradıcı potensialını artıraraq inkişaf etdirmiş, rus fikrinin və rus incəsənətinin təkraredilməz incilərini dünya mədəniyyətinin sərvəti etmişdir. Əsl rus ruhuna malik olan bu şəhərə zəka və qəlblərə hakim kəsilən bənzərsiz mənəvi mühit xasdır. O, bütün dünyaya məxsus olan bir şəhərdir.*

*Bizim tarixçilər, arxeoloqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar.*

*Gəmiqayanın daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanların qoyduğu izlər var. Bu, bizim, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir.*

*30 il bundan öncə yaratdığımız hərbiləşdirilmiş orta məktəb, indi Cəmşid Naxçıvanski*

*adına Hərbi Lisey Azərbaycanın milli ordusunun yaranmasında, zabit kadrlarının hazırlanmasında böyük iş görmüş və dəyərli xidmətlər göstərmişdir.*

*Dünyada ilk dəfə 150 il bundan öncə məhz Azərbaycanda sənaye üsulu ilə neft hasil olunubdur. Dünyada ilk dəfə də məhz Azərbaycanda 50 il bundan öncə suyun dərinliklərindən neft hasil edilibdir.*

*Türk əsgəri həmişə basılmaz olubdur.*

*23 iyul Misir inqilabı XX əsr tarixində ən böyük, möhtəşəm hadisələrdən biridir.*

*Fərqi yoxdur, nailiyyətlər biz Sovet İttifaqının tərkibində olduğumuz zaman, yaxud da ondan sonrakı dövrdə, müstəqillik dövründə olubdur, bunlar hamısı Azərbaycanındır, hamısı bizimdir, bizim millətimizindir.*

*Azərbaycanın müstəqilliyi XX əsrin sonunda qazandığımız ən dəyərli nailiyyətdir. Biz xoşbəxtik ki, dövlət müstəqilliyini əldə etmişik, bizim öz müstəqil dövlətimiz var, xalqımız öz müstəqil dövlətində yaşayır.*

*XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20*





*Yanvar faciəsi mahiyyət etibarilə həm də bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmişdir.*

*Biz qürur hissi ilə qeyd edirik ki, Azərbaycan, onun alim və mütəfəkkirləri tarixdə böyük iz qoyan möhtəşəm İslam sivilizasiyasına öz layiqli töhfələrini vermişdir.*

*Azərbaycanın Avropa Şurasına daxil olması tarixi bir hadisədir.*

*Repressiyaya təkcə ayrı-ayrı insanlar yox, təəssüflər olsun, bizim xalqımız da məruz qalmışdır. Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər, yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə, bütün xalqımız repressiyaya məruz qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq mərhələlərlə 1950-ci illərin sonlarına qədər davam etmişdir.*

*Bizim ən böyük xoşbəxtliyimiz odur ki, azadlığa çıxdıq, öz dövlət müstəqilliyimizi bərpa etdik.*

*Keçid dövrü, bir sistemdən başqa sistemə keçmək, bir iqtisadiyyatı vurub dağıtmaq, sonra*

*yeni bir iqtisadiyyat qurmaq, 70 il adət elədiyin cəmiyyətdən ayrılmaq və yeni bir cəmiyyət içərisində, qanunlar əsasında, demokratiya əsasında, söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı əsasında yaşamaq – bunların hamısı ağır və çətin proseslərdir.*

*Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, özü öz sərvətlərinin sahibi olandan sonra bu sərvətlərdən daha geniş və səmərəli istifadə edilməsi üçün böyük addımlar atmağa başladı. Bu addımlardan birincisi, bunun əsasını qoyan 1994-ci ilin sentyabr ayında Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri-Çıraq-Günəşli» yataqlarının istifadə edilməsi barədə «Əsrin müqaviləsi» adlanan müqavilənin imzalanması oldu.*

*Altay bizim babalarımızın qədim məskənidir.*





## ÖZÜ HAQQINDA

*Mən bəxtəvərəm ki, xalqa etdiyim xidmətlər qiymətləndirilib. Mən, adi bir Azərbaycan oğlu xalqımın on illərlə böyük etimadına layiq ola bilmişəm.*

*Mən həqiqəti görmək istəyirəm, həqiqəti bilmək istəyirəm. Nə isə xüsusi düzəldib, gətirib göstərəsən ki, bax, budur, amma həqiqət isə başqa cürdür - bu yaramaz.*

*Mənim həyatım ən gənc vaxtlarımdan Azərbaycan xalqının taleyi ilə bağlıdır, Azərbaycana həsr olunubdur.*

*Əmin ola bilərsiniz ki, Azərbaycanda sülhün, əmin-amanlığın qorunub saxlanması üçün*

*bundan sonra da öz səylərimi əsirgəməyəcəyəm. Mən bütün həyatımı Azərbaycana, xalqa həsr etmişəm. Mən gələcək illərdə də yalnız və yalnız bu cür yaşayacağam, öz məsuliyyətimi bu cür həyata keçirəcəyəm.*

*Görülən işlərin bəhrəsini görmək böyük səadətdir.*

*Mən Azərbaycanın prezidenti kimi, böyük tarixi bir missiyanı həyata keçirirəm, öz üzərimə böyük məsuliyyət götürmüşəm: mən bütün Azərbaycan xalqının qayğısını çəkirəm, Azərbaycanın vətəndaşlarının qayğısını çəkirəm, Azərbaycan dövlətinin qayğısını çəkirəm. Belə olan halda mənim üçün Azərbaycanın hər bir vətəndaşı doğmadır, əzizdir. Azərbaycanın hər bir gənci mənim üçün öz övladım kimi doğmadır, əzizdir. Azərbaycanın hər bir uşağı mənim üçün öz nəvəm kimi əzizdir, doğmadır.*

*Mən ömür boyu, həmişə Azərbaycanın bugünkü sərhədlərindən, hüdudlarından kənarda olan bütün azərbaycanlıların hamısını vahid Azərbaycan birliyində görmüşəm, birliyində hiss etmişəm.*

*Mən həyatda öz övladlarımı, öz nəvələrimi həmişə çox sevmişəm, indi də çox sevirəm. Ancaq Azərbaycanın dövlət başçısı kimi,*





*Azərbaycana on illərlə rəhbərlik etmiş bir şəxs kimi mənim üçün Azərbaycanın hər bir uşağı mənim öz övladımdır, mənim uşağımdır, mənim nəvəmdir.*

*Azərbaycanın hər bir vətəndaşının vətən, torpaq dərdi bizim ümumxalq dərdimizdir, mənim dərdimdir. Hər bir vətəndaşın öz ailəsinə, öz həyatına məxsus olan kədəri, dərdi Azərbaycan prezdenti kimi mənim özümün dərdimdir.*

*Çox sadam ki, illər boyu qəlbimdə yaşayan arzumu 1994-cü ildə həyata keçirə bildim, müqəddəs yerləri - Məkkəni, Mədinəni, Kəbəni ziyarət etdim. Bu, mənim həyatımda ən dəyərli tarixi bir hadisə olubdur.*

*Türkiyə mənim üçün müqəddəs bir yer, müqəddəs ölkədir, müqəddəs bir torpaqdır.*

*Mən həyatımı, bütün sağlamlığımı Türkiyəyə etibar edirəm.*

*Qürur hissi keçirirəm ki, bu illərdə, ağır illərdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına xalqla, millətlə birlikdə, bütün ölkə ilə birlikdə nail ola bilmişəm. Bu, mənim gördüyüm ən böyük işlərdəndir.*

*Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Mən inanıram, inanıram ki, biz buna nail olacağıq.*

*Mənim nəbzim Azərbaycanın nəbzi ilə döyünür.*

*Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm.*

*Son məqamda mənim ən böyük silahım vardır. O silah da xalqın mənə, Azərbaycan prezidentinə olan münasibətidir.*

*Mən cəsarətlə deyə bilərəm ki, Azərbaycanın gələcəyi üçün, çox xoşbəxt gələcəyi üçün, çox firavan, zəngin gələcəyi üçün biz əsaslı işlər görmüşük və görürük.*

*Mənim həyatımın mənası insanlarla, xalqla birlikdə olmağımdan ibarətdir və indiyə qədər həyatımda əldə etdiyim nailiyyətlər xalqın mənə göstərdiyi etimad, xalqın mənə göstərdiyi qayğı, xalqın mənə göstərdiyi hörmət və sevgi olmuşdur.*

*Mən fəxr edirəm ki, vaxtilə Kür çayı üzərində Şəmkir Su Elektrik Stansiyasının təməlini qoydum və onu qurub yaratdım. İndi o, Azərbaycana xidmət edir.*





*Mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə bəlkə də ən yüksək əhval-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himninin çalınmasıdır.*

*Bizim bugünkü nəsillərin borcu, o cümlədən Azərbaycan prezidenti kimi mənim borcum ondan ibarətdir ki, Azərbaycanda dövlət quruculuğu o qədər möhkəmlənsin, Azərbaycan dövləti o qədər qüdrətlənsin ki, ölkəmiz daim müstəqil ola bilsin.*

*Mədəniyyət və incəsənət kiçik yaşlarımdan qəlbimdə xüsusu yer tutur. Bəlkə də gənclik illərində arzum rəssam olmaq, yaxud teatra getmək idi. Amma qismət başqa cür oldu.*

*Mən xoşbəxtəm ki, artıq indi Azərbaycan mülki aviasiyasının milli kadrları, azərbaycanlı təyyarəçilər, mühəndislər, mütəxəssislər vardır və onlar Azərbaycanın mülki aviasiyasını bu gün də, gələcəkdə də inkişaf etdirəcəklər.*

*Böyük Allah mənə çox maraqlı tale veribdir. Mənim həyatım həmişə Azərbaycan xalqına xidmət etməkdən ibarət olubdur. Ancaq*

*həyatımın parlaq səhifələri də, ağır səhifələri də olubdur. Bəzən elə düşünürdüm ki, o ağır illərdə Azərbaycanda gördüyüm işlərin hamısı batıb gedəcəkdir. Ancaq bu gün mən xoşbəxtəm. Mən bu gün öz taleyimə minnətdaram. Böyük Allaha minnətdaram ki, mən o dövrləri yaşadım, qalib Azərbaycan xalqı ilə bir yerdəyəm.*

*Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin İslam dini ilə həmişə fəxr etmişəm. Şübhə etmirdim ki, vaxt gələcək, bizim ölkədə də insanlar tam azad olacaqlar, o cümlədən insanlara vicdan azadlığı veriləcək və onda onlar öz arzu və istəklərini daha da açıq bildirə biləcəklər.*

*Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük super dövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12 nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovetlər İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi,*





*hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım.*

*Mən fəxr edirəm ki, bir çox böyük dövlətlərin zəngin tarixə malik olan universitetlərinin fəxri doktoruyam. Ancaq daha çox fəxr edirəm ki, mən Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Universitetinin doktoruyam.*

*Mən ilk təhsilimi Naxçıvanda almışam. Əziz müəllimlərim Naxçıvanda mənə orta təhsil verib məni həyata buraxıblar. Ona görə Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin ən yüksək zirvəsidir. Mən bütün bunlara görə də fəxr edirəm.*

*Bəziləri məndən soruşurlar ki, Siz Azərbaycan dilini nə təhər belə səlis bilirsiniz? Bu sual da təbiidir, çünkü bilirlər – o təşkilatlarda ki, mən işləmişəm, onların hamısında rus dili işlənirdi. Bilirlər ki, mən ali məktəbdə rus sektorunda oxumuşam, sonra Leninqradda, Moskvada xüsusi məktəblərdə oxumuşam, onlar da hamısı rus dllində idi. Yəni demək olar ki, on altı yaşımdan sonra mənim bütün təhsilim, iş fəaliyyətim rus dilində gedibdir. Ona görə də soruşurlar ki, sən Azərbaycan dilini haradan bilirsən? Bu gün sizə səmimi*

*qəlbdən deyirəm ki, on altı yaşa qədər Naxçıvan məktəblərində müəllimlərimin mənə verdiyi dərslər, o cümlədən başqaları ilə bərabər ana dili, ədəbiyyat dərsləri mənim bugünkü dilimin əsasını təşkil edir.*

*Mən öz müəllimlərimi həmişə xatırlayıram.*

*Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir və sair və sair və sairdir.*

*Mən özümü çox xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o Ümid, Həsrət körpüsünün qısa müddətdə tikilməsində, yaranmasında təşəbbüskar oldum. Biz dostumuz Süleyman Dəmirəlin və Türkiyə hökümətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı. Bu, bizi xilas etməyə başladı.*

*Tarixin həqiqətləri budur. Mən həyat yolumda uzun müddət yüksək vəzifələrdə işləmişəm, amma ağır bir dövrüm də olubdur. Ancaq özümü xoşbəxt hiss edirəm. Mənim ağır dövrümdə Moskvadan qurtara bildim. Bakıda*





*mənə yer vermədilər, nəinki yer vermədilər, məni oradan inzibati sürətdə çıxartdılar. Naxçıvana gəldim. Naxçıvan məni qoynuna aldı, qorudu, saxladı, mən də onları qorudum, mən də onları saxladım.*

*Biz dövlət müstəqilliyimizi, demokratik yolumuzu, dünyəvi dövlət quruculuğu yolunu uğurla aparırıq və bundan sonra da aparacağıq.*

*Azərbaycan zəngin təbii sərvətlərə, yüksək elmə, mədəniyyətə, təhsilə, tərəqqiyə malik olan bir ölkədir. Ona görə də bizim öz vətənimizlə, doğma Azərbaycanla fəxr etməyə haqqımız vardır.*

*Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan torpağı mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, mənim Azərbaycan kimi millətim var. Mən fəxr edirəm ki, mənim doğma ana dilim, Azərbaycan dilim var. Mən fəxr edirəm ki, müstəqil, azad, qüdrətli Azərbaycan dövləti var.*

*Mən rus imperiyası tarixində, sovet imperiyası tarixində, sovet super dövlətinin tarixində Kremldə, o dövlətin başında duran ilk azərbaycanlı, ilk türk, ilk müsəlman olmuşam.*

*Məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə mənim fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başına bir türk oğlu yüksəldi.*

*Mənim çiyinlərimdə ağır yük var, Azərbaycan xalqının, müstəqil Azərbaycanın prezidenti kimi məsul bir yük var.*

*Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istəyirdim. Onda memar nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məsələn, Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Möminə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkilmiş çox gözəl şəkillərim vardı.*

*Əvvəlcə rəssam olmaq istəyirdim, sonra isə memarlığa meylim, memarlıq fakültəsinə daxil olmağım, memarlıq təhsili almağım bəlkə də elə bunlarla bağlı idi. Bunları görərək, bunların təsiri altında bu sənəti sevmişəm.*





*Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün bir doğma vətən kimi əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir.*

*Mən Naxçıvanda doğulmuşam, tərcümeyi-halımı bilirsiniz. Mən 16 yaşımda buradan Bakıya getmişəm, instituta daxil olmuşam. Sonra müharibə zamanı bir neçə il burada işləmişəm, ondan sonra yenə də təhsil almaq üçün buradan Leninqrada, sonra Moskvaya getmişəm. 1950-ci ildə oradan dönəndən sonra Bakıda işləmişəm.*

*Mən bir çox digər ölkələrin də mükafatlarını, nişanlarını almışam. Türkiyə Cümhuriyyətinin mükafatını, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq və xüsusən sülh adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm ki, bu mükafat mənim indiyə qədər aldığım mükafatların hamısından yüksək, qiymətlidir.*

*Mən həm məsuliyyətimi hiss edirəm, həm də vəzifələrimi bilirəm. Vəzifələrim bundan ibarətdir: Azərbaycanın prezidenti kimi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq və inkişaf etdirmək. Azərbaycanda hüquqi, demokratik, layiq, dünyəvi dövlət*

*quruculuğu prosesini inkişaf etdirmək və Azərbaycanda demokratiyanı, hürriyyəti, insan haqlarının təmin olunmasını bərqərar etmək. Azərbaycanda bazar iqtisadiyyatını, sərbəst iqtisadiyyatı inkişaf etdirmək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı ilə inteqrasiya etmək.*

*Azərbaycan Milli Diviziyası müharibə (1941-1945-ci illər müharibəsi nəzərdə tutulur-Red) qurtarandan sonra buraxıldı, dağıldı. Bu, o vaxtı Sovet imperiyasının siyasəti idi. Mən bu siyasəti görürdüm, başa düşürdüm. İstəyiridim ki, bütün vasitələrdən istifadə edib Azərbaycan gənclərini orduda peşəkar sənətini mənimsəməyə cəlb edim.*

*Azərbaycan prezidenti kimi mənim üçün hər bir ailədə uşağın dünyaya gəlməsi, bu ailənin sevinci elə mənim də sevincimdir.*

*Mənim üçün hər bir uşağın həyatı bizim ümumi cəmiyyətimizin həyatıdır.*

*Məni hər şeydən çox uşaqlar sevindirir – həm özlərinin varlığı ilə, həm istedadları ilə, həm gözəlliyi ilə, həm qabiliyyəti ilə, həm tərbiyəsi ilə.*





*Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir.*

*Mənim bütün həyatım xalqıma xidmətə həsr olunub. Amma bu gün həyatımın mənası, məqsədi müstəqil Azərbaycanın gələcəyini təmin etməkdir. Yəni Azərbaycan bir mustəqil dövlət kimi yaşasın və müstəqilliyi əbədi olsun. Azərbaycan inkişaf etsin və inkişaf etmiş dövlətlər səviyyəsinə çatsın. Azərbaycan yüksək iqtisadiyyata malik olsun və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları, Azərbaycanda hər bir insan xoşbəxt yaşasın, firavan yaşasın, rahatlıq şəraitində yaşasın, sabitlik şəraitində yaşasın, qorxu altında olmasın, təhlükə altında olmasın, gələcəyə baxsın və gələcək haqqında düşünsün. Budur mənim həyatımın bugünkü mənası və gördüyüm işlərin məzmunu!*

*Türkiyə mənim üçün doğmadır. Mən Türkiyənin hansı şəhərinə gedirəmsə, özümü məmləkətimdəki, şəhərimdəki kimi hiss edirəm.*

*Mən azərbaycanlıyam, Azərbaycan mənim ana torpağım, vətənimdir.*

*Mənim əsas gücüm, əsas mənbəyim xalqdır.*

*Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə Əbülfəz Elçibəy hakimiyyəti – heç biri Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi.*

*Çevrilişə cəhd edənlər silahlı idilər, özü də onlarda bütün silahlar var idi. Amma məndə heç bir tapança da yox idi. Ancaq məndə hər bir silahdan güclü olan xalq məhəbbəti var idi.*

*Mənim üçün hər bir Azərbaycan vətəndaşı eyni qiymət kəsb edir.*

*Mən Azərbaycanın hər bir vətəndaşının təminatçısıyam və Azərbaycan xalqına, hər bir vətəndaşa xidmət edən prezidentəm.*

*Biz həm partiyanın yaşlı nəslinə, veteranlarına daha da çox imkanlar yaradacağıq, eyni zamanda partiyanın gəncləşməsini təmin edəcəyik. Mən bunu partiyanın qarşısında əsas vəzifə kimi qoyuram.*

*Fəxr edirəm ki, tarixdə mən Azərbaycanın adını bir təbəqə yüksəklərə qaldırmışam.*

*Azərbaycanın gələcəyi üçün imkanlar yaratmaqdan ötrü Azərbaycanın dövlətinə başçılıq etmək, Azərbaycanın prezidenti olmaq mənim üçün ən böyük şərəfdir.*





*Bütün Azərbaycan xalqına bəyan edirəm ki, mən bundan sonra da bütün enerjimi, bütün gücümü, biliyimi, zəkamı Azərbaycan xalqına sədaqətlə xidmət etmək üçün istifadə edəcəm və ömrümdən qalanı edəcəyəm ki, Azərbaycan daim müstəqil olsun. Azərbaycan xalqı azad olsun, Azərbaycan xalqı inkişaf etsin.*

*Baykal-Amur Magistralı mənim həyatımın ən parlaq dövrlərindən biri olmuşdur.*

*Məndə kəskin dönüş 1990-cı ilin yanvarında, Azərbaycan xalqına qarşı təcavüz, terror törədilən vaxt baş verdi. Mən xalqıma qarşı bu cür ədalətsizliyə daha dözə bilmədim və Kommunist Partiyasından çıxdığımı bəyan etdim, bu təcavüzə, Qorbaçovun, bütün Siyasi Büronun siyasətinə qarşı açıq çıxış etdim. Sonra mənim yeni həyat tərzim başladı. Məni təqib etməyə başladılar. Qəzetlərdə yazır, xəlvəti nəsə edirdilər. Sonra isə açıqca təqib etməyə başladılar və mən Moskvadan getməyə məcbur oldum.*

*Azərbaycan müstəqil bir dövlət kimi dünya dövlətləri içərisində öz həyat tərzi, iqtisadiyyatı, mənəviyyatı, mədəniyyəti, təhsili ilə seçiləcəkdir. Mən buna inanıram.*

*Mən uşaqları, gəncləri bir insan kimi çox sevirəm.*

*Mən xoşbəxtəm ki, 1970-80-ci illərdə Azərbaycanın rəhbəri olduğum zaman ölkəmizdə müstəqil elektrik enerjisi potensialının yaradılmasına nail olmuşam.*

*Mən dəfələrlə demişəm - bir insan, adi vətəndaş kimi məktəbə qədəm qoyduğum ilk vaxtdan indiyədək mənim müəllimə böyük hörmətim, sevgim, məhəbbətim olubdur. Mən həyatımda çox yollardan keçmişəm. Həyatımın bəzi hissələrini bəlkə də mən indi xatırlaya bilmirəm, amma müəllimlərimi heç vaxt unutmamışam, hər bir müəllimim bu dəqiqə də gözümün qarşısındadır.*

*Mənim indi həyatımın əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın işğal edilmiş torpaqları azad olunsun, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, yerindən-yurdundan didərgin düşmüş insanlar öz torpaqlarına qayıtsın və sülh yaransın.*

*Mən bunu keçmişdə də demişəm, bu gün də deyirəm. Bu, mənim həyatımın kredosudur: mənəviyyat insanı yüksəldir, mənəviyyatsızlıq alçaldır.*

*Gənclərlə görüşmək hər bir insana ruh verir, hər bir insanı sevindirir, məni isə xüsusi olaraq sevindirir.*





*Hər bir dövlət adamının, hər bir nazirin, hər bir vəzifə sahibinin Azərbaycan xalqı qarşısında, Azərbaycan gəncləri qarşısında, Azərbaycan uşaqları qarşısında borcu var. Amma nə qədər çox etsək, yenə də xalqımıza, millətimizə borcluyuq, borcluyuq, borcluyuq. Mən şəxsən özüm haqqında demək istəyirəm ki, həyatımın son dəqiqəsinə qədər özümü xalqıma borclu kimi hiss edirəm və hər gün, hər dəqiqə o borcumu layiqincə yerinə yetirməyə çalışıram.*

*İki əsrin şahidi olmaq səadəti hər insana nəsib olmur. Bu, bizim payımıza düşübdür.*

*Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək.*

*Mən həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün, öz uşaqlarım, öz nəvələrim üçün və xalqımın gələcəyi üçün sülh, sülh, bir də sülh yaratmaq istəyirəm.*

*Sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər. Ona görə də mən ömrümün böyük bir hissəsini buna həsr etmişəm. Ömrümün qalan hissəsini də buna həsr edəcəyəm.*

*Mən dünyada özüm üçün ən böyük xoşbəxtlik onu hesab edirəm ki, Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasına nail ola bilim.*

*Mən böyük qürür hissi duyuram ki, XXI əsrin əvvəlində, üçüncü minilliyin əvvəlində Türkiyəyə rəsmi səfər etmək mənə nəsib olubdur.*

*Hər dəfə Türkiyəyə gələndə özümü çox bəxtiyar hiss edirəm, özümü öz Vətənimdəki kimi hiss edirəm, özümü qardaşlarımın arasında hiss edirəm.*

*Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır.*

*Mən Bakının su təchizatının həm genişlənməsi, həm də keyfiyyətinin yaxşılaşdırılması üçün vaxtilə çox zəhmət çəkmiş adamam və bu gün də bunu istəyirəm.*

*Moskvada Sov. İKP MK (Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi-Red.) Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi öz fəaliyyətimdə bunu mühim nailiyyət sanıram ki, arbitraj haqqında qanunu ilk dəfə biz qəbul etdik.*





*Çox çətin yollardan keçmişəm, amma həmişə nikbin olmuşam. Heç vaxt ruhdan düşməmişəm.*

*Mənim məqsədim, həyatımın mənası və məzmunu xalqa xidmət etmək və bu xidmətin əməli nəticələrinə nail olmaqdır.*

*Mən istərdim ki, hamı Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi haqqında düşünsün. Mən istərdim ki, hamı Azərbaycanın Ermənistanın işğalından xilas olunması haqqında düşünsün, öz şəxsi ambisiyaları haqqında yox.*

*Mən o vaxt Azərbaycana rəhbərlik edəndə çox düşünürdüm ki, nə üçün azərbaycanlılardan elm adamları var, mədəniyyət adamları var, alimlər var, mühəndislər var, yəni bütün sahələrdə – sanayedə, başqa sahələrdə çalışan çox dəyərli insanlarımız var, amma orduda yoxdur? Ona görə də çalışırdım ki, bizim Azərbaycanın gənc insanlarını hərbi məktəblərə daha çox cəlb edim.*

*Şəxsi tanışlıq, hər şeylə olmasa da, hər halda, mövcud olanların bir hissəsi ilə tanışlıq həmişə daha faydalıdır. Yeri gəlmişkən, keçmişdə bu, mənim həyat təcrübəmdə bir qayda idi və ona indi də əməl edirəm. Bu, mənə çox kömək*

*etmişdir. Çünki deyək ki, şəxsi görüşlər zamanı gördüklərimi, duyduqlarımı, hiss etdiklərimi müxtəlif səviyyəli əməkdaşların verdikləri informasiyadan heç vaxt ala bilmirdim.*

*Mənim həyatımda çox şey olubdur. Ancaq mühüm olanı odur ki, mən bütün bu sınaqlardan, bütün bu çətinliklərdən keçmişəm və yaşayıram. Yəqin ki, hələ çox illər yaşayacağam. Belə taleyi olan insan indi çətin ki, tapılsın. Çünki mən 14 il burada işləmişəm, respublikaya rəhbərlik etmişəm, sonra 5 il Moskvada Siyasi Büronun üzvü, Sovetlər İttifaqı kimi fövqəldövlətin Nazirlər Soveti sədrinin birinci müavini işləmişəm. Sonra isə təqib dövrü olmuş və o, təxminən üç il davam etmişdir. Sürgün dövrü də olmuşdur – mən məcbur olub Moskvadan Bakıya gələndə, mənə burada yaşamağa imkan vermədilər. Mən Vətənimə – doğulduğum, hazırda blokada vəziyyətində olan Naxçıvana getdim. Orada üç il yaşadım. Ondan sonra artıq 8 ildir Bakıda yaşayır və vaxtilə tikdiyim həmin bu binada işləyirəm. İnsanların taleyi müxtəlifdir. Kimsə öz taleyindən razı olur, kimsə narazıdır. Bütün bu çətinliklərə baxmayaraq, mən öz taleyimdən çox razıyam. Çünki qısa*





*ömür, qısa tale o qədər də maraqlı deyildir. Amma insan cürbəcür hadisələrlə qarşılaşanda, hər cür sınaqlardan çıxanda, yəqin ki, həm də daha çox təcrübə toplayır, daha da mətinləşir və bu mənada mən öz taleyimdən çox razıyam. Sabah nə olacağını bilmirəm, amma onu bilirəm ki, bundan sonra daha yaxşı olacaqdır.*

*Hər kəsin bir şeyə həvəsi var. Mən də ağac əkməyi çox xoşlayıram.*

*Bir azərbaycanlı kimi mən xalqımı sevirəm, öz xalqımın vətənpərvəriyəm. Mən çətin şəraitdə boya-başa çatmışam. Uşaqlıq illərində də, gənclik illərində də nəyə nail olmuşamsa, öz zəhmətimlə nail olmuşam, mənə heç kəs kömək etməmişdir.*

*Mən belə hesab edirəm ki, insan harada yaşayırsa-yaşasın, öz Vətənini unutmamalıdır, Vətəninin taleyinə və orada baş verən proseslərə biganə qalmamalıdır.*

*Sovetlər vaxtı mən Azərbaycana rəhbərlik edəndə bəzi partiya xadimləri və ya respublika rəhbərləri kitablar yazırdılar. Hətta bədii, elmi kitablar yazırdılar. Mən təəccüblənirdim,*

*onlar bu kitabları nə vaxt yazırlar? Əgər onlar işləyirlərsə, kitab yaza bilməzlər. Yox, əgər kitab yazırlarsa, onda işləyə bilməzlər. Mən yeganə bir yol - işləmək yolunu seçmişəm. Allah elə eləsin ki, xatirə yazmağa imkanım olsun. Çünki mənim xatirələrim olduqca çoxdur.*

*Məruz qaldığım bütün çətinliklərə baxmayaraq, öz taleyimdən çox razıyam. O cümlədən də Zərifə xanımın simasında çox layiqli ömür-gün dostum olduğuna görə.*

*Naxçıvanda orta məktəbi bitirdikdən sonra Bakıya gəldim və elə bilirdim ki, burada rəssamlıq institutu var. Ancaq rəssamlıq institutu yox, Rəssamlıq Texnikumu olduğunu biləndə, düşündüm ki, mən orta təhsillə bir yana çıxa bilməyəcəyəm. Belə olduqda mən yaxın ixtisası – memarlıq ixtisasını seçdim. Burada, Sənaye İnstitutunda memarlıq fakultəsi vardı, mən orada oxudum, özfəaliyyətdə, dram dərnəyində iştirak edirdim.*

*Rusiya mənim ürəyimdə çox xoş yer tutur.*

*Hər bir insan hansısa dinə mənsubdur, dinsiz insan yoxdur. Mən öz köklərimlə İslam dininə mənsubam, milliyyətcə azərbaycanlıyam. Bu*





*anlayışları heç zaman heç nəyə dəyişmərəm. Heç nəyə!*

*Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.*

*Mənim həyatda sevdiyim şey çoxdur. Bu, Vətəndir, torpaqdır, Azərbaycandır, mənsub olduğum xalqdır, bu torpağın suyudur, havasıdır, dağı-daşıdır, gülü-çiçəyidir, ağacıdır, çayıdır. Bunların hamısını mən sevirəm. Əgər insan öz Vətənini, torpağını, xalqını və onun ətrafında olan bütün hər şeyi sevə bilməsə, bu dünyada səmərəli yaşaya bilməz. Mən bunları sevirəm. Amma bunların hamısından çox uşaqları sevirəm. Çünki siz bizim xalqımızın gələcəyini davam etdirənlərsiniz.*

*Azərbaycan prezidenti kimi mən mətbuat azadlığının təminatçısıyam.*

*Böyük elm və ali təhsil mərkəzi olan, dahi rus alimi Lomonosov tərəfindən əsası qoyulmuş, dünya elminə, mədəniyyətinə, bəşər sivilizasiyasına misilsiz töhfələr vermiş Moskva Dövlət Universitetinin fəxri professoru olmaq mənim üçün böyük şərəfdir.*

*Jurnalistika sənəti mənə çox yaxın olubdur.*

*Hər bir iş adamı - xarici ölkədən gəlmiş, yaxud Azərbaycan vətəndaşı, - bilsin ki, Azərbaycanın Prezidenti kimi mən onun sağlam iş görməsinin himayədarıyam. Bu himayədarlığı daim edəcəyəm. Hər bir iş adamına, sağlam iş görən iş adamına mənim daim qayğım olacaqdır. Hər bir iş adamının iş görməsi üçün şəraitin yaxşılaşdırılmasını özümün əsas vəzifələrimdən biri hesab edirəm.*

*Azərbaycan Prezidenti olaraq mən hələ 30 il bundan öncə müstəqillik haqqında-bəlkə də, bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, - düşünüb hərbi məktəb yaratmışdım. Artıq bir neçə ildir Naxçıvan filialı yaranıbdır. Güman edirəm, illər keçəcək, biz yenidən burada görüşəcəyik və Naxçıvan filialı haqqında qəbul etdiyimiz qərarın da nə qədər vacib, əhəmiyyətli olduğunu bir daha təsdiq edəcəyik.*

*Mənim həyatımın böyük tarixi var. Bunu bilirsiniz. Müxtəlif dövrlərdə mənim həyatım üçün yaranmış vəziyyətlər və mənim gördüyüm işlər var. Hamısı eyni deyil, hərəsinin öz yeri var. Ancaq mənim üçün hamısı qiymətlidir. Ola bilər, içimdən, kökümdən gələn, genetik quruluşumdan gələn bir şeydir ki, mən doğulduğum, yaşadığım torpağı həmişə, gənclik dövrümdən o qədər sevmişəm*





*ki, hər dəfə bu torpağı, bu yeri, bu insanları xatırlayanda düşünürəm ki, bunlar mənim üçün hamısından əzizdir.*

*Naxçıvana gəlişim məndə çox müxtəlif hissiyyatlar yaradır. Bunların sevindirici cəhətləri də var, məyusedici cəhətləri də var. Ancaq əgər hamısını birlikdə götürsəm, görürəm ki, bu hissiyyatların çoxu mənim üçün, birincisi, əziz olubdur və mənim həyatımda öz rolunu oynayıbdır. İkincisi də, nə qədər uzaq dövrdən olsa da, mənimlə yaşayıb və yaşayır.*

*Mən dövlətlərdən çox mükafatlar almışam. Həm sovet dövlətindən, həm digər dövlətlərdən mənim çox ordenlərim var. Əgər onların hamısını taxsam, döşümə yerləşməyəcək. Amma müəllimdən alınan mükafat, müəllimdən alınan qiymət hamısından üstündür.*

*Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, mən o vaxt orada Qorbaçovun və onun tərəfdarlarının qarşısında, Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir qaya kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük bir dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun tarixində və Sovet imperiyasının tarixində*

*Moskvada müsəlman, türk, azərbaycanlı heç vaxt Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən də orada öz xalqımın – Azərbaycan xalqının, təkcə Azərbaycan xalqının yox, müsəlmanların və türk dünyasının mənafeyini imkanım çatan qədər müdafiə etməyə çalışırdım.*

*Mən Siyasi Büroda olarkən, mənim əleyhimə işlər gedəndə Ermənistanın böyük bir şairi yazmışdı ki, nə qədər ki, Siyasi Büroda erməni xalqının düşməni olan türk – Heydər Əliyev oturub, biz Qarabağ məsələsini həll edə bilməyəcəyik.*

*Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksəyi müəllimdir.*

*Mən öz müəllimlərimə daim minnətdar olmuşam, bu gün də minnətdaram.*

*Mənim üçün ən aziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycanın Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən, uşaqlarından asılıdır.*





*O dövrdə, elə bu gün də mənim vəzifəm hər bir istedadlı adama əlimdən gələn köməyi göstərməkdən ibarət olmuşdur.*

*Mənim qəlbim həmişə Gəncə ilədir, gəncəlilərlədir.*

*Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır. İndiyə qədər mənim həyatım xalqa xidmətdə keçib.*

*İnsan ümidsiz yaşaya bilməz. Mən bütün həyatımı ümidlə yaşamışam.*

*Hərbi Lisey həmişə mənim qəlbimdədir, 1971-ci ildən hər il mən buraya gəlmişəm, kursantlarla, müəllimlərlə, zabitlərlə görüşmüşəm. Nə üçün? Çünki Azərbaycanın rəhbəri kimi mən diqqəti buraya cəlb edəndə təbiidir ki, bütün başqa təşkilatlar da buna qoşulurdular.*

*SSRİ hökumətinin, Kommunist Partiyasının elan olunmamış bir qərarı var idi ki, ali hərbi məktəblərə əsasən ruslar, ukraynalılar, beloruslar qəbul oluna bilərlər. Qalan millətlərdən gənclərin hərbi məktəblərə qəbul edilməsini çox nadir hadisə kimi qəbul etmək olardı. Bunları görəndə, bu barədə fikirləşəndə düşü-*

*nürdüm, yaxşı, biz Sovetlər İttifaqının bərabər hüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq? Demək, əlavə tədbirlər görmək lazım idi ki, bu maneəni keçəsən və azərbaycanlıları orduda komandan, zabit vəzifəsinə çatdıra biləsən. Ona görə də mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra, 1971-ci ildə bununla məşğul oldum.*

*Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam.*

*Mən siyasət adamıyam. Ancaq dilsiz, ədəbiyyatsız, şeirsiz insan yaşaya bilməz.*

*Mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.*





*Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam.*

*Mən həmişə müəllimlərimizin əməyinə hörmətlə yanaşmışam.*

*Dövlət ən çətin vaxtlarında belə təhsilə və təhsil işçilərinə, məktəbə və müəllimə kömək etməlidir. Bu, fəaliyyətimin bütün dövrlərində mənim prinsipial mövqeyim olmuşdur.*

HEYDƏR

# ƏLİYEV

## MÜDRİK FİKİRLƏR

OKTYABR 1998-2003 OKTYABR

# İç səhifədəkilər

DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA 9

ORDU QURUCULUĞU 53

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR 71

KONSTİTUSİYA VƏ QANUNÇULUQ 81

İQTİSADİYYAT 89

DİL 115

TƏHSİL VƏ ELM 125

MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT 137

BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN 151





159 MƏNƏVİ DƏYƏRLƏR

177 AZƏRBAYCAN XALQI

191 VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK

201 MİLLİ MÜNASİBƏTLƏR

207 TERRORİZM, SEPARATİZM, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ

215 QADIN VƏ AİLƏ

221 UŞAQ VƏ GƏNCLƏR

241 ZİYALILAR VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR

261 MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR

273 AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ

283 SİYASİ PARTİYALAR VƏ MÜXALİFƏT

291 KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

299 DÜNYA AZƏRBAYCANLILARI

313 DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

343 TARİX VƏ TARİXİ HADİSƏLƏR

379 ÖZÜ HAQQINDA

TƏRTİBAT
REGİONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ

ÇAŞIOĞLU MƏTBƏƏSİNDƏ ÇAP OLUNMUŞDUR
AZƏRBAYCAN
ISBN: 978-9952-27-159-1